AZƏRBAYCAN DİLİ

Rafiq İsmayılov
Xanım Qasımova
Fazil Ellazov

AZƏRBAYCAN DİLİ

Ümumtəhsil məktəblərinin
7-ci sinfi üçün dərslik

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
23.03.2008-ci il tarixli, 357 №-li əmri ilə
təsdiq edilmişdir.

ALTUN KITAB

Bakı - 2008

Rafiq İsmayılov
Xanım Qasımova
Fazil Ellazov
Azərbaycan dili (7-ci sinif üçün dərslik)
Bakı, "Altun Kitab", 2008, 160 səh.

Elmi məsləhətçi *f.e.n. İsmayıl Əhmədzadə*

Redaktor *Elçin Manafov*
Bakı şəhər 49 №-li "İntellekt" məktəb-liseyinin müəllimi

Dərsliyi metodiki cəhətdən işləyən
Aygün Mikayılova
Bakı şəhər Avropa liseyinin müəllimi

Rəyçilər *f.e.n. Şəmil Sadıqov*
Bakı şəhər 20 №-li orta məktəbinin müəllimi

Sədaqət MƏMMƏDOVA
Bakı şəhər 67 nömrəli orta məktəbinin müəllimi

Sahibə Məmmədova
Bakı şəhər Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin müəllimi

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

© Azərbaycan Respublikası Təhsil Nazirliyi (2008)
© Altun Kitab (2008)

KİTABIN İÇİNDƏKİLƏR

İlk dərs — 5-7
Nitq hissələrini necə müəyyən etməli

1. 6-cı sinifdə keçilmişlərin təkrarı — 8-12
** İsim * Sifət * Say * Əvəzlik*

I BÖLMƏ. Fel

2. Fel haqqında ümumi məlumat — 13-14
** Felin şəxsə və kəmiyyətə görə dəyişməsi*

3. Felin quruluşca növləri — 15-25
** Sadə, düzəltmə və mürəkkəb fellər*

4. Təsdiq və inkar fellər — 26-27

5. Təsirli və təsirsiz fellər — 28-30

6. Felin qrammatik məna növləri — 31-41
** Məlum növ * Məchul növ * Qayıdış növ*
** Şəxssiz növ * Qarşılıq-birgəlik növ * İcbar növ*

7. Felin zamanları — 42-51
** Keçmiş zaman * İndiki zaman * Gələcək zaman*

8. Felin şəkilləri — 52-63
** Əmr şəkli * Xəbər şəkli * Vacib şəkli * Lazım şəkli*
** Arzu şəkli * Şərt şəkli*

9. Felin təsriflənməyən formaları. Məsdər. — 64-66
** Məsdərin ikili xüsusiyyəti*

10. Feli sifət — 67-70
** Feli sifətin ikili xüsusiyyəti*

11. Feli bağlama — 71-75
** Feli bağlamanın ikili xüsusiyyəti*

12. "İdi", "imiş" köməkçi felləri, "isə" hissəciyi — 76-79

13. Felin cümlədə rolu və morfoloji təhlil qaydası — 80-89

II BÖLMƏ. ZƏRF

14. Zərf haqqında ümumi məlumat 90-91

15. Zərfin quruluşca növləri 92-96
** Sadə, düzəltmə və mürəkkəb zərflər*

16. Zərfin məna növləri 97-103
** Tərzi-hərəkət zərfləri və onların sifətdən fərqi * Zaman zərfləri və onların zaman mənalı isimlərdən fərqi * Yer zərfləri və onların məkan mənalı isimlərdən fərqi * Miqdar zərfləri və onların qeyri-müəyyən miqdar saylarından fərqi*

17. Zərfin cümlədə rolu və morfoloji təhlil qaydası 104-111

III BÖLMƏ. KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ

18. Ümumi məlumat 112-113

19. Qoşma 114-122
** Qoşmaların ismin müxtəlif hallarında olan sözlərlə işlənməsi*
** Qoşmaların məna növləri və onların orfoqrafiyası*
** Qoşmaların omonimliyi və sinonimliyi*

20. Bağlayıcı 123-128
** Bağlayıcıların mənaca növləri * Tabesizlik və tabelilik bağlayıcıları * Bağlayıcıların quruluşca növləri * Bağlayıcıların orfoqrafiyası*

21. Ədat 129-134
** Ədatların məna növləri * Ədatların omonimliyi*
** Ədatların orfoqrafiyası*

22. Modal sözlər 135-139
** Modal sözlərin mənaca növləri * Modal sözlərin orfoqrafiyası*

23. Nida 140-141
** Nidaların mənaca növləri * Nidaların quruluşca növləri * Nidaların orfoqrafiyası*

Köməkçi nitq hissələri üzrə təkrar 142-147

Morfologiya bəhsi üzrə təkrar 148-153

7-ci sinif üçün Azərbaycan dili Proqramı 154-159

İLK DƏRS

1. Mantiq. Əsas nitq hissələri bir mərtəbədə, müxtəlif otaqlarda qalmalı olurlar. Siz bilirsiniz ki:
- Sayla sifət qonşudurlar;
- Say ismin otağına girmək üçün sifətin otağından keçə bilər;
- Əvəzlik istədiyi nitq hissəsinin otağına bir qapı açmaqla keçə bilər;
- Zərf isimlə felin arasında qalır, lakin isimlə onun arasında qapı yoxdur.

Hər bir nitq hissəsinin hansı otaqda qaldığını tapın.



➢ Nitq hissələrinin bu cür yerləşməsində məntiqi qanunauyğunluq varmı? Varsa, onu izah edin.

2. Uğur və uğursuzluq haqqında deyilən aforizmlərin hissələrini birləşdirib dəftərinizdə yazın.

1. Kim öz uğuruna inanırsa...
2. Məğlubiyyətdən qorxanlar deyil...
3. Uğur qazanıb yolunu azmayan adam...
4. Ya heç nə etməyin...
5. Yüksəyə qalxmaq istəyirsənsə...

A. ... mübarizə aparanlar uğur qazanacaqlar. (J.Kopp)
B. ... başqa uğurlar da qazanar. (H.Laski)
C. ... gec-tez onu əldə edəcək. (K.Gebbel)
D. ... lap aşağıdan başlamalısan. (Y.Simonis)
E. ..: ya da axıracan edin. (P.Ovidi)

➢ Ən çox xoşunuza gələn aforizmi seçin və öz seçiminizi izah edin.

Mətnlə iş. Sizcə, insan üçün elm daha vacibdir, yoxsa var-dövlət? Cavabınızı əsaslandırmaq üçün ən azı üç arqument söyləyin.

İndi isə aşağıdakı mətni oxuyun və bir daha bu sual haqqında düşünün.

ELM ÜSTÜNDÜR, YOXSA MAL?

"Mən elmin şəhəriyəm, Əli də bu şəhərin qapısıdır".

Bu sözləri ulu Peyğəmbərimiz Məhəmməd Rəsulullah söyləmişdir. O, öz əmisi oğlu Əlinin ağlını və dərrakəsini çox yüksək qiymətləndirirdi. Allahın Aslanı ləqəbini qazanmış Əli ibn Əbu Talib həmişə elmi var-dövlətdən üstün sayırdı.

Həzrət Əlinin yüksək elminə şübhə edən bir neçə şəxs sözü bir yerə qoyur ki, bir-bir gedib Əliyə "Nəyə görə elm maldan üstündür?" – deyə sual etsinlər. Əgər Əli hamıya eyni cür cavab versə, deməli, o, bir o qədər də elmli deyil. Belə də edirlər. Bir-bir onun hüzuruna gedirlər.

Həzrət Əli birinciyə belə cavab verir:

– Elm üstündür, çünki o, peyğəmbərlərdən mirasdır, mal isə – hökmdarlardan.

İkinciyə deyir:

– Elm daha önəmlidir, çünki elm sahibini qoruyur, malı isə sahibi qoruyur.

Üçüncüyə cavab verir:

– Elm daha böyük ləyaqətdir, çünki mal sahibinin düşmənləri çoxdur, elm sahibinin isə dostları.

Dördüncüyə belə deyir:

– Elm daha üstündür, çünki malı payladıqca azalır, elmi payladıqca çoxalır.

Beşinciyə cavabı belə olur:

– Mal sahibinə "xəsis" deyərlər, elm sahibinə isə hörmətlə xitab edərlər.

Altıncını:

– Mal qəlbi qaraldır, elm isə nurlandırır, - deyə yola salır.

Yeddinciyə cavab verir:

– Elmə çatan istəsə, mala da çatar. Mala can atan isə elmdən uzaqlaşar.

Həzrət Əlinin biliyini yoxlamaq istəyən şəxslər onun elmin yüksək zirvəsində olduğunu başa düşüb Allahın Aslanını rahat buraxdılar.

➢ *Mətndə elmin üstünlüyü barədə deyilmiş bütün fikirlərlə razısınızmı?*

➢ *Oxuduğunuz mətn elm və maddi dəyərlər barədə fikirlərinizdə hər hansı dəyişiklik etdimi? Hz. Əlinin arqumentləri bu gün də öz aktuallığını saxlayırmı? Bununla bağlı debat keçirin.*

NİTQ HİSSƏSİNİ NECƏ MÜƏYYƏN ETMƏLİ?

Hazırlıq

"Belə" sözü hansı nitq hissəsinə aiddir?

Cümlələri oxuyun və bir daha yuxarıdakı suala cavab verməyə çalışın.

İndidən belə dünyaya texnika və informasiya hakim olacaqdır.
Hətta müəllimimiz belə bu suala cavab verməkdə çətinlik çəkdi.

NİTQ HİSSƏLƏRİNİN LEKSİK-QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Dilimiz çox zəngindir və sözlərin hansı nitq hissəsinə aid olmasını əzbərləməklə yadda saxlamaq mümkün deyil. Hər bir sözün hansı nitq hissəsinə aid olduğunu müəyyən etmək üçün həmin sözün leksik və qrammatik xüsusiyyətlərini araşdırmaq lazım gəlir.

Leksik xüsusiyyətlər dedikdə nitq hissəsinə xas olan ümumi leksik məna nəzərdə tutulur. Məsələn, bütün isimlər əşyanın adını, bütün fellər isə hərəkətini bildirir.

Qrammatik xüsusiyyətlər isə nitq hissəsinin formal xüsusiyyətləridir: sözün cümlədə rolu, quruluşca növü, şəkilçilər qəbul edərək dəyişməsi və s.

Müəyyən bir nitq hissəsinə aid olan söz başqa bir nitq hissəsinin qrammatik xüsusiyyətlərinə malik ola bilər. Məsələn, bir çox nitq hissələri isim kimi hallana, şəxs şəkilçisi qəbul edə, mənsubiyyətə görə dəyişə bilər. Lakin ismin leksik xüsusiyyəti (əşyanın adını bildirməsi) yalnız onun özünə aiddir.

Beləliklə, sözün hansı nitq hissəsinə aid olduğunu müəyyən etmək üçün aşağıdakılar əsas götürülür:

1) Sözün ümumi leksik mənası - ad, hərəkət, əlamət və s.;
2) Sözün nə ilə bağlı olması - əşya, yoxsa hərəkətlə;
3) Sözün qrammatik xüsusiyyətləri - cümlədə rolu, başqa sözlərlə əlaqəsi, hansı şəkilçilər qəbul etməsi və s.

Bəzən nitq hissəsini təyin etmək üçün sözün sinonimini tapmaq lazım gəlir, çünki sinonimlər eyni nitq hissəsinə aid olur.

Unutmayın!

Dilçilikdə mübahisəli məsələlər çoxdur və bu, təbiidir, çünki dil əsrlər boyu müxtəlif daxili meyillər və xarici təsirlər altında formalaşmış, indi də daim inkişafda olan çox mürəkkəb bir "orqanizm"dir. İstənilən mübahisəni həll etmək və ya ona münasibət bildirmək üçün ilk növbədə elmdə qəbul olunmuş qaydaları bilmək və onları konkret materiala tətbiq etməyi bacarmaq lazımdır. Bu dərslik məhz bunu öyrədir.

1 VI sinifdə keçilmişlərin təkrarı

İsim, sifət, say, əvəzlik

Hazırlıq

Sizcə, əlifba icad olunana qədər insanlar öz fikirlərini yazıda necə əks etdirirdilər?

Mətnlə iş. Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

MİXİ YAZILARI

Yazının meydana gəlməsi insanların bilik və təcrübələrinin artması ilə bağlı olmuşdur. İnsanlar əldə etdikləri **bilikləri** gələcək nəsillərə ötürməli idilər. Bunu isə yazı vasitəsilə etmək mümkün idi.

Çox qədimlərdə insanlar fikirlərini ifadə etmək üçün rəsmlərdən istifadə edirdilər. Bu **yazı** növünə elmdə piktoqrafiya deyilir.



Miladdan öncə III **minilliyin** ortalarında şumerlərin istifadə etdikləri yazı mixi yazı adlanırdı. Mixi yazıda hər bir işarə bütöv sözü, anlayışı və ya hecanı ifadə edirdi. Belə yazı ideoqrafiya adlanır.

Miladdan əvvəl III minillikdə Azərbaycanın cənubunda yaşayan əhali mixi yazı ilə tanış idi.

Assuriya padşahı Aşşurbanipalın əmri ilə mixi xətlə yazılmış çoxlu gil "kitablar" bir yerə toplandı. Bu kitabxana dünyada ilk kitabxana hesab olunur.

1. Mətndə fərqləndirilmiş isimləri aşağıdakı cədvələ əsasən morfoloji təhlil edin.

	bilikləri	*yazı*	*minilliyin*	*Assuriya*
Hansı suala cavab verir?				
Başlanğıc forması				
Quruluşca növü				
Hansı nitq hissəsindən yaranıb?				
Konkret, yoxsa mücərrəddir?				
Ümumi, yoxsa xüsusidir?				
Tək, yoxsa cəmdir?				
Mənsubiyyət şəkilçisi varmı?				
Hansı haldadır?				

2. Test. Mətnin sonuncu abzasında altından xətt çəkilmiş söz haqqında deyilənlərdən hansı düzdür?

A) Mücərrəd isimdir.
B) Xüsusi isimdir.
C) Atributivləşmiş isimdir.
D) Qeyri-müəyyən yiyəlik haldadır.
E) Cümlədə tamamlıq rolundadır.

3. Debat. Müasir anlamda yazı aid olduğu dilin orfoqrafik xüsusiyyətlərini əks etdirən işarələr sistemidir. Bu baxımdan piktoqrafiyanı yazı növü adlandırmaq düzgündürmü?

Mətnlə iş. Müasir çinlilərin və yaponların istifadə etdikləri yazı sistemi necə adlanır?

HEROQLİF NƏDİR?

Miladdan öncə III minillikdə **qədim** Misir xalqı öz yazı sistemini yaratdı. Sonralar yunanlar bu yazını heroqlif (müqəddəs) adlandırdılar. **Əvvəlki** yazılardan fərqli olaraq heroqlif yazısında yalnız sözləri deyil, həm də səsləri ifadə edən işarələr var idi.

Misir yazısı 750-yə qədər heroqlifdən ibarət idi. Bu yazını öyrənmək çox çətin idi. Ona görə də **savadlı** adamlar çox az idi.

Qədim yazıya malik olan xalqlardan biri də çinlilər olmuşlar. Onlar Miladdan 2000 il əvvəl öz yazı sistemlərini yaratmışdılar. Bu yazı da heroqlif yazısı hesab olunur. Çin heroqlif yazısı **daha mürəkkəb** idi. Burada bir neçə min işarə var idi.

4. Mətndə fərqləndirilmiş sifətləri aşağıdakı cədvələ əsasən morfoloji təhlil edin.

	qədim	*əvvəlki*	*savadlı*	*daha mürəkkəb*
Hansı suala cavab verir?				
Əlamət, yoxsa keyfiyyət bildirir?				
Quruluşca növü				
Hansı nitq hissəsindən yaranıb?				
Müqayisə dərəcəsi				
Bağlı olduğu söz				
Cümlədə rolu				

5. Sizcə, heroqlif yazısı hansı yazı növünə aiddir - piktoqrafik (şəkli), yoxsa ideoqrafik (fikri)?

6. Mətnin ikinci abzasında altından xətt çəkilmiş ifadələr arasındakı fərqli və oxşar cəhətləri morfoloji və sintaktik baxımdan izah edin.

7. "Heroqlif nədir?" mətninin son cümləsindəki say
A) Müəyyən miqdar sayıdır.
B) Qeyri-müəyyən miqdar sayıdır.
C) Kəsr sayıdır.
D) Sıra sayıdır.

Mətnlə iş. Son yüz ildə Azərbaycan xalqı hansı əlifbalardan istifadə etmişdir?

ƏLİFBA

Bildiyiniz kimi, əlifba finikiyalılar tərəfindən ixtira edilmişdir.

Əvvəlki yazı sistemlərindən fərqli olaraq, əlifbadakı işarələr səsləri ifadə edir. Bu yazı növü tez bir zamanda başqa xalqlar arasında da yayıldı. **Hərə** öz dilinin səs sisteminə uyğun əlifba yaratdı.

Finikiya əlifbasının əsasında yunan, latın, daha sonra kiril əlifbası yaradıldı. İndiyə qədər bir çox xalqlar bu əlifbalardan istifadə edirlər.

Finikiya əlifbası 𐤀|𐤁|𐤂|𐤃|𐤄|𐤅|𐤆|𐤇|𐤈|𐤉|𐤊|𐤋|𐤌|𐤍|𐤎|𐤏|𐤐|𐤑|𐤒|𐤓|𐤔|𐤕

Yunan əlifbası Α|Β|Γ|Δ|Ε|Ζ|Η| |Ι|Κ|Λ|Μ|Ν| |Ο|Π| |Ρ|Σ|Τ

Latın əlifbası A|B|G|D|E|F|Z|H| |I|K|L|M|N| |O|P| |Q|R|S|T

Bəzi xalqlar isə **öz** tarixləri boyu tamamilə fərqli əlifbalar yaratmışlar. Belə xalqlardan biri də türklər idi. Qədim türk yazı nümunələri ilk dəfə Orxon və Yenisey çayları ətrafında tapıldığından **həmin** əlifbaya Orxon-Yenisey əlifbası deyilir. Bu əlifba 38 işarədən ibarətdir.



8. Mətndə fərqləndirilmiş əvəzlikləri aşağıdakı cədvələ əsasən morfoloji təhlil edin.

	hərə	*bəzi*	*öz*	*həmin*
Hansı suala cavab verir?				
Hansı nitq hissəsini əvəz edir?				
Quruluşca növü				
Mənaca növü				
Cümlədə rolu				

9. Test-debat. İdeoqrafik yazı sisteminə nisbətən əlifbanı mənimsəmək daha asan idi, çünki:
A) Buradakı işarələr daha sadə idi.
B) Dildəki sözlər səslərdən qat-qat çoxdur.

Mətnlə iş. Qədim yazıları oxumaq nə üçün vacibdir?

QƏDİM YAZI TƏDQİQATÇILARI

Qədim yazı nümunələri uzun müddət oxunmamış qalmışdır, çünki alimlər həmin yazıların sirrini açа bilmirdilər. Bu sahədə ən böyük kəşflərdən biri fransız alimi Jan Fransua Şampolyona (1790-1832) məxsusdur. 17 yaşında ikən Şampolyon "Qədim Misir coğrafiyası", **1821-ci** ildə isə ikicildlik "Misirin fironlar dövrü tarixi"ni yazmışdı. **Bir neçə** qədim dil bilən Şampolyon **onlarla** Misir heroqlifinin mənasını açmağa müvəffəq oldu. Onun qədim Misir yazısı ilə oxuduğu ilk sözlər fironların adları - "Ptolemey" və "Kleopatra" olmuşdur.

K L E O P A T R A

Qədim türk yazılı abidələri XVIII əsrin əvvəllərində ruslar tərəfindən əsir götürülmüş və Qərbi Sibirə sürgün edilmiş bir İsveç zabiti tərəfindən aşkar edilmişdi. Lakin **200** il müddətində heç kim bu yazıların sirrini açа bilmədi. Bəziləri hətta Orxon-Yenisey abidələrinin qədim avropalılara - german xalqına məxsus olduğunu iddia edirdi. Türk əlifbası ilə yazıları ilk oxuyan alim danimarkalı Vilhelm Tomsen olmuşdur (1893-cü il). Onun oxuduğu ilk söz isə "tenqri" (tanrı) olmuşdur.

10. Mətndə fərqləndirilmiş sayları aşağıdakı cədvələ əsasən morfoloji təhlil edin.

	1821-ci	*bir neçə*	*onlarla*	*200*
Ümumi qrammatik mənası				
Sualı				
Hansı isimlə bağlı olması				
Quruluşca növü				
Mənaca növü				
Cümlədə rolu				

11. "Qədim yazı tədqiqatçıları" mətnində altından xətt çəkilmiş sözləri müvafiq sırada yazın.

- Xüsusi isimdən düzəlmiş ümumi isimlər _____
- Mürəkkəb adlar _____
- Söz birləşmələri _____
- Əvəzliklər _____

12. Yuxarıda verilmiş dörd mətnə ümumi bir ad qoyun.

13. Mətnlərlə bağlı mülahizələrdən hansı səhvdir?

A) Heroqlifi ideoqrafik yazı sistemindən əlifbaya keçid hesab etmək olar.

B) Heroqlif yazı sistemində hərflərin olması xüsusi isimləri işarə etmək ehtiyacından doğurdu.

C) Qədim yazı nümunələri xalqların tarixini öyrənmək üçün yeganə mənbədir.

D) Qədimdə Azərbaycanın cənubunda yaşayan əhali mixi yazıdan istifadə etmişdir.

14. Sadalanan əlamətlərin hansı nitq hissələrinə aid olduğunu müvafiq xanalarda qeyd edin (✓)

	İsim	Sifət	Say	Əvəzlik
1. Müqayisə dərəcələri var.	☐	☐	☐	☐
2. İstənilən nitq hissəsinin yerində işlənə bilir.	☐	☐	☐	☐
3. Numerativ sözlərlə işlənə bilir.	☐	☐	☐	☐
4. Ümumi və xüsusi olur	☐	☐	☐	☐
5. Substantivləşə bilir.	☐	☐	☐	☐
6. Konkret və mücərrəd olur.	☐	☐	☐	☐
7. Sıra və ya miqdar bildirir.	☐	☐	☐	☐
8. Hal şəkilçiləri var.	☐	☐	☐	☐
9. Qeyri-müəyyənlik bildirən növü var.	☐	☐	☐	☐
10. Əlamət və keyfiyyət bildirir.	☐	☐	☐	☐

Fel haqqında ümumi məlumat 2

Felin qrammatik mənası

Hazırlıq

Eyni sırada tərəflər arasındakı məntiqi əlaqəni təyin edin və boş qalmış xanaları doldurun.

№	A	B
1.	İsim	əşyanın adı
2.		əlamət, keyfiyyət
3.	Say	
4.		hərəkət

Sözlük

Təzahür etmək - üzə çıxmaq, özünü büruzə vermək, özünü göstərmək, ifadə olunmaq.

YADDA SAXLA Felin qrammatik mənası və sualı

Ümumi mənasına görə hərəkət bildirən əsas nitq hissəsi fel adlanır. Məsələn, *qaçmaq, oynamaq, mişarlamaq* və s.

Masa arxasında əyləşib düşünən adam haqqında "hərəkət edir" demək olmaz. Buna baxmayaraq "*düşünmək*" sözü ümumi qrammatik mənasına görə hərəkət bildirir, ona görə də feldir. Bu baxımdan *utanmaq, inanmaq, dinləmək* sözləri də hərəkət bildirir və feldir.

Fel haqqında danışarkən "hərəkətin icrası" anlayışı da şərti xarakter daşıyır. Belə ki, hərəkətin icra olunmadığını bildirən sözlər də feldir: *oxumadı, hiss etmədi.*

Fel *nə etmək?* sualına cavab verir. Bu nitq hissəsi şəxsə, kəmiyyətə, zamana görə dəyişdiyindən onun sualı da müxtəlif formalarda təzahür edir:

Mən məktəbə tələsirəm.	Nə edirəm?
Səni dünən teatrda görüblər.	Nə ediblər?
Bundan sonra çox çalışarsan.	Nə edərsən?

1. Aşağıdakı cümlələrdən hansının xəbəri feldir? Cavabınızı əsaslandırın.

1. *Uzaqdan gördüyüm, sən demə, adi bir kol imiş.*
2. *Bu yerlərin narı çox məşhurdur.*
3. *Bir gün Nəsirəddin Tusi Marağaya gedirmiş.*
4. *Hamının tərifləyiyi oğlan bax budur.*
5. *Nağıllarda ən çox işlənən say yeddidir.*

2. Dəftərinizdə nümunəyə uyğun cədvəl tərtib edin. Verilmiş felləri müvafiq xanalarda yazmaqla cədvəli doldurun.

görürsən, aldım, gedəcəksiniz, tərpəndilər, gəlirdik

Nümunə:

Fel	*Sualı*	*Şəxs*	*Kəmiyyət*	*Zaman*
qaçdı	Nə etdi?	III şəxs	tək	keçmiş

YADDA SAXLA Felin əsas qrammatik xüsusiyyətləri

Feli digər nitq hissələrindən fərqləndirən əsas qrammatik xüsusiyyətlər bunlardır:

- hərəkət bildirir;
- şəxsə, kəmiyyətə, zamana görə dəyişir;
- təsirli və təsirsiz olur;
- təsdiq və inkarda olur;
- təsriflənən və təsriflənməyən olur;
- qrammatik məna növləri və şəkilləri var.

3. Verilmiş felləri şəxsə, kəmiyyətə və zamana görə dəyişərək atalar sözlərini tamamlayın.

titrəmək - III şəxs, tək, gələcək zaman, təsdiq _____
yatmaq - II şəxs, tək, indiki zaman, inkar _____
yarılmaq - III şəxs, tək, keçmiş zaman, təsdiq _____
istəmək - III şəxs, tək, indiki zaman, təsdiq _____
inanmaq - III şəxs, tək, keçmiş zaman, inkar _____

1. Oğru elə bağırdı, doğrunun bağrı ...
2. Yalançının evi yandı, heç kəs ...
3. Lay-lay başa düşürsən, niyə ...?
4. Yaz günündə tərləməyən qış günündə ...
5. Gördüyündən göz payı ...

Hazırlıq

1. Hər bir izahın qarşısında müvafiq feli bildirən hərfi dairəyə alın: *A) oturmaq, B) durmaq, C) oturub-durmaq*

1. Ayaq üstə şaquli vəziyyətdə dayanmaq A B C
2. Əlaqə saxlamaq, dostluq, yoldaşlıq etmək A B C
3. Yanını yerə, oturacağa qoymaq, əyləşmək A B C

➢ Sübut edin ki, "oturub-durmaq" müstəqil bir sözdür. Bu sözü "oturub gözləmək" birləşməsi ilə müqayisə edin.

2. "Vuruş" və "barış" fellərini tərkibinə görə təhlil edin.

YADDA SAXLA Müxtəlif nitq hissələrindən düzələn fellər

Felin quruluşca üç növü var: **sadə, düzəltmə, mürəkkəb.**

Sadə fellər bir kökdən və ya kök və qrammatik şəkilçidən ibarət olur: *sev(mək), yaz(maq), dur-ur, qaç-ma.*

Dilimizdəki bütün sadə fellər türk mənşəlidir.

Düzəltmə fellər müxtəlif nitq hissələrinə leksik şəkilçilər artırmaqla düzəlir.

Aşağıdakı şəkilçilər isim, sifət, say və zərfdən fel düzəldir.

-la²: qabaq-la(maq), irəli-lə(mək), yel-lə(mək);
-lan²: lovğa-lan(maq), ev-lən(mək), dil-lən(mək);
-laş²: soraq-laş(maq), bir-ləş(mək), yaxşı-laş(maq);
-ar²: ağ-ar(maq), göy-ər(mək), yaş-ar(maq);
-al² (-l): az-al(maq), düz-əl(mək), qara-l(maq).

Əvəzlikdən düzələn fellər çox azdır: *mən-imsə(mək).*

3. Aşağıdakı fellər hansı nitq hissələrindən düzəlmişdir?

daralmaq, çoxalmaq, durulmaq, sancılanmaq, yaxınlaşmaq, dincəlmək, zədələmək, arxalanmaq, sancaqlamaq, otarmaq

İsimdən _____

Sifətdən _____

Saydan _____

Zərfdən _____

4. Dördündən biri fərqlidir.

qana(maq), sına(maq), boya(maq), qına(maq)

YADDA SAXLA Feldən fel düzəldən şəkilçilər

Feldən fel düzəldən şəkilçilər bunlardır:

-ıl⁴: as-ıl(maq), əz-il(mək), yor-ul(maq), döy-ül(mək);

-dır⁴: çat-dır(maq), bez-dir(mək), don-dur(maq), gül-dür(mək);

-ıt⁴(t): anla-t(maq), qızar-t(maq), axıt(maq);

-ır⁴: qaç-ır(maq), keç-ir(mək), düş-ür(mək);

-ın⁴(n): çal-ın(maq), sil-in(mək), yol-un(maq), görün(mək), dola-n(maq);

-ış⁴(ş): at-ış(maq), gəz-iş(mək), gül-üş(mək), bula-ş(maq).

Sonuncu şəkilçilər həm də feldən isim düzəldə bilir: *səp-in, ged-iş*. Onları omonim şəkilçi adlandırmaq olar.

Diqqət!

Feldən fel düzəldən şəkilçilər, əsasən, dördvariantlı şəkilçilərdir. Başqa nitq hissələrindən fel düzəldən şəkilçilər isə, əsasən, ikivariantlı şəkilçilərdir. Lakin istisnalar da olur:

bərk-i(mək) - sifətdən düzəlmiş fel

qop-ar(maq) - feldən düzəlmiş fel

5. Düşünün. *Çıxar(maq), gecik(mək), salla(maq), turş-u(maq)* fellərinin yaranmasında hansı qayda pozulub?

6. Ümumi müzakirə. Aşağıdakı söz cütlüklərinə daxil olan fellər arasındakı məna fərqini göstərin.

1) qorumaq — qorunmaq,
2) oturmaq — oturtmaq,
3) qazmaq — qazdırmaq,
4) sərmək — sərilmək,
5) batmaq — batırmaq,
6) gəzmək — gəzişmək.

Diqqət!

Düzəltmə sözlə sözün kökü (və ya başlanğıc forması) arasında məna yaxınlığı olur.

Bir çox omonimlər var ki, müxtəlif nitq hissələrinə aiddir və onların hər birindən fel düzəltmək olur.

Qat (lay, təbəqə) → *qatlamaq* (isimdən düzəlmiş fel)
Qat (qarışdır, daxil et) → *qatılmaq* (feldən düzəlmiş fel)

Bu cür sözləri (*qatlamaq* və *qatılmaq*) eyniköklü sözlər hesab etmək olmaz, çünki onların kökü eyni səs və hərf tərkibinə malik olsa da, müxtəlif nitq hissələrinə aiddir, müxtəlif mənalar kəsb edir və deməli, müxtəlif sözlərdir.

7. "*Qandır(maq)*" və "*qanat(maq)*" sözlərini eyniköklü sözlər kimi qəbul etmək olarmı?

8. Dördündən biri fərqlidir.

atış(maq), atlan(maq), atıl(maq), atdır(maq)

9. Təhlil. *Quraşdırmaq, qurdalamaq* fellərini morfoloji tərkibinə görə təhlil edin.

10. Düşünün. Hansı cütlüyə daxil olan sözlər məna baxımından bir-birinə yaxındır: *salamla - salamlaş, qabaqla - qabaqlaş*, yoxsa *qatla - qatlaş*?

Diqqət!

-la² + -n, -la² + -ş, yoxsa -lan², -laş²?

Feldən fel düzəldən əksər şəkilçilər digər nitq hissələrindən düzəlmiş fellərə də qoşula bilər: *səs-lə-n(mək), xəstə-lən-dir(mək), çox-al-t(maq).*

-lan², -laş² şəkilçilərini *(-la²)+(-n)* və *(-la²)+(-ş)* şəkilçilərindən fərqləndirmək lazımdır. Dilimizdə *quru-la(maq), qarşı-la(maq)* sözləri var. Bu sözlərə *-n, -ş* şəkilçilərini əlavə etməklə yeni fellər yaratmaq olar: *quru-la-n(maq), qarşı-la-ş(maq).* Lakin *lovğala, vidala* sözləri yoxdur, odur ki, *lovğa-lan(maq), vida-laş(maq)* sözləri bir şəkilçinin köməyi ilə yaranıb: *-lan²* və ya *-laş²* şəkilçisinin.

Bir sıra düzəltmə fellər də var ki, onlarda leksik şəkilçi ilə sözün kökü arasında bitişdirici samit olur: *su(ʊ)-ar(maq), de(ɣ)-iş(mək), ara(ş)-dır(maq)*

Bəzən isə şəkilçi qəbul edərkən söz kökünün son saiti düşür: *qov(u)r-ul(maq), sar(ı)almaq.* Bu sözlər də sadə fel sayılır.

11. Debat. "*Ayaqlaş*" sözünün morfoloji tərkibi ilə bağlı debat keçirin.
I qrup: Bu söz "*ayaqla*" sözünə *-ş* şəkilçisi artırmaqla yaranıb.
II qrup: Bu söz "*ayaq*" sözünə *-laş²* şəkilçisi artırmaqla yaranıb.

12. Təhlil. "*Dillənmək*", "*parçalanmaq*", "*səslənmək*", "*ağıllanmaq*" sözlərini tərkibinə görə təhlil edin. Onları morfoloji tərkibinin oxşarlığına görə iki qrupa bölün.

13. Debat. "Sallan" sözünün morfoloji tərkibi ilə bağlı debat keçirin.
I qrup: "Sallan" sözünün kökü "sal"dır.
II qrup: "Sallan" sözünün kökü "salla"dır.

14. Məntiq. Dördündən biri morfoloji baxımdan fərqlidir.
1. a) soyunmaq, b) soyumaq, c) soyundurmaq, d) soyulmaq
2. a) düşünmək, b) deşilmək, c) düşürmək, d) düşündürmək
3. a) düzlənmək, b) düzəlmək, c) düzülmək, d) qısalmaq
4. a) azalmaq, b) azdırmaq, c) birləşmək, d) çoxalmaq

Diqqət!

Şəkilçi, yoxsa şəkilçiyəbənzər sonluq?

Bir sıra sadə fellər var ki, onların sonluğu fel düzəldən şəkilçiləri xatırladır: *yapış(maq), dağıl(maq), anla(maq), yarış(maq), sataş(maq), güləş(mək).*

Bu felləri düzəltmə fellərlə səhv salmaq olmaz, çünki bu cür sözlərin "kök"ü (şəkilçiyə bənzər sonluğa qədərki hissəsi) ya heç bir məna vermir (*gizlə*), ya da sözün mənası ilə heç bir yaxınlığı olmur (*güləş, düşün*).

Bir sıra fellər var ki, onların "kökü" təhrif və ya ixtisar olunmuş, dəyişmişdir. Məsələn, kiçilmək, qızarmaq, uzanmaq. Aydındır ki, bu sözlər müvafiq olaraq "*kiçik*", "*qırmızı*", "*uzun*" sifətlərindən yaranmışdır. Bununla belə, bu cür fellər də quruluşuna görə sadə fel sayılır.

15. Debat. 1) "*Dinləmək*" və "*sevinmək*" sözləri sadə fellərdir, yoxsa düzəltmə?

16. Təhlil. Verilmiş sözləri morfoloji tərkibinə görə təhlil edin.

əlaqələndirilir, təbəqələşdilər, sancılanmaq, soyuqlamaq, zənginləşdirilmişdir, tutqunlaşmaq

Nümunə: *kəskinləşdirmək* ⌐¬ + ⌒ + ⌒ + ⌒ + ⌒

Kəs - sözün kökü, fel;

-kin[4] - feldən sifət düzəldən şəkilçi;

-ləş[2] - sifətdən fel düzəldən şəkilçi;

-dir[4] - feldən fel düzəldən şəkilçi;

-mək[2] - qrammatik şəkilçi.

17. Ümumi müzakirə. "*Xatırlamaq*", "*dolaşdırmaq*", "*araşdırmaq*", "*süpürüşmək*" sözlərinin morfoloji tərkibi ilə bağlı mülahizələrinizi söyləyin.

18. "*Azdırmaq*" və "*azalmaq*" sözləri arasındakı morfoloji fərqi izah edin.

19. Təhlil. Çərçivədə verilmiş felləri quruluşuna görə qruplaşdırın.

dinləmək, hallanmaq, məsləhətləşmək, güləşmək, işləmək, sataşmaq, təmizləmək, nizamlamaq, oyanmaq, anlamaq, sabitləşmək, savaşmaq, bozarmaq, bağışlamaq

Sadə fellər _____

_____

Düzəltmə fellər _____

_____

YADDA SAXLA Mürəkkəb fellər

Mürəkkəb fellər iki və daha artıq sözün birləşməsindən yaranır. Bu birləşmə nəticəsində yaranan leksik vahid yeni bir məna bildirir. Mürəkkəb fellərin yaranma yolları müxtəlifdir:

1. Yaxın və ya əks mənalı fellərin birləşməsindən yaranan mürəkkəb fellər: *bəzənib-düzənmək, düzüb-qoşmaq, gedib-gəlmək, oturub-durmaq* və s.

Göründüyü kimi, bu mürəkkəb fellərdə birinci tərəf *-ıb*[4] feli bağlama şəkilçisi qəbul edir. Lakin bu fellər həmin şəkilçisiz də işlənə bilər. Belə olduqda mürəkkəb feli əmələ gətirən fellərdən hər biri qrammatik cəhətdən dəyişə bilər: *atır-tutur, atıldı-düşdü.* Bu yolla yaranan fellər defislə yazılır.

2. Digər mürəkkəb fellər ayrı yazılır və tərkibi fel adlanır. Bu fellər iki cür olur 1) *olmaq, etmək (eləmək)* köməkçi fellərinin başqa nitq hissələrinə qoşulması ilə yaranan tərkibi fellər: *nail olmaq, həll etmək* və 2) *bilmək* köməkçi felinin *-a*[2] şəkilçisi qəbul etmiş fellərə qoşulması ilə yaranan tərkibi fellər: *oxuya bilmək, yaza bilmək.*

Qeyd: Dilimizdə hərəkət mənası bildirən çoxlu sayda frazeoloji birləşmələr də var: *qulaq asmaq, söz güləşdirmək, başa düşmək, ürəyi yanmaq, əli gəlməmək* və s. Bir leksik məna bildirsələr də, bu birləşmələr morfoloji deyil, sintaktik vahid sayılır və nitq hissəsi kimi qəbul edilmir.

20. Sütunları tutuşdurun. A sütunundakı sözləri B sütunundakı müvafiq sözlərlə birləşdirərək dəftərinizdə yazın və onların mürəkkəb fel, tərkibi fel, frazeoloji birləşmə olduğunu təyin edin.

yandırmaq	*salmaq*
dəridən-qabıqdan	*etmək*
qane	*süpürmək*
təyin	*çıxmaq*
silmək	*yanmaq*
ələ	*yaxmaq*
ürəyi	*olmaq*

Diqqət!

"Olmaq" sözü *yaşamaq, var olmaq, malik olmaq* mənalarında müstəqil (sadə) fel kimi də işlənir: *pulu olmaq, uzaqda olmaq.* Müqayisə edin: 1. *Dünən bütün günü ofisdə olmuşam* (müstəqil fel). 2. *Mən 1994-cü ildə anadan olmuşam* (köməkçi fel).

"Etmək" sözü də nadir hallarda müstəqil fel kimi işlənir: *Sən niyə belə etdin?* (müstəqil fel). *Sən niyə etiraz etdin?* (köməkçi fel).

"Bilmək" sözü tərkibi fel daxilində işlənərkən "bacarmaq" mənasını verir: *Mən üzə bilirəm = Mən üzməyi bacarıram.* Lakin bu söz müstəqil (sadə) fel kimi də işlənə bilir və bu halda "biliyə malik olmaq" mənasını verir: *Mən bu şeiri bilirəm.*

21. Hansı misralarda tərkibi fel var?

1. *Həştərxana gedən gəmi bənd olur,*
   Qayıdıb gələndə yükü qənd olur.
2. *Əziziyəm can qoydum,*
   Araxçını yan qoydum.
3. *Oğlanı yoldan eylər*
   Qızın şirin dilləri.
4. *Mal-mülk çoxunda olar,*
   İnsanlıq az adamda.
5. *El köç eylər bu dağa,*
   Quşlar qonmaz budağa.

22. *Gözəl olmaq, xəstə olmaq, yaxşı olmaq, kasıb olmaq, varlı olmaq, zəngin olmaq, qoşa olmaq, şad olmaq* fellərində *olmaq* köməkçi felini hansı leksik şəkilçilərlə əvəz etmək olar?

23. Cədvəlin birinci sütunundakı isimlər hansı fellərlə birləşib frazeoloji birləşmə yarada bilər? Unutmayın ki, bu isimlərə hal və mənsubiyyət şəkilçiləri də qoşula bilər.

	almaq	*vermək*	*vurmaq*	*salmaq*	*açmaq*	*döymək*	*çəkmək*
göz							
əl							
söz							
xəbər							
cavab							
zərər							
baş							
ayaq							

24. "*Uzanmaq*" sözü hansı mənada düzəltmə sözdür?
A) "Üfüqi vəziyyət almaq" mənasında
B) "Uzun olmaq" mənasında
C) "Boy atmaq" mənasında
D) Heç bir mənada düzəltmə söz deyil.

25. "*Uzlaşdırmaq*" və "*uzaqlaşdırmaq*" sözləri arasındakı morfoloji fərqi izah edin.

26. Aşağıdakı fikirlər "*göndəriş*"*(A)*, "*döndər*"*(B)*, "*qarış*"*(C)*, "*ucalt*"*(D)*, "*düzəl*"*(E)* sözlərindən hansına aiddir?

Qeyri-məhsuldar şəkilçi vasitəsilə düzəlmiş feldir.	A	B	C	D	E
İki leksik şəkilçi vasitəsilə düzəlmiş feldir.	A	B	C	D	E
Feldən düzəlmiş isimdir.	A	B	C	D	E
İsimlə omonimlik təşkil edən sadə feldir.	A	B	C	D	E
Sözün kökü sifətdir .	A	B	C	D	E
Sifətdən düzəlmiş feldir.	A	B	C	D	E

Mətnlə iş. "Yeddi gözəl" poeması haqqında nə bilirsiniz?

NEMAN ŞAH VƏ SİMNAR

Bəhram anadan olanda atası Yəzdigürd onu tərbiyə olunmaq üçün Neman şahın sarayına göndərdi. Neman qərara gəldi ki, Bəhram üçün şahzadə adına layiq qəsr tikdirsin və bu işi icra etmək üçün layiqli usta axtarmağa başladı.

Bir gün Nemana xəbər gətirdilər ki, sən deyən usta, olsa-olsa, Rum ölkəsində yaşayan Simnar olacaq. Onun sənətinin şöhrəti bütün dünyanı tutub. Bir baxışı ilə bütün yüksəklikləri təyin edir. Göyün sirlərindən, Aydan, Günəşdən xəbər verir. Şahzadə üçün ən yüksək sarayı ancaq o tikə bilər. Belə iş onun əlindən gəlir. Palçıqdan elə bir tağ tiksin ki, göy qübbəsi yalan olsun.

Neman bu xəbərdən sevindi. Sənətkarı görmək arzusu ilə qəlbi alovlandı. Adam göndərib Simnarı gətirtdi. Fikrini ona dedi və lazım olan hər şeyi hazırlatdı.

Simnar sarayı tikib qurtardıqdan sonra Neman ona gözlədiyindən ikiqat artıq peşkəş, xələt verdi. Bu peşkəşləri görəndə Simnarın gözü bərəldi və dedi:

- Bilsəydim bu qədər peşkəş alacağam, bundan da uca saray tikərdim.

Neman soruşdu:

- Deməli, çox muzd versələr, bundan da yaxşı qəsr tikə bilərsən?

- İstəyirsən elə bir bina ucaldım ki, bu saray onun yanında heç olsun...

("Yeddi gözəl"in motivləri əsasında Mir Cəlalın yazdığı eyni adlı nəsr əsərindən istifadə olunmuşdur)

➢ Sizcə, Simnarın bu cavabından sonra Neman şah nə etdi? Bu haqda öz mülahizələrinizi söylədikdən sonra Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından müvafiq hissəni oxuyun və onu mülahizələrinizlə müqayisə edin.

➢ Altından xətt çəkilmiş felləri quruluşuna görə qruplaşdırın.

QİYMƏTLƏNDİRMƏ

2-3-cü mövzular

1. Hansı əvəzliklər düzəltmə felin kökü ola bilər?
1) biz, 2) onlar, 3) mən, 4) elə, 5) hər, 6) öz, 7) bu
A) 1, 5, 6
B) 2, 4, 7
C) 1, 7
D) 3, 6
E) 4, 5, 6

2. «Dinləmirəm» sözünün tərkibinə görə təhlili hansı sxemə uyğundur?
A) ⌐¬ ^ ◠ ◠
B) ⌐¬ ◠ ◠ ◠
C) ⌐¬ ^ ◠
D) ⌐¬ ^ ◠ ◠ ◠
E) ⌐¬ ^ ◠

3. «Alov» sözünə hansı şəkilçini artırmaqla düzəltmə fel yaratmaq olar?
A) -ın[4]
B) -lan[2]
C) -la[2]
D) –dır[4]
E) –laş[2]

4. İki leksik şəkilçisi olan felləri göstərin.
1) dayandırdı, 2) səsləndi, 3) yoruldu, 4) qarşılandı, 5) qanadlandı 6) həvəsləndi
A) 2, 4, 5
B) 1, 3, 5
C) 2, 4
D) 5, 6
E) 1, 3, 6

5. Biri tərkibinə görə fərqlidir.
A) qarışdırmaq
B) barışdırmaq
C) dalaşdırmaq
D) görüşdürmək
E) güləşdirmək

6. Biri tərkibinə görə fərqlidir.
A) bölüşdürmək
B) dəyişdirmək
C) döyüşdürmək
D) töküşdürmək
E) ötüşdürmək

7. Biri tərkibi feldir.
A) ölçüb-biçmək
B) dərsi bilmək
C) kitab oxumaq
D) yardım etmək
E) gözdən salmaq

8. Şəkilçilərdən biri həm əvəzlikdən, həm də feldən fel yarada bilər.
A) -laş^{2}
B) -dır^{4}
C) -al^{2}
D) -imsə^{4}
E) -ış^{4}

9. Eynikökllü felləri göstərin.
A) ağırlaşmaq, ağartmaq
B) bölünmək, bölüşmək
C) güldürmək, gülmür
D) yaratmaq, yaranmaq
E) işıldamaq, işıqlanmaq

10. Cümlələrdən birinin xəbəri sifətdən düzələn feldir.
A) Xəstə tezliklə sağaldı.
B) Ötən xatirələr unuduldu.
C) Şagirdlər sıraya düzüldü.
D) Bu xəbər çox sevindiricidir.
E) Döyüşçülər çətinliklə irəlilədilər.

4 Təsdiq və inkar fellər

-ma² şəkilçisi

Hazırlıq

Test. Cədvəlin 2-ci sütunundakı fellər 1-ci sütundakı fellərdən nə ilə fərqlənir?

I	II
gizləndi	*qaldıra bilmədim*
açacaqlar	*saymayacağıq*
deyib-gülürsən	*almadılar*
şənlənirdik	*tutmadı*
saralıb-soldular	*anlamırlar*

A) Quruluşuna görə
B) Hərəkət bildirmədiyinə görə
C) Bildirdiyi hərəkət icra olunmadığına görə
D) Zamana görə

YADDA SAXLA Felin təsdiq və inkar formaları

Felin bildirdiyi hərəkət icra oluna və ya olunmaya bilər. Bu baxımdan fellər iki cür olur: təsdiq fellər və inkar fellər.

Təsdiq fellər hərəkətin icra edildiyini bildirir: *qaçır, oxumuşam, getdi.*

Hərəkətin icra edilmədiyini bildirən fellərə isə inkar fellər deyilir: *görmədi, qorxmuruq, qayıtmayacaqsan.*

Felin inkar forması, əsasən, *-ma²* şəkilçisi, bəzən isə *deyil* köməkçi sözü vasitəsilə düzəlir: *düzəlməyəcək, düzələsi deyil, əzbərləməməlidir, əzbərləməli deyil.*

Təsdiq və inkarda olan fellər antonim deyil.

1. Altından xətt çəkilmiş sözlərin isim (İ), sifət (S), yoxsa inkar fel (F) olduğunu müvafiq xanada qeyd edin.

1. *Əziyyət çəkib yoxlama, hər şey düzdür.* ( )
2. *Çox fikirləşib bunun qurma iş olduğunu başa düşdü.* ( )
3. *Yeni aldığı çəkmə ayaqlarını yaman sıxırdı.* ( )
4. *Dəvəni eşşəyin quyruğuna bağlama.* ( )
5. *Belə dadlı süzmə ömrümdə yeməmişdim.* ( )

YADDA SAXLA -ma² şəkilçisinin müxtəlif funksiyaları

Felin inkar formasını düzəldən *-ma²* şəkilçisini isim və sifət düzəldən *-ma²* şəkilçisi ilə səhv salmaq olmaz. Bu şəkilçilər omonimdir və onların aşağıdakı fərqləri var.

-ma² *felin inkar şəkilçisi*	*-ma²* *isim və sifət düzəldən şəkilçi*
1. Qoşulduğu söz hərəkət bildirir.	1. Qoşulduğu söz əlamət və ya əşya adı bildirir.
2. Qrammatik şəkilçidir.	2. Leksik şəkilçidir.
3. Vurğu qəbul etmir: *gəlmə, dondúrma*	3. Vurğu qəbul edir: *gəlmə́ (adam), dondurmá*

Felin zamanından asılı olaraq *-ma²* inkar şəkilçisinin sa-iti (*a*) ixtisara düşə bilər: *get-m-ir, işlə-m-ir, yaz-m-ar-am.*

2. Araşdırma. İzahlı lüğətin köməyi ilə aşağıdakı sözlərin fel və isim kimi mənalarını dəftərinizdə yazın və cümlələrdə hər iki nitq hissəsi kimi işlədin.

çəkmə, bağlama, soyutma, bölmə

Nümunə:

Qızdırma *(isim)* - İsitmə xəstəliyi, malyariya. *Ulu Peyğəmbərimiz əhalini qızdırma xəstəliyindən xilas etmək üçün Mədinə ətrafındakı bataqlıqları qurutmağa qərar verdi.*

Qızdırmaq *(fel)* - 1. İsitmək, bir şeyin hərarətini yüksəltmək. 2. Qızdırma xəstəliyinə tutulmaq. *Biz donmuş sərçə balasını xilas etmək üçün onu nəfəsimizlə qızdırmağa çalışırdıq.*

3. Mötərizədə verilmiş felləri cümlələrin məzmununa görə təsdiqdə və ya inkarda yazın.

1. *Xristofor Kolumb kəşf etdiyi yerin yeni qitə olduğunu ... (başa düşmək)*
2. *1501-ci ildə Bakıya hücum edən Şah İsmayıl həmin il bu şəhəri ... (ala bilmək)*
3. *Nizami Gəncəvi "Xeyir və Şər" adlı poema ... (yazmaq)*
4. *Gəmiyə minib gəmiçi ilə ... (dalaşmaq)*
5. *Vura bilməyən daşın böyüyündən ... (yapışmaq)*
6. *Yalan ayaq tutar, ... (yerimək)*

5 Təsirli və təsirsiz fellər

Hərəkətin obyekti və subyekti

Hazırlıq

Oxuyun, təsirlik halda olan sözlərin və onların aid olduğu felin altından xətt çəkin.

1. Dünyanı zirək və çalışqan adamlar idarə edir. (Napoleon)
2. Mütaliə insanı kamilləşdirir, onun nitq qabiliyyətini inkişaf etdirir. (F.Bekon)
3. Bilikli adam kitabı oxumur, onu tədqiq edir. (L.Vovenarq)
4. İnsan öz qüvvəsinə inandığı vaxt istəyinə nail olur.

➢ Sonuncu cümlədəki fel (*nail olur*) təsirlik halda olan sözlə işlənə bilərmi?

YADDA SAXLA Hərəkətin subyekti və obyekti

Hərəkətin, adətən, subyekti və obyekti olur.

Subyekt	obyekt	hərəkət
Kişi	maşın	sürür.

Subyekt hərəkəti icra edəndir. Hərəkət obyekt üzərində (və ya onun vasitəsi ilə, iştirakı ilə) icra olunur. Deməli, obyekt hərəkətdən, hərəkət isə subyektdən asılı olur.

Çox zaman subyekt (subyekti bildirən söz) cümlədə mübtəda, obyekt isə tamamlıq vəzifəsində olur. Lakin istisna hallar da var. Məsələn, "*Bina tikildi*" cümləsində hərəkətin subyekti (binanı tikən) məlum deyil, mübtəda vəzifəsində olan söz isə hərəkətin obyektini bildirir.

1. Sol tərəfdəki nümunəyə baxaraq sağdakı şəkildə oxla işarə olunanların obyekt (O), yoxsa subyekt (S) olduğunu təyin edin.



Qız kitab oxuyur.

Müəllim şagirdi başa salır.

2. Cümlələrdə altından xətt çəkilmiş sözləri cədvəlin müvafiq xanalarında yazın.

1. Az bilib çox danışan bədxərclik edən kasıba oxşayır. (Napoleon)
2. Mən səltənətimi İslam dini, qanun və nizam əsasında qurdum. (Əmir Teymur)
3. Qorxudan yaltaqlıq törəyir. (Demokrit)
4. Gözəllik gözəlliyi cəzb edər.

hərəkət	subyekt	obyekt

YADDA SAXLA Təsirli və təsirsiz fellər

Hərəkətin obyektə münasibətinə görə fellər iki qrupa bölünür: təsirli fellər və təsirsiz fellər.

Özündən asılı olan sözlərin (hərəkətin obyektinin) təsirlik halda işlənməsini tələb edən fellərə təsirli fellər deyilir.

Uşağı (kimi?) sakitləşdir. İmla (nə?) yaz.

Özündən asılı olan sözlərin təsirlik halda deyil, başqa hallarda (yönlük, yerlik, çıxışlıq) işlənməsini tələb edən fellərə təsirsiz fellər deyilir.

Dostuna (yönlük hal) inanmadı. Bağda (yerlik hal) gəzir. Mükafatdan (çıxışlıq hal) imtina etdi.

Müəyyən leksik şəkilçilər artırmaqla təsirli fellərdən təsirsiz fellər və yaxud əksinə, təsirsiz fellərdən təsirlii fellər düzəltmək olar.

Təsirli fellər	Təsirsiz fellər
sər(mək)	*sər-il(mək)*
yaz(maq)	*yaz-ış(maq)*
Təsirsiz fel	**Təsirli fel**
gül(mək)	*gül-dür(mək)*
qaç(maq)	*qaç-ır(maq)*

3. Aşağıdakı təsirsiz fellərdən təsirli fellər düzəldin və onları cümlədə təsirlik halda olan sözlə işlədin.

inanmaq, qurumaq, köçmək, gülmək, yatmaq, bezmək

4. *-ıl⁴, -ın⁴, -ış⁴* şəkilçilərinin köməyi ilə təsirli fellərdən təsirsiz fellər düzəldin və onları cümlədə yönlük, yerlik və ya çıxışlıq halda olan sözlərlə işlədin.

yormaq, qurmaq, yazmaq, bükmək, tikmək, açmaq

5. Cümlələrdəki xəbərlərin təsirli, yoxsa təsirsiz fellə ifadə olunduğunu qarşısında qeyd edin.

1. *Gücü pulla alan ədaləti pula satar.*
2. *Həqiqət güvənir yalnız qüvvətə.*
3. *Gücün doxsan faizini özünə inam təşkil edir.*
4. *Qaliblərin yaraları tez sağalır.*
5. *Özün əldə edə biləcəyin şeyi dilənmə.*
6. *İnsanlarda güc deyil, iradə çatışmır.*
7. *Ağıldan məhrum güc öz-özünə məhv olur.*
8. *Dişləməyi bacarmırsansa, dişlərini göstərmə.*

6. Ümumi müzakirə. "*Sarı*" *və* "*quru*" sözlərini leksik və morfoloji baxımdan birləşdirən və fərqləndirən əlamətləri göstərin.

Mətnlə iş. *Mətndən üç təsirli fel seçin və onlarla əlaqəyə girən sözü göstərin.*

- Ata, sabah mənə bir saat vaxt ayırarsan?
- Yox, bala, işdən gec qayıdacağam. Axı atan çox işləməlidir ki, ailəni dolandırsın.

Elşən neçənci dəfə idi ki, bu xahişlə atasına müraciət edirdi və hər dəfə də eyni cavabı alırdı. Nəhayət, bir gün ata işdən qayıdanda onun qabağına yüyürdü:

- Ata, sənin maaşın nə qədərdir?

Yorğun gəlmiş atanı bu sual çox əsəbiləşdirdi.

- Mənim maaşım sənin nəyinə lazımdır?! Get yıxıl yat.

Elşən kor-peşman yataq otağına yollandı.

Bir azdan atanın hirsi soyudu. Oğlunun könlünü almaq üçün onun çarpayısına yaxınlaşıb saçını tumarladı və dedi:

- Yaxşı, indi ki mənim maaşım səni belə maraqlandırır, bil ki, bir saatlıq işimə görə mənə beş manat pul verirlər...

➢ *Sizcə, Elşən nəyə görə atasının maaşı ilə maraqlanırdı? Öz variantlarınızı söyləyin, sonra isə kitabı tərsinə tutun və mətnin sonluğunu oxuyun.*

Elşən başını qaldırıb onun altından çoxdan bəri yığdığı əzik-üzük kağız pulları götürdü. Bir neçə manatlığı sayıb atasına uzatdı:

- Ata, al bu beş manatı, xahiş edirəm səbəb mənə bir saat vaxt ayır.

Felin qrammatik məna növləri 6

Məlum, məchul, qayıdış, şəxssiz, qarşılıq, icbar

Hazırlıq

Əvvəlki paraqrafda hərəkətin subyekti və obyekti haqqında verilmiş məlumatı bir daha nəzərdən keçirin.

Aşağıdakı cümlələri oxuyun və hərəkət, obyekt, subyekt bildirən sözlərə diqqət yetirin. Onların altından xətt çəkin.

A. Bu məktub iki il bundan əvvəl yazılıb.
B. Elxanla biz üç ildir yazışırıq.
C. Yazıda xətaya yol verilib.
D. Toğrul dram dərnəyinə yazıldı.
E. Bu gün müəllim bizə imla yazdırdı.

➢ Müvafiq cavabı dairəyə alın.

Cümlənin mübtədası yoxdur və hərəkətin subyekti məlum deyil.	A	B	C	D	E
Cümlənin mübtədası var, lakin hərəkətin subyekti məlum deyil.	A	B	C	D	E
Subyekt hərəkəti öz üzərində icra edir.	A	B	C	D	E
Subyekt başqasını hərəkəti icra etməyə məcbur edir.	A	B	C	D	E
Hərəkət bir neçə subyekt tərəfindən icra olunur.	A	B	C	D	E

Sözlük

Ayin - dini qayda-qanunları və ya milli adət-ənənələri əks etdirən mərasim.

YADDA SAXLA Felin qrammatik məna növləri

Felin qrammatik məna növləri hərəkət, subyekt və obyekt arasındakı münasibətlərə görə təyin olunur.

Felin qrammatik məna növləri bunlardır:

məlum növ, məchul növ, qayıdış növ, şəxssiz növ, qarşılıq (birgəlik) növ, icbar növ.

YADDA SAXLA Məlum növ fellərin əlamətləri

1. Hərəkətin subyekti məlumdur; o, cümlənin mübtədası rolunda çıxış edir: *Qardaşım səfərə hazırlaşır.*

Cümlədə hərəkətin subyektini bildirən söz iştirak etməyə də bilər, lakin felin şəxs şəkilçisinə görə onu təyin etmək çətin deyil: *Bu dəfə (sən) yaxşı oxumadın. Dünən (biz) teatra getmişdik. Bunu eşidən kimi (o) evimizə gəldi.*

2. Xüsusi leksik şəkilçisi yoxdur: *Uşaqlar meşədə azdılar. Kiçik nöqsanlar böyük səhvlərə aparır.*

3. Məlum növdə fellər həm təsirli, həm təsirsiz olur: *O, qızının saçını daradı. Krandan su bulanıq gəlir.*

1. Aşağıdakı aforizmləri oxuyun. Altından xətt çəkilmiş fellərin məlum növdə olduğunu sübut edin (əlamətlərini sadalayın).

1. Məğlubiyyət adama kədər gətirir. Qələbə başqalarında nifrət oyadır. Yalnız mübahisələrə baş qoşmayanlar sakit və xoşbəxt yaşayırlar. *(Qədim hind aforizmi)*

2. Həqiqət qapıdan, yalan isə deşikdən girir. *(Bernard Şou)*

3. Axmaqlar həmişə eyni bir səhvə, ağıllılar isə hər dəfə yeni bir səhvə yol verirlər. *(Romen Rollan)*

➢ Debat. Aforizmlərin mənalarını izah edin. Hansı aforizmlə razı deyilsiniz? Fikrinizi əsaslandırın.

2. Mətni oxuyun. Altından xətt çəkilmiş fellərin məlum növdə olmadığını sübut edin. Bu fellərin hansı xüsusiyyətləri məlum növ fellərin əlamətləri ilə ziddiyyət təşkil edir?

Məşhur ixtiraçı Edisonun həyət qapısı çox çətin açılırdı. Bunu görən bir tanışı təəccüblə alimdən soruşur:

- Sənin kimi dahi ixtiraçı bundan fərlisini düzəldə bilmirdi?

Edison cavabında deyir:

- Məncə, qapı dahiyanə düzəldilib. Məsələ burasındadır ki, o, su nasosu ilə birləşdirilib. Hər dəfə kimsə qapını açanda çənə 20 litr su vurulur.

YADDA SAXLA Məchul növ fellərin əlamətləri

1. Hərəkətin subyekti məlum olmur: *Tarlaya toxum səpildi.* Bu cümlədə toxumun kim tərəfindən səpildiyi məlum deyil, lakin belə bir subyektin mövcudluğu istisna edilmir.

2. Təsirli fellərə *-ıl⁴, -ın⁴ (-n)* şəkilçisi artırmaqla düzəlir: *Yollar çəkildi. Torpaq şumlandı.*

3. Hərəkətin obyekti cümlənin mübtədası rolunda çıxış edir: *Cinayətkar yaxalandı.*

Diqqət yetirin, əgər feldən məchul növ şəkilçisini atsaq, hərəkətin obyektini bildirən söz təsirlik hal şəkilçisini qəbul edəcək və tamamlıq olacaq: *Torpağı şumladılar. Toxumu səpdik. Cinayətkarı yaxaladılar.*

4. Məchul növ fellər təsirsiz fellərdir.

Mətnlə iş. *Mətni oxuyun. Məlum növ fellərin altından xətt çəkin.*

İLAXIR ÇƏRŞƏNBƏLƏR

Novruz şənlikləri təzə ilin başlanmasına, yəni martın 21-nə dörd həftə qalmış başlayır. Bu aya Boz ay deyirlər. Həmin ayın hər çərşənbəsi təbiətin bir ünsürü ilə - su, od, yel (hava) və torpaqla əlaqələndirilmiş və beləliklə, insanların təsəvvüründə ilaxır çərşənbələr yaranmışdır. Bunlar Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi adlanaraq müqəddəs sayılmışdır.

İlaxır çərşənbələrin axşam şənlikləri çox maraqlı olur: insanlar evlərdə üzərlik yandırır, tonqallar qalayır, qulaq falına çıxırlar.

Novruzun müqəddəs ayinlərindən biri də səməni göyərtməkdir. Səməni xoşbəxtlik gətirən amil kimi həmişə tərənnüm edilmişdir. Evlərdə göyərdilmiş səməni bişirər, xəstələrə yedirərdilər.

Bayram günündə qadınlar dadlı-ləzzətli şirniyyatlar bişirir, yumurta boyayırlar. Bayram axşamı süfrədə innab, kişmiş, püstə, badam, qoz, fındıq, müxtəlif meyvələrin qurusu qoyulur. Evlərdə şamlar yandırılır. Bayram günü və axşamı el şənlikləri, tamaşalar, oyunlar təşkil edilir.

➢ Altından xətt çəkilmiş cümləni elə dəyişin ki, xəbər məchul fellə ifadə olunsun.

➢ "Üzərlik" sözünün tələffüz formasını yazın.

3. Aşağıdakı fellərin hansından məchul növ fel düzəltmək olar?
çal, bax, qaz, dinlə, apar, görüş, dırmaş, səp, qurtar

YADDA SAXLA Qayıdış növ fellərin əlamətləri

1. Hərəkətin subyekti məlum olur.
2. Hərəkət subyektin öz üzərində icra olunur: *Toğrul yarışa qatıldı.*
3. Təsirli fellərə *-ıl*[4], *-ın*[4] *(-n)* şəkilçilərini artırmaqla düzəlir: *Səhər aç-ıl-dı, Qız bəzə-n-di.*
4. Qayıdış növ fellər təsirsiz olur.

Qeyd: Qayıdış növ fellərin yaranması qaydalarında bəzən istisnalar ola bilər. Məsələn, *geyinmək, soyunmaq* felləri təsirli fellərdir. *Qızınmaq* feli təsirsiz feldən yaransa da, qayıdış növə aiddir.

4. Qayıdış növ fel olan cümlələrin qarşısında + işarəsi qoyun.

1. Əsgərlər geri çəkildilər.
2. İp tarım çəkildi.
3. Köhnə əşyalar zibilliyə atıldı.
4. Cəfər qeyri-ixtiyari irəli atıldı.
5. Gözləri sulandı.
6. Baxça sulandı.
7. Ürəyi şiddətlə döyünürdü.
8. Qapı döyüldü.
9. Paltar yuyuldu.
10. Uşaq yuyundu.
11. Qız darandı.
12. Yun darandı.
13. O, ağacdan sallandı.
14. Bayram axşamı bacalardan torbalar sallanır.

Diqqət!

-lan[2], *-laş*[2] şəkilçiləri ilə isim və sifətdən düzələn bəzi fellər qayıdış növ məzmununa malik olsa da, bu növün qrammatik xüsusiyyətlərinə malik deyil: *-ıl*[4], *-ın*[4] *(-n)* şəkilçiləri yoxdur, təsirli feldən düzəlmir. Odur ki, belə fellər məlum növə aid edilir: *Körpə sakitləşdi. Uşaqlar şənləndilər. Havalar sərinləşdi.*

5. Ümumi müzakirə. *"O, səhv etdiyini başa düşüb tutuldu", "Qoca hirsindən deyinirdi", "Su duruldu"* cümlələrində altından xətt çəkilmiş sözləri qayıdış növ fel hesab etmək olarmı?

YADDA SAXLA Şəxssiz növ fellərin əlamətləri

1. Hərəkətin subyekti məlum olmur: *Onun sözlərinə əhəmiyyət verilmədi.*
2. Təsirsiz fellərə *-ıl*[4], *-ın*[4] şəkilçilərini artırmaqla düzəlir: *Çıxışa imkan verildi. Tapşırığa əməl olundu.*
3. Şəxssiz növ felli cümlənin mübtədası olmur.
4. Şəxssiz növ fellər təsirsiz fellərdir. Hərəkətin obyektini bildirən söz, əsasən, yönlük halda, bəzən çıxışlıq halda olur: *Məktuba imza atıldı. Bu alətdən istifadə edilmir.*

6. Cümlələrdə altından xətt çəkilmiş fellərin hansı növə aid olduğunu müvafiq hərfi dairəyə almaqla qeyd edin.

A. Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən Novruz rəsmi dövlət bayramı kimi qeyd olunur.

B. Burada səhvə yol verilib.

C. Yazın gəlişi ilə əlaqədar ilin axır çərşənbə axşamı həyətlərdə tonqal qalanır.

Ç. Bu bitki növünə ölkəmizdə nadir hallarda təsadüf edilir.

D. Meşələr və çəmənlər yaşıl rəngə boyandı.

E. Oyunçuya sonuncu dəfə xəbərdarlıq edildi.

Ə. Klassiklərimizin əsərləri bu gün də sevilə-sevilə oxunur.

F. Bu döyüşdə o, çiynindən yaralandı.

G. Uzaqda kiçik bir kənd görünürdü.

Məchul növ fellər:	A	B	C	Ç	D	E	Ə	F	G
Qayıdış növ fellər:	A	B	C	Ç	D	E	Ə	F	G
Şəxssiz növ fellər:	A	B	C	Ç	D	E	Ə	F	G

7. Fikirlərin məchul (M), qayıdış (Q), yoxsa şəxssiz (Ş) növ fellərə aid olduğunu müvafiq xanada qeyd edin. Unutmayın ki, eyni əlamət bir neçə növə aid ola bilər.

	M	Q	Ş
1. Təsirsiz feldən düzəlir.	☐	☐	☐
2. Təsirli feldən düzəlir.	☐	☐	☐
3. Təsirli feldir.	☐	☐	☐
4. Təsirsiz feldir.	☐	☐	☐
5. Hərəkətin subyekti məlum olmur.	☐	☐	☐
6. Hərəkətin subyekti məlum olur.	☐	☐	☐
7. Hərəkətin obyekti cümlənin mübtədası rolunda çıxış edir.	☐	☐	☐
8. Cümlənin mübtədası olmur.	☐	☐	☐
9. Hərəkət subyektin üzərində icra olunur.	☐	☐	☐

YADDA SAXLA Qarşılıq (birgəlik) növ fellərin əlamətləri

1. Hərəkət iki və ya daha çox subyekt tərəfindən qarşılıqlı şəkildə və ya birgə icra edilir. *Tərəflər gecəyə qədər atışdılar* (qarşılıqlı hərəkət). *Uşaqlar lətifəyə qulaq asıb gülüşdülər* (birgə hərəkət).

2. Qarşılıq növ, adətən, təsirli fellərə, birgəlik növ isə təsirsiz fellərə *-ış*[4], *-ş*, şəkilçilərini artırmaqla düzəlir: *Uşaqlar görüşdülər. Quzular mələşdilər.*

3. Qarşılıq (birgəlik) növ fellər təsirsiz fellərdir.

Qeyd: Bir sıra *-ış*[4], *-ş*, şəkilçisi qəbul etmiş fellər var ki, qarşılıqlı və ya birgə hərəkət mənasını bildirmir və qarşılıq növə aid edilmir: *girişmək*.

8. *Yaz, gəz, de, anla, dağıl* fellərinə *-ış*[4], *-ş*, şəkilçiləri artırmaqla cümlədə işlədin və onların qarşılıqlı, yoxsa birgə hərəkət məzmununa malik olduğunu müəyyənləşdirin.

Diqqət!

Məktublaşmaq, dərdləşmək kimi sözlər qarşılıq və ya birgəlik məzmununa malik olsalar da, onlarda felin bu növünün qrammatik xüsusiyyətləri (*-ış*[4], *-ş*, *şəkilçiləri, təsirli və ya təsirsiz feldən düzəlmək*) yoxdur, ona görə də bu fellər məlum növə aid edilir.

9. Çərçivədəki felləri diqqətlə nəzərdən keçirin. Sonra verilmiş cümlələrin bu fellərdən hansına (və ya hansılarına) aid olduğunu bildirin.

A) ağlaşmaq, B) soraqlaşmaq, C) qırışmaq (əzilmək), Ç) güləşmək, D) qarşılaşmaq, E) yapışmaq, Ə) barışmaq, F) vuruşmaq

1. Leksik şəkilçisi yoxdur, lakin qarşılıqlı hərəkət məzmununa malikdir: A B C Ç D E Ə F

2. Leksik şəkilçisi var, lakin qarşılıq (birgəlik) növ fel deyil:
A B C Ç D E Ə F

3. Sadə feldir və qarşılıqlı hərəkət məzmununa malik deyil:
A B C Ç D E Ə F

4. Qarşılıq növ feldir və qarşılıqlı hərəkət mənasını bildirir:
A B C Ç D E Ə F

5. Qarşılıq növ feldir və birgə hərəkət mənasını bildirir:
A B C Ç D E Ə F

YADDA SAXLA **İcbar növ fellərin əlamətləri**

1. Hərəkətin iki subyekti olur: 1) hərəkətə yönəldən, 2) hərəkəti bilavasitə icra edən: *Nazim* (I subyekt) *taxtanı* (obyekt) *ustalara* (II subyekt) *kəsdirdi* (hərəkət). Nazim taxtanı özü kəsmədi, o, ustaları məcbur etdi ki, taxtanı kəssinlər.

Çox zaman I subyekt məlum olur, II subyekt isə naməlum qalır: *Əmrah ev tikdirdi.*

2. Təsirli fellərə *-dır*[4], *-t* şəkilçilərini artırmaqla düzəlir: *Biz döşəməni sildirdik. Xanım otağı bəzətdi.*

3. İcbar növ fellər təsirli fellərdir.

10. Aşağıdakı cümlələrdə icbar növ fellərin altından xətt çəkin.

Gülpəri Cəfəri göndərib iki fayton tutdurdu, faytonun birinə nökəri və şeyləri qoyub o birinə də özü Nurəddinlə oturdu. Erkən gedib mənzilə çatmaq üçün faytonları qovdurdu. (S.S.Axundov)

YADDA SAXLA Eyni şəkilçili icbar və məlum növ fellər

Bir sıra *-dır⁴, -t* şəkilçiləri qəbul etmiş fellər var ki, onlar icbar növ mənasına malik deyil: *qızdırmaq, sevindirmək, güldürmək*. Bunlar, əsasən, təsirsiz fellərdən düzələn təsirli fellərdir və məlum növə aid edilir. Bu cümlələrdə ikinci subyekt olmur. Müqayisə edin:

İcbar növ

I subyekt obyekt II subyekt hərəkət

Xudayar bəy məktubu mollaya yazdırdı.

Birinci subyekt ikinci subyekti məcbur edir ki, obyekt üzərində hərəkəti icra etsin.

Məlum növ

Subyekt obyekt hərəkət

Sərvər Gülnazı inandırdı.

Subyekt hərəkəti özü icra edir. Obyekt üzərində heç bir başqa subyekt hərəkət icra etmir.

-dır⁴, -t şəkilçilərindən birini qəbul etmiş məlum növ fellərə ikinci şəkilçini əlavə etdikdə həmin fel icbar növ felə çevrilir: *gül-dür-t, otur-t-dur*. Bəzi fellərin icbar növü hər iki şəkilçini artırmaqla düzəlir: *Padşah rəmmalı yanına çağırtdırdı.*

11. Cümlələrdəki fellərin icbar (İ), yoxsa məlum (M) növə aid olduğunu müvafiq xanada qeyd edin.

	İ	M
1. Bacım boşqabı sındırdı.	☐	☐
2. Oğlan vəziyyəti anlatdı.	☐	☐
3. O, hamını bezdirdi.	☐	☐
4. Anam xörəyi qızdırdı.	☐	☐
5. Meyvəni uşaqlara yığdırdılar.	☐	☐
6. Ayxan uşaqları güldürdü.	☐	☐
7. Barmağını qanatdın.	☐	☐
8. Böyük xəndək qazdırdıq.	☐	☐
9. Qurban bayramında qoyun kəsdirdik.	☐	☐
10. Müəllim şagirdləri parkda gəzdirirdi.	☐	☐
11. Fəhlələr işi dayandırdılar.	☐	☐
12. Fermerlər torpağı şumlatdılar.	☐	☐

12. Mətnlə iş. Mətndəki fellərin qrammatik məna növünü təyin edin. İcbar növ fellərin altından xətt çəkin. Onlardan hansında icbar növ şəkilçiləri yanaşı işlənir.

Salsal qızı zindana saldırır. Ertəsi gün Salsalın qoşunu ilə ərəblərin qoşunu qabaqlaşır. Qızğın dava başlanır. Salsalın qoşunu artıq davam gətirə bilmir. Onlar Şəhri-zərrinə tərəf çəkilirlər. Axırda ərəblər lap qalaya yaxınlaşırlar. Salsal qoşunla bərabər qalaya girib qapını bağlatdırır. *("Göygöl" əfsanəsindən)*

13. Aşağıdakı sxemlərin felin hansı növünə aid olduğunu göstərin.

Təsirli fel	+	*-ış⁴, -ş*	=	
Təsirsiz fel	+	*-ış⁴, -ş*	=	
Təsirli fel	+	*-ıl⁴, -ın⁴(n)*	=	
Təsirsiz fel	+	*-ıl⁴, -ın⁴(n)*	=	
Təsirli fel	+	*-dır⁴, -t*	=	

Mətnlə iş. Mətndəki fellərin qrammatik məna növünü müəyyənləşdirin.

Kağız Miladdan sonra 105-ci ildə çinli Tsay Lun tərəfindən ixtira edilmişdir. Çinlilər bu ixtiranın sirrini uzun müddət gizli saxladılar.

751-ci ildə Tyan-Şan dağları ətəyində ərəb ordusu ilə Çin ordusu qarşılaşdı. Bu döyüşdə ərəblər bir neçə çinli kağız sənətkarını əsir götürdülər və onlardan kağız emalının sirrini öyrəndilər. Səmərqənddə kağız fabriki tikdirildi. Uzun müddət Səmərqənd kağızı dünyada ən keyfiyyətli kağız sayılmışdır.

Avropa xalqları arasında kağız istehsalını ilk olaraq ispanlar mənimsədilər. İtaliyada kağız istehsalına 1154-cü ildə, Almaniyada 1228-ci ildə, İngiltərədə 1309-cu ildə başlandı.

Azərbaycanda kağız istehsalına Avropadan xeyli qabaq başlamışlar. IX əsrin sonunda Xunəc şəhərində kağız fabriki fəaliyyət göstərmişdir. Sonralar bu şəhər Kağızkunan adlandırılmışdır. Böyük mütəfəkkir Fəzlullah Rəşidəddin də Təbriz yaxınlığında kağız fabriki tikdirmişdi.

Müasir dövrə qədər insanlar yazı üçün kağızdan əlverişli material düşünməyiblər, buna görə Tsay Lunun adı haqlı olaraq dünyanın böyük ixtiraçılarının adı ilə bir sırada çəkilir.

➢ *Altından xətt çəkilmiş fellərlə bağlı debat keçirin.* ***1) tikdirildi****: A) icbar feldir, B) məchul feldir.* ***2) başlandı****: A) şəxssiz feldir, B) məchul feldir.*

QİYMƏTLƏNDİRMƏ

4-6-cı mövzular

1. Biri təsirli feldən düzəlmişdir.
A) yandırmaq
B) çatdırmaq
C) doldurmaq
D) soldurmaq
E) bildirmək

2. sxeminə uyğun təsirsiz feli tapın.
A) bağlanmaq
B) tərifladilər
C) keçirməmək
D) yiyələndik
E) qaldırmayacaqlar

3. Fellərdən biri həm təsirli, həm təsirsiz ola bilər.
A) oxumaq
B) susmaq
C) döymək
D) açmaq
E) bölmək

4. İsimdən düzəlmiş təsirsiz fel hansıdır?
A) düzülmək
B) otarmaq
C) güldürmək
D) evlənmək
E) yollanmaq

5. «Yaraşır» felinin morfoloji təhlili ilə bağlı səhvi tapın.
A) Sadə feldir.
B) Təsirsizdir
C) Məlum növdədir
D) İndiki zamandadır.
E) Təsdiqdədir.

6. *Açılmaq, çəkilmək, düzülmək* fellərini birləşdirən nədir?
A) yalnız məchul növdə olmaq
B) təsirli fel olmaq
C) quruluşca sadə olmaq
D) yalnız qayıdış növdə olmaq
E) təsirli feldən düzəlmək

7. Cümlələrdən birinin xəbəri icbar növdə deyil.
A) Kəndə yeni yol çəkdirdilər.
B) Otağı başdan-ayağı təmizlətdi.
C) Mən kitabların yerini dəyişdirdim.
D) Ana məktubu yenidən oxutdurdu.
E) Müəllim testləri yenidən yazdırdı.

8. Fellərdən ikisi qayıdış növdə olsa da, təsirlidən düzəlib və təsirli olaraq qalır.
A) örtülmək, döyünmək
B) tökülmək, yığılmaq
C) daranmaq, yıxılmaq
D) geyinmək, soyunmaq
E) tutulmaq, yorulmaq

9. Fellərdən biri *-ış⁴ (ş)* şəkilçisi ilə düzəlib, lakin qarşılıq-birgəlik növdə deyil.
A) qarışmaq
B) qaçışmaq
C) dərdləşmək
D) toplaşmaq
E) hazırlaşmaq

10. *1. Uzun müddət istifadəsiz qalan sement daşlaşmışdı.*
2. Tərəflərin silah-sursatı qurtardığından sapandla daşlaşdırdılar.
İşarələnmiş sözlər haqqında deyilənlərdən hansı doğrudur?
A) Hər ikisi isimdən düzəlmişdir.
B) Hər ikisi felin qarşılıq (birgəlik) növündədir
C) Birincisi məlum, ikincisi qarşılıq (birgəlik) növdədir.
D) Birincisi qarşılıq (birgəlik), ikincisi məlum növdədir.
E) Hər ikisi məlum növdədir.

7 Felin zamana və şəxsə görə dəyişməsi

Təsriflənən və təsriflənməyən fellər

Hazırlıq

Cümlələrdə altından xətt çəkilmiş fellərin hansı zamana aid olduğunu müvafiq xanada qeyd edin. (K - keçmiş zaman, İ - indiki zaman, G - gələcək zaman)

	K	İ	G
1. *Kompyuter insanların işini asanlaşdırır.*	☐	☐	☐
2. *Kişi pişiyi aparıb meşədə azdırdı.*	☐	☐	☐
3. *Siz sabah yarışa qoşulacaqsınız.*	☐	☐	☐
4. *Mən Vaqifin şeirlərini oxumuşam.*	☐	☐	☐
5. *Keçəl suya getməz.*	☐	☐	☐
6. *Dəmiri isti-isti döyərlər.*	☐	☐	☐

➢ İndi isə fellərin tərkibindəki zaman və şəxs bildirən şəkilçiləri digər şəkilçilərdən ayırın və aşağıdakı kimi qruplaşdırın.

Keçmiş zaman _____

İndiki zaman _____

Gələcək zaman _____

I şəxs tək _____ cəm _____

II şəxs tək _____ cəm _____

III şəxs tək _____ cəm _____

➢ Şəkilçilərin fellərə hansı ardıcıllıqla artırıldığını deyin.

Sözlük

Fasad - binanın küçəyə çıxan qarşı tərəfi

Eksponat - sərgilənən, nümayiş etdirilən əşya

Kolleksiya - elmi, bədii, tarixi və s. əhəmiyyəti olan əşyaların yığılması, toplanması.

Numizmatika - Qədim pulların toplanması və tədqiqi ilə məşğul olan elm.

Təsrif - (ərəb) dəyişmə, bir haldan başqa hala keçmə, transformasiya

Təfsir - (ərəb) şərh, izah.

YADDA SAXLA Təsriflənən və təsriflənməyən fellər

Şəxsə və kəmiyyətə görə dəyişə bilib-bilməməsinə görə fellər iki qrupa bölünür: təsriflənən və təsriflənməyən fellər. Şəxsə və kəmiyyətə görə dəyişə bilən fellər təsriflənən fellərdir.

"Üstümü unlu görüb adımı dəyirmançı çağırma" məsəlində iki fel var: *görüb, çağırma*. İkinci feli şəxsə, kəmiyyətə, zamana görə dəyişmək olar: *çağırdı, çağıracaqlar, çağırırsınız* və s. Birinci fel isə bu baxımdan dəyişilməz qalır, odur ki, təsriflənməyən fel adlanır.

Təsriflənən fellə ifadə olunan hərəkət birinci, ikinci və ya üçüncü şəxs (tək və ya cəm) tərəfindən icra oluna bilər. Hərəkətin nə zaman və hansı şəxs tərəfindən icra olunduğunu bildirmək üçün felə zaman və şəxs şəkilçiləri artırılır.

1. Altından xətt çəkilmiş fellərdən hansının təsriflənməyən olduğunu təyin edin və fikrinizi əsaslandırın.

Mən dərsə hazırlaşıb məktəbə yollandım.
Sən dərsə hazırlaşıb məktəbə yollandın.
O, dərsə hazırlaşıb məktəbə yollandı.
Biz dərsə hazırlaşıb məktəbə yollandıq.
Siz dərsə hazırlaşıb məktəbə yollandınız.
Onlar dərsə hazırlaşıb məktəbə yollandılar.

Sən gəzən yerləri biz çoxdan gəzmişik cümləsində şəxs əvəzliklərini bir-biri ilə əvəz edin və fellərdən hansının dəyişmədiyini müəyyənləşdirin.

2. Aşağıdakı cümlələrdə təsriflənən fellərin altından bir, təsriflənməyənlərin altından iki xətt çəkin.

1. *Pişik olmayan yerdə siçanlar baş qaldırar.*
2. *Arxa su gələnə qədər qurbağanın canı çıxar.*
3. *Aslan qocalanda başına çaqqallar yığılar.*
4. *Qurddan qorxan qoyun saxlamaz.*
5. *Ən güclü insan özünü idarə etməyi bacaran insandır.*
6. *Ağıllı adam öz səhvini düzəltməyə çalışır, axmaq isə axıracan səhvi üzərində düşünür.*

YADDA SAXLA Keçmiş zaman

Keçmiş zaman hərəkətin danışılan vaxtdan əvvəl icra olunduğunu bildirir. Keçmiş zamanın iki növü var: şühudi keçmiş zaman və nəqli keçmiş zaman.

Şühudi keçmiş zaman hərəkətin keçmişdə icra olunduğunu yəqinliklə bildirir. "Şühudi" və "şahid" sözləri qohumdur, odur ki, burada danışan, sanki, hərəkətin şahidi olduğunu bildirir.

Şühudi keçmiş zaman *-dı*[4] şəkilçisi ilə düzəlir:

fellər	Şühudi keçmiş zaman (-dı[4])		
	I şəxs	*II şəxs*	*III şəxs*
qaç-maq	qaç-dı-m qaç-dı-q	qaç-dı-n qaç-dı-nız	qaç-dı qaç-dı-lar
gəl-mək	gəl-di-m gəl-di-k	gəl-di-n gəl-di-niz	gəl-di gəl-di-lər
poz-maq	poz-du-m poz-du-q	poz-du-n poz-du-nuz	poz-du poz-du-lar
gül-mək	gül-dü-m gül-dü-k	gül-dü-n gül-dü-nüz	gül-dü gül-dü-lər

Nəqli keçmiş zaman hərəkətin keçmişdə icra olunduğunu nəql yolu ilə bildirir. Nitqin nəql yolu nağıl dilinə yaxındır. Burada natiq, sanki, kimdənsə eşitdiklərini nəql edir.

Nəqli keçmiş zaman *-mış*[4] və *-ıb*[4] şəkilçiləri ilə düzəlir, lakin *-ıb*[4] şəkilçisi birinci şəxsə aid fellərə qoşula bilmir.

fellər	Nəqli keçmiş zaman (-mış[4])		
	I şəxs	*II şəxs*	*III şəxs*
qaç-maq	qaç-mış-am qaç-mış-ıq	qaç-mış-san qaç-mış-sınız	qaç-mış-dır qaç-mış-lar
gəl-mək	gəl-miş-əm gəl-miş-ik	gəl-miş-sən gəl-miş-siniz	gəl-miş-dir gəl-miş-lər
poz-maq	poz-muş-am poz-muş-uq	poz-muş-san poz-muş-sunuz	poz-muş-dur poz-muş-lar
gül-mək	gül-müş-əm gül-müş-ük	gül-müş-sən gül-müş-sünüz	gül-müş-dür gül-müş-lər

fellər	Nəqli keçmiş zaman (-ıb[4])		
	I şəxs	*II şəxs*	*III şəxs*
qaç-maq		qaç-ıb-san qaç-ıb-sınız	qaç-ıb-dır qaç-ıb-lar
gəl-mək		gəl-ib-sən gəl-ib-siniz	gəl-ib-dir gəl-ib-lər
poz-maq		poz-ub-san poz-ub-sunuz	poz-ub-dur poz-ub-lar
gül-mək		gül-üb-sən gül-üb-sünüz	gül-üb-dür gül-üb-lər

II şəxsə aid olan fellərdə *-mış*[4] şəkilçisinin son samiti (*ş*) düşə bilər: *qaçmı(ş)san, pozmu(ş)sunuz* və s. *-ıb*[4] şəkilçisi qəbul etmiş fellər isə III şəxsin təkinə aid olanda çox zaman *-dır*[4] şəkilçisiz işlənir: *qaçıb, pozub.*

Mətnlə iş. Mətnləri oxuyun və tapşırıqları yerinə yetirin.

NOVRUZUN TARİXİ KÖKLƏRİ

Çox qədim zamanlardan dünya xalqlarının bir çoxu yazın gəlməsini, təbiətin oyanmasını, əkin işlərinin başlanmasını bahar bayramı kimi qeyd etmişlər. Bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi qarşılamışlar. Qədimdə bir sıra Şərq xalqları, o cümlədən Mərkəzi Asiya və Azərbaycan türkləri də baharın gəlişini bayram etmişlər. Bu bayram Novruz adlandırılmışdır.

Bir çox tədqiqatçılar Novruzun yaranma tarixini, onun zərdüştilik və ya müsəlman mədəniyyəti ilə əlaqələrini araşdırmış, əski mənbələrdə bir-birini təkzib və ya təsdiq edən müxtəlif faktlar aşkar etmişlər. Lakin ümumi fikir belədir ki, Novruzu konkret bir dinlə, etiqadla bağlamaq düzgün deyil. Qədim dövrlərdən bəri Novruz yeni ilin başlanğıcı, bolluq, bərəkət və firavanlığın əzəli kimi rəmziləşdirilmişdir.

➢ Nəqli keçmiş zaman fellərinin altından xətt çəkin. Onları şühudi keçmiş zamanla əvəz etmək mümkündürmü?

➢ ⌐¬ + ⌒ + ⌒ + ⌒ + ⌒ + ⌒ + ⌒ sxemini altından xətt çəkilmiş fellərin hansına aid etmək olar? Bu felləri zamana, şəxsə, morfoloji tərkibinə və qrammatik növünə görə müqayisə edin, fərqli və oxşar cəhətləri göstərin.

Mətnlə iş. Mətnləri oxuyun və tapşırıqları yerinə yetirin.

I mətn

Dağlarda qarın əriməsi və leysan yağışlar nəticəsində Kür çayının səviyyəsi xeyli qalxmışdır. Bir çox rayonlarda çay öz məcrasından çıxmış və ətraf kəndləri su basmışdır. Yüzlərlə ev su altında qalmış, üç nəfər, o cümlədən bir körpə yaşlı uşaq itkin düşmüşdür. Kəndlərin əhalisinə xeyli maddi ziyan dəymişdir. Yüzlərlə qoyun-quzu, mal-qara tələf olmuş, evlər uçmuş, əkin yerləri su altında qalmışdır.

Respublika Prezidentinin fərmanı ilə təbii fəlakətin nəticələrinin aradan qaldırılması üçün dövlət komissiyası yaradılmışdır. Dünən komissiya üzvləri fəlakət yerlərinə yola düşmüşlər

II mətn

Gecə yarısı çayın uğultusuna və şimşək səsinə yuxudan oyandım. Anam həyəcanla pəncərədən baxırdı. Birdən kəndin ayağından adamların tükürpədici səsləri eşidildi. Elə bu vaxt atam içəri girib anama qışqırdı ki, kiçik qardaşımı oyatsın, Kür daşıb, kəndi su basır. Mən cəld ayağa qalxıb otağın küncündə atılıb qalmış gəlinciyimi götürmək istədim. Lakin atam imkan vermədi, cəld məni qucağına aldı. Üç yaşlı qardaşımı qucağına almış anam qiymətli şeylər saxladığı sandığa yaxınlaşanda atam onun qarşısını kəsib kobud şəkildə qapıya tərəf itələdi. Biz çölə çıxıb yaxınlıqdakı təpəyə tərəf qaçdıq. Təpənin başına bir az qalmış atam ayaq saxlayıb anamdan soruşdu:

- Alaşın zəncirini açmışdın?!

- Yox, - deyə anam titrəyə-titrəyə cavab verdi.

Atam məni qucağından yerə qoyub:

- Qızım, özün get, daha qorxma, - dedi və anamın fəryadına əhəmiyyət verməyib bir andaca qaranlıqda gözdən itdi.

O gündən mən atamı görmədim. Mənim "kobud" atam ov itimizi, vəfalı dostunu xilas etmək üçün özünü qurban verdi.

➢ *Mətnlərin mövzusunu müəyyən edin. Hər bir mətnə ad qoyun.*

➢ *Hansı mətn fəlakət barədə daha çox məlumat verir?*

➢ *Hansı mətndə fəlakətin faciəsi sizə daha çox təsir etdi?*

➢ *II mətndə hansı obraz sizi daha çox cəlb etdi? Həmin obrazı təhlil edin və ona münasibətinizi bildirin.*

➢ *Nəyə görə birinci mətndə nəqli keçmiş zaman, ikinci mətndə isə şühudi keçmiş zaman felləri çoxluq təşkil edir?*

➢ *Altından xətt çəkilmiş cümlədə neçə təsriflənən və neçə təsriflənməyən fel var?*

YADDA SAXLA İndiki zaman

İndiki zaman hərəkətin danışılan vaxt icra edildiyini bildirir və fellərə *-ır⁴ (-yır⁴)* şəkilçisi artırmaqla düzəlir.

fellər	İndiki zaman (-ır⁴)		
	I şəxs	*II şəxs*	*III şəxs*
bax-maq	bax-ır-am bax-ır-ıq	bax-ır-san bax-ır-sınız	bax-ır bax-ır-lar
dər-mək	dər-ir-əm dər-ir-ik	dər-ir-sən dər-ir-siniz	dər-ir dər-ir-lər
oxu-maq	oxu-yur-am oxu-yur-uq	oxu-yur-san oxu-yur-sunuz	oxu-yur oxu-yur-lar
gör-mək	gör-ür-əm gör-ür-ük	gör-ür-sən gör-ür-sünüz	gör-ür gör-ür-lər

İndiki zaman felləri inkar şəkilçisi (*-ma²*) qəbul edərkən bu şəkilçinin saiti (*a, ə*) düşür: *bax-m-ır-am, oxu-m-ur-san, dər-m-ir-lər.*

3. Qruplarla iş. Cədvəlləri doldurun və nəticələrinizi müqayisə edin.

fel	şəxslər	İndiki zaman	
		Təsdiq	İnkar
çalış	I şəxs (tək, cəm)		
	II şəxs (tək, cəm)		
	III şəxs (tək, cəm)		

fel	şəxslər	İndiki zaman	
		Təsdiq	İnkar
tanı	I şəxs (tək, cəm)		
	II şəxs (tək, cəm)		
	III şəxs (tək, cəm)		

Mətnlə iş. *Mətni oxuyun və tapşırıqları yerinə yetirin.*

TARİX MUZEYİ

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix Muzeyi 1920-ci ildə Bakıda yaradılmışdır. Muzey Bakının mərkəzində, məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin 1902-ci ildə tikdirdiyi binada yerləşir. Gözəl fasada, zəngin şərq və qərb zallarına malik olan bu memarlıq abidəsi Bakının ən yaraşıqlı binalarından sayılır.

Səkkiz şöbəsi, iki laboratoriyası, on bir fondu, elmi arxivi və kitabxanası olan Muzeyin eksponatları 35 zalda yerləşdirilib. Muzeydə Azərbaycanın ən qədim zamanlardan müasir dövrədək tarixini əks etdirən maddi-mədəniyyət abidələri toplanır, öyrənilir, nümayiş etdirilir, həmçinin eksponatların bərpası üzrə iş aparılır.

Muzeyin fondlarında 300 mindən çox eksponat toplanmışdır. Təqribən 85 min eksponatdan ibarət numizmatika ekspozisiyası şərq pulları kolleksiyasına görə dünyada ən zəngin fondlardan biri hesab olunur.

➢ *Bakıda H.Z.Tağıyevin tikdirdiyi başqa bir binada bu gün AMEA-nın Əlyazmalar İnstitutu yerləşir. Böyük xeyriyyəçi vaxtilə həmin binanı hansı məqsədlə tikdirmişdi? Əlyazmalar İnstitutu ilə Tarix Muzeyinin fəaliyyəti arasındakı fərqli və oxşar cəhətləri sadalayın.*

➢ *Cütlüklərə bölünün. Mətndəki indiki zaman fellərinin siyahısını hazırlayın. Sonra siyahılarınızı müqayisə edin.*

➢ *Altından xətt çəkilmiş felləri zamana, şəxsə, morfoloji tərkibinə və qrammatik növünə görə müqayisə edin, fərqli və oxşar cəhətləri göstərin.*

YADDA SAXLA **Gələcək zaman**

Gələcək zaman hərəkətin danışılan vaxtdan sonra icra ediləcəyini bildirir. Gələcək zamanın iki növü var: qəti gələcək zaman və qeyri-qəti gələcək zaman.

Qəti gələcək zaman ***-acaq² (-yacaq²)*** **şəkilçisi ilə düzəlir və hərəkətin gələcəkdə icra olunacağını qəti şəkildə bildirir.**

fellər	Qəti gələcək zaman (-acaq², -yacaq²)		
	I şəxs	*II şəxs*	*III şəxs*
qur-maq	qur- acağ-am qur-acağ-ıq	qur-acaq-san qur-acaq-sınız	qur-acaq qur-acaq-lar
istə-mək	istə-yəcəy-əm istə-yəcəy-ik	istə-yəcək-sən istə-yəcək-siniz	istə-yəcək istə-yəcək-lər

Qeyri-qəti gələcək zaman *-ar²* *(-yar²)* şəkilçisi ilə düzəlir və hərəkətin gələcəkdə icra olunacağını qəti şəkildə bildirmir.

Qeyri-qəti gələcək zaman fellərinin inkarda işlənməsi bir qədər fərqlidir. II və III şəxsdə qeyri-qəti gələcək zaman felləri inkarda işlənərkən *-ma²* inkar şəkilçisinin saiti düşür və *-ar²* şəkilçisində *r* samiti *z* ilə əvəz olunur.

fellər	Qeyri-qəti gələcək zaman (-ar², -yar²)		
	I şəxs	*II şəxs*	*III şəxs*
as-maq	as-ar-am as-ar-ıq	as-ar-san as-ar-sınız	as-ar as-ar-lar
de-mək	de-yər-əm de-yər-ik	de-yər-sən de-yər-siniz	de-yər de-yər-lər

Felin gələcək zamanının inkar forması		
I şəxs	*II şəxs*	*III şəxs*
apar-ma-yacağ-am apar-ma-yacağ-ıq apar-m-ar-am apar-m-ar-ıq	apar-ma-yacaq-san apar-ma-yacaq-sınız apar-m-az-san apar-m-az-sınız	apar-ma-yacaq apar-ma-yacaq-lar apar-m-az apar-m-az-lar

4. *Danış* felini şəxslərə görə dəyişdirin.

Şəxslər	Qəti gələcək zaman		Qeyri-qəti gələcək zaman	
	Təsdiq	İnkar	Təsdiq	İnkar
Mən				
Sən				
O				
Biz				
Siz				
Onlar				

Diqqət!

Saitlə bitən fellərə qeyri-qəti gələcək zamanda *-yar²* şəkilçisi artırılır: *oxu-yar*. Lakin fel *-a, -ə* saitləri ilə bitirsə, bu şəkilçi bəzən *-r* şəkilçisi ilə əvəz oluna bilər: *saxla-r-am, bənzə-r-sən.*

Uca dağlar başında ceyran balalar,
Ceyranın balasın ovçu yaralar.

Mətnlə iş. Mətni oxuyun və gələcək zaman fellərinin altından xətt çəkin. Bu fellərin gələcək zamanın hansı növünə aid olduğunu deyin.

Axır çərşənbə gecəsinin səhəri sübh obaşdan durub axar su üstünə gedər, suya salam verib üç dəfə üstündən tullanarlar. Deyirlər ki, belədə ilin xoş gələr, ağrı-acı görməzsən. İlaxır çərşənbədə balta ilə meyvə ağaclarının kötüyünə bir-iki dəfə yüngülcə vurub deyərlər: "Nə **yatmısan**, oyan, bərəkət payını götür". Deyirlər, belədə həmin il ağacın bəhəri bol olar.

Axır çərşənbə axşamında bir neçə parça kömürü, bir ovuc duzu, bir-iki dənə dəmir pulu bir qaba qoyub damdan atarlar. Bu ayin qara gündən, gözdəymədən, yoxsulluqdan qurtarmaq niyyəti ilə bağlıdır.

➢ *Altından xətt çəkilmiş sözün hansı nitq hissəsinə aid olduğunu müəyyən edin. Bu sözü gedər-gəlməz (yol) sözü ilə müqayisə edin.*

➢ *Qalın hərflərlə verilmiş feldə zaman şəkilçisinin işlənməsi ilə bağlı hansı qayda tətbiq olunub?*

5. Verilmiş cümlələrin inanc, yoxsa atalar sözü, xəbər yerində işlənən fellərin təsdiq (T), yoxsa inkar (İ) olduğunu müvafiq xanada qeyd edin. Nümunəyə baxın.

№	Deyimlər	İnanc		Atalar sözü	
		T	İ	T	İ
1.	Su içən adamı ilan çalmaz.		✓		
2.	Odla oynayan odsuz qalar.				
3.	Dil ağrıyan dişə dəyər.				
4.	Odu söyən qara günə qalar.				
5.	Ayı barmaqla göstərməzlər.				
6.	Elm zəhmət ilə başa gələr.				
7.	İlaxır çərşənbədə nəhs danışmazlar.				
8.	Qocaya hörmət elə, sən də qocalarsan.				
9.	Od çərşənbəsində ocaqdan od verməzlər.				
10.	Böyük olan yerdə kiçik danışmaz.				
11.	Örtülü bazar dostluğu pozar.				

6. Fellərdən şəkilçiləri ayırıb müvafiq xanalarda yazın.

Fellər	Leksik şəkilçi	İnkar şəkilçisi	Zaman şəkilçiləri			Şəxs şəkilçiləri		
			Keçmiş	İndiki	Gələcək	I	II	III
tikdirəcəksən	*-dir*	-	-	-	*-əcək*	-	*-sən*	-
sözləşdilər								
barışmaram								
qarşılaşdıq								
sakitləşmir								
əyilməzsiniz								
açıqlamayacağıq								
dərdləşirsiniz								

Diqqət!

İndiki və gələcək zaman şəkilçilərindən əvvəl *a, ə* açıq saitləri işləndikdə həmin saitlər *ı, i, u, ü* qapalı saitləri kimi tələffüz olunur: *anlayır* [annıyır], *yoxlayacaq* [yoxluyacax].

7. Nümunəyə baxaraq mahnı parçalarında buraxılmış felləri müəyyən edin, onları zamana və şəxsə görə təhlil edin.

Nümunə: İrəvanda xal ... ,
O xal nə xaldır, üzə .... (*qalmaq, düzdürmək*)

qalmadı - şühudi keçmiş zaman, III şəxs tək, inkar; *düzdürmüsən* - nəqli keçmiş zaman, II şəxs tək, *-mış*[4] şəkilçisinin son samiti düşüb

Saçın ucun ... ,
Gülü qönçə ... , sarı gəlin. (*hörmək, dərmək*)

Bu dağlarda maral ... ,
Əl-ayağın daşlar ... . (*gəzmək, əzmək*)

Araxçının məndədir, ceyran,
... , çəməndədir, ceyran. (*sərmək*)

Bağa ... üzümə,
Tikan ... dizimə.
... çıxarmağa
Yar ... gözümə. (*girmək, batmaq, əyilmək, sataşmaq*)

Almanı ... xarala,
... sarala-sarala,
Dağlarda ... marala. (*atmaq, qalmaq, dönmək*)

8 Felin şəkilləri

Felin təsriflənən formaları

Hazırlıq

Yel çərşənbəsi gecəsi söyüd ağacının altına gedib niyyət elə və Yel babanı çağır. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün budaqlarını torpağa toxundursa, diləyin yerinə yetər.

Altından xətt çəkilmiş fellərə diqqət yetirin. Bu cümlələri deyən şəxs hansı fel vasitəsilə

xəbər verir _____

nəsihət edir _____

şərt qoyur _____

YADDA SAXLA Felin şəkilləri necə müəyyən olunur?

Felin şəkilləri ilk növbədə danışanın hərəkətə münasibətinə görə təyin olunur. Bu münasibətdən asılı olaraq hərəkətin icrası əmr və ya arzu olunur, lazım və ya vacib sayılır, şərt kimi qoyulur və ya sadəcə olaraq xəbər verilir.

Felin şəkilləri aşağıdakılardır: 1) əmr şəkli, 2) xəbər şəkli, 3) arzu şəkli, 4) vacib şəkli, 5) lazım şəkli, 6) şərt şəkli.

Felin şəklini təyin edərkən aşağıdakı əlamətlərə diqqət yetirmək lazımdır:

1. Danışanın hərəkətə münasibəti;
2. Xüsusi əlaməti (şəkilçisi);
3. Zamana görə dəyişə bilib-bilməməsi;
4. Şəxsə görə dəyişməsi.

1. Altından xətt çəkilmiş fellərin şəklini müəyyən etməyə çalışın.

1. Heç vaxt böyüyün sözünü kəsmə.

2. Biz tez bir zamanda kompyuterdə yeni proqramları mənimsəməliyik.

3. Kaş atam ezamiyyətdən tez qayıda.

4. Növbəti mərhələdən keçsə, beynəlxalq olimpiadaya gedəcək.

5. Hamı meydana axışdı.

YADDA SAXLA Əmr şəkli

Felin əmr şəklində danışan (subyekt) hərəkətin icra olunmasını və ya olunmamasını əmr (xahiş, məsləhət, təklif, nəsihət, tövsiyə) edir. II şəxsin təki istisna olmaqla bütün şəxslərdə əmr şəkli felin kökünə və ya başlanğıc formasına şəxs şəkilçiləri artırmaqla düzəlir. Əmr şəklində olan felin II şəxs təki onun kökü və ya başlanğıc formasıdır: *get, yaz, başla, sakitləş, çatdır.*

	I şəxs		II şəxs		III şəxs	
	tək	cəm	tək	cəm	tək	cəm
şəkilçilər	*-ım(-yım)*[4]	*-aq(yaq)*[2]		*-ın(yın)*[4]	*-sın*[4]	*-sınlar*[4]
sat(maq)	sat-ım	sat-aq	sat	sat-ın	sat-sın	sat-sınlar
söylə(mək)	söylə-yim	söylə-yək	söylə	söylə-yin	söylə-sin	söylə-sinlər

Beləliklə, əmr şəklinin xüsusi şəkilçisi yoxdur. Onu əmələ gətirən şəxs şəkilçiləri isə felin digər şəxs şəkilçilərindən fərqlidir.

Felin əmr şəklinin zaman şəkilçisi də yoxdur, lakin məzmunca o, gələcək zamanı bildirir, çünki əmr və ya nəsihət olunan hərəkət yalnız deyiləndən sonra icra oluna bilər.

Mətnlə iş. Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

MƏCLİSDƏ NƏZAKƏT VƏ DAVRANIŞ QAYDALARI

Çalış məclisdə elə yerdə otur ki, səni oradan durğuzmasınlar. Danışanların sözünü kəsmə, yanında oturanlarla nəzakətli rəftar elə. Yaxında duranları süfrəyə dəvət elə, lazım gəlsə, onlara qulluq elə.

Oturuşuna, danışığına, rəftarına fikir ver. Yeyəndə tələsmə, gözlərini zilləyərək adamlara baxma.

Məclisdən tez getmə. Çox axıra qalmağa da meyil göstərmə.

("Mərasimlər, adətlər, alqışlar" kitabından)

➢ *Əmr şəklində olan təsdiq və inkar felləri qruplaşdıraraq dəftərinizdə yazın.*

➢ *Əmr şəklində olan hansı fel II şəxsə aid deyil? Həmin fel hansı qrammatik məna növünə aiddir? Bu feli kök və şəkilçilərə ayırın.*

2. *Vur, başla, çalış, çəkil* sözlərini felin əmr şəklində şəxslərə görə dəyişdirin.

3. Cümlələrdə əmr şəklində olan fellərin altından xətt çəkin. Deyimlərin atalar sözü (A.S.), yoxsa alqış (A) olduğunu qarşısındakı mötərizədə qeyd edin.

1. *Sən saydığını say, gör fələk nə sayır.* ( )
2. *Başını el içində həmişə uca görüm.* ( )
3. *Dostla su iç, düşmənlə bal yeməyə oturma.* ( )
4. *Ocağının tüstüsü düşmən gözünü kor eləsin.* ( )
5. *Bağa bax üzüm olsun, yeməyə üzün olsun.* ( )
6. *Torpaq deyər: "Öldür məni, dirildim səni".* ( )
7. *Çörək verən əlin kəsilməsin.* ( )
8. *Qonşunu iki inəkli istə ki, özün bir inəkli olasan.* ( )

YADDA SAXLA Xəbər şəkli

Felin xəbər şəklində danışan hərəkətin kim tərəfindən və nə zaman icra olunduğu barədə xəbər (məlumat) verir.

Xəbər şəklinin də xüsusi şəkilçisi yoxdur. Onun əsas əlaməti zaman şəkilçiləridir. Xəbər şəkli yeganə fel şəklidir ki, burada hərəkətin zamanı aydın şəkildə bildirilir.

Bundan əvvəl "Felin zaman şəkilçiləri" paraqrafında öyrəndikləriniz məhz felin xəbər şəklinə aiddir. Zaman şəkilçisi qəbul etmiş hər bir fel xəbər şəklindədir.

Mətnlə iş. *Mətni oxuyun və tapşırıqları yerinə yetirin.*

QULAQ FALI

İlin axır çərşənbəsində ürəyində niyyət tutub qaş qaralandan sonra xəlvətcə qonum-qonşu qapısına gedərlər. Qapı dalında ürəyində niyyət tutub qulaq asarlar. İçəridən eşidilən iki kəlmə niyyətin yerinə yetib-yetməyəcəyinə işarə verir. Bu kəlmələr xoş sözə, yaxşı bir istəyə bağlıdırsa, demək niyyət baş tutacaq, yox, pis söz, narazılıq, nigarançılıq bildirən kəlmə dilə gəlsə, onda istəyə yetmək çətin işdir. Axır çərşənbə gəlib yetişəndə ulular tapşırmışlar ki, könül açan söhbətlər edilsin. Nədən ki, birdən qapıya gəlib dilək tutan olar, qoy niyyəti xoş sözə tuş gəlsin.

➢ *Altından xətt çəkilmiş fellərdən hansılarının xəbər şəklində olduğunu deyin. Digər fellərin nəyə görə xəbər şəklində olmadığını izah edin.*

YADDA SAXLA Arzu şəkli

Felin arzu şəklində danışan hərəkətin icrasını arzu edir. Arzu şəkli fellərə *-a²(-ya²)* şəkilçisini artırmaqla düzəlir: *gəl-ə, oxu-ya*. Bu zaman, adətən, feldən əvvəl *kaş, gərək, təki, barı* və s. ədatlar işlənir: *gərək bilə, kaş tanıya*.

Arzu şəklində olan fel şəxsə görə aşağıdakı kimi dəyişir:

	I şəxs		II şəxs		III şəxs	
	tək	cəm	tək	cəm	tək	cəm
şəkilçilər	*-m*	*-q(-k)*	*-san²*	*-sınız⁴*		*-lar¹*
yaz(maq)	*yaz-a-m*	yaz-a-q	yaz-a-san	yaz-a-sınız	yaz-a	yaz-a-lar
de(mək)	de-yə-m	de-yə-k	de-yə-sən	de-yə-siniz	de-yə	de-yə-lər

4. Bayatılarda arzu şəklində olan felləri göstərin.

Bu qala bizim qala,
Durduqca bizim qala,
Tikmədim özüm qalam,
Tikdim ki, izim qala.

Bu qala daşlı qala,
Çınqıllı, daşlı qala.
Qorxuram qərib öləm,
Yar gözü yaşlı qala.

5. Deyimlərin alqış, yoxsa qarğış olduğunu, altından xətt çəkilmiş fellərin əmr (Ə), yoxsa arzu (A) şəklinə aid olduğunu göstərin.

Deyimlər	Alqış		Qarğış	
	Ə	A	Ə	A
1. Ağ günlü, ağ çörəkli olasan.		✓		
2. Mərdlik taxtında oturasan.				
3. Fələkdən ağ gün istəyəsən, qara günlər göndərə.				
4. Müxənnət qapısına getməyəsən.				
5. Çörək atlı olsun, sən piyada.				
6. Sən olan günə qara daş düşəydi.				
7. O gün olsun əllərinə xına yaxım.				
8. Əllərinin xınasını gözlərinin yaşı yuyub aparsın.				
9. Əkdiyin ağacdan bəhər yeməyəsən.				
10. Allah başından bir tük də əskik eləməsin.				
11. Bərəkətini qara yel aparsın.				
12. Hər açılan səhərindən yarıyasan.				

6. Bilirsiniz ki, əmr şəklində olan fel zamana görə dəyişmir, lakin məzmununa görə gələcək zaman mənası verir. Felin arzu şəkli haqqında da eyni sözləri demək olarmı? Fikrinizi sübut edin.

7. *Eşit, dinlə* fellərini arzu şəklində şəxslərə görə dəyişin.

Diqqət!

Felin əmr və arzu şəklinin I şəxs cəmi fonetik baxımdan eynidir: *başlayaq, istəyək, sayaq, tərpənək*. Lakin morfoloji baxımdan onlar fərqlənir:

Əmr şəkli		Arzu şəkli	
dara-yaq	⌐¬ + ◠	*dara-ya-q*	⌐¬ + ◠ + ◠
istə-yək	⌐¬ + ◠	*istə-yə-k*	⌐¬ + ◠ + ◠
say-aq	⌐¬ + ◠	*say-a-q*	⌐¬ + ◠ + ◠
tərpən-ək	⌐¬ + ◠	*tərpən-ə-k*	⌐¬ + ◠ + ◠

Nümunələrdən göründüyü kimi, əmr şəklinin sonluğu yalnız şəxs şəkilçisindən ibarətdir, arzu şəklində olan felin sonluğu isə iki hissəyə bölünür: 1) arzu şəklinin xüsusi şəkilçisi və 2) şəxs şəkilçisi. Bu fellərin hansı şəklə aid olduğunu yalnız kontekstdə (cümlə daxilində) müəyyən etmək mümkündür. Əgər fel arzu ifadə edirsə, ondan qabaq *kaş, gərək* sözləri işlənirsə (işlənə bilərsə), deməli, o, arzu şəklindədir. Feldən qabaq *qoy, gəl* ədatları işləndikdə isə o, əmr şəklində olur: *qoy deyək, gəl gedək.*

YADDA SAXLA — Vacib şəkli

Felin vacib şəkli hərəkətin icrasının zəruri olduğunu bildirir.

Vacib şəkli fellərə *-malı*[2] şəkilçisi artırmaqla düzəlir: *sat-malı, bil-məli.*

Vacib şəklində olan fel zaman şəkilçisi qəbul etmir, lakin əmr və arzu şəklində olduğu kimi, burada da felin məzmununda gələcək zaman anlayışı var.

Vacib şəklində olan fel şəxsə görə dəyişir.

I şəxs		II şəxs		III şəxs	
tək	cəm	tək	cəm	tək	cəm
-yam[2]	*-yıq*[4]	*-san*[2]	*-sınız*[4]	*-dır*[4]	*-dırlar*[4]
al-malı-yam	al-malı-yıq	al-malı-san	al-malı-sınız	al-malı-dır	al-malı-dırlar

Mətnlə iş. Qədim dünya tarixindən Hammurapi və onun qanunları haqqında oxuduqlarınızı xatırlayın. Mətni oxuyun və vacib şəklində olan fellərin altından xətt çəkin.

HAMMURAPİNİN QANUNLARI

- Əgər savaşmada biri digərinə xətər yetirsə, bu adam and içməlidir ki, mən onu qəsdən vurmamışam və həkimin xərcini ödəməlidir.
- Əgər oğul atanı vursa, onun barmaqları kəsilməlidir.
- Əgər ev uçarkən ev sahibinin oğlu ölərsə, o, həmin evi tikmiş bənnanın oğlunu öldürmək hüququna malik olur.
- Əgər bir adamın evi yanarsa və birisi o yanğını söndürmək adı ilə gəlib ev sahibinin əşyalarına tamah salar və hər hansı bir şey oğurlayarsa, həmin adam oda atılıb yandırılmalıdır.
- Əgər bir adam qonşusuna böhtan atıb onu oğurluqda ittiham edirsə, qonşuları onu andiçmə yolu ilə Allah qarşısında ifşa etsələr, şər atan adam qonşusuna iddia etdiyi məbləği ikiqat ödəməlidir.

➢ *3800 il bundan əvvəl yazılmış Hammurapi qanunlarına münasibətinizi bildirin. Siz sadalanan günahlara görə hansı cəzalar tətbiq edərdiniz?*

➢ *Azərbaycanda qanunları qəbul edən qurum necə adlanır?*

YADDA SAXLA **Lazım şəkli**

Felin lazım şəkli hərəkətin icrasının lazım olduğunu bildirir və fellərə *-asıı(-yasıı)*[2] şəkilçisi artırmaqla düzəlir: *bacar-ası, dilə-yəsi.*

Lazım şəklində olan fel zaman şəkilçisi qəbul etmir, lakin felin məzmununda gələcək zaman anlayışı var.

Lazım şəklində olan fel şəxsə görə dəyişir.

Lazım şəklinin inkarı felə *deyil* sözünü artırmaqla yaranır və bu zaman şəxs şəkilçisi həmin sözə artırılır: *gedəsi deyiləm, oxuyası deyilsiniz.*

I şəxs		II şəxs		III şəxs	
tək	cəm	tək	cəm	tək	cəm
-yam[2]	*-yıq*[4]	*-san*[2]	*-sınız*[4]	*-dır*[4]	*-dırlar*[4]
sür-əsi-yəm	*sür-əsi-yik*	*sür-əsi-sən*	*sür-əsi-siniz*	*sür-əsi-dir*	*sür-əsi-dirlər*
de-yəsi-yəm	*de-yəsi-yik*	*de-yəsi-sən*	*de-yəsi-siniz*	*de-yəsi-dir*	*de-yəsi-dirlər*

8. Verilmiş cədvələ uyğun olaraq *gətir, gözlə* fellərini vacib və lazım şəklində şəxslərə görə dəyişin.

	I şəxs		II şəxs		III şəxs	
	Tək	Cəm	Tək	Cəm	Tək	Cəm
Təsdiq						
İnkar						

9. Fonetik baxımdan eyni sonluğa malik olan sözləri qruplaşdırın və nümunəyə uyğun olaraq təhlil edin.

Nümunə

qurtarasıdır: *qurtar* - sözün kökü, *-ası* - felin lazım şəklinin şəkilçisi, *-dır* - şəxs şəkilçisi

sədasıdır: səda - sözün kökü, -sı - mənsubiyyət şəkilçisi, *-dır* - şəxs şəkilçisi

1. Kitabı sabah gətirəsidir.
2. Gələn il əsgərliyə gedəsisən.
3. Biz Xəzər Universitetinin tələbəsiyik.
4. Bakının ən qədim memarlıq abidələrindən biri də Qız qalasıdır.
5. Biz bu mübarizədə qalib gələsiyik.
6. Aygün bu il universitetə qəbul olasıdır.
7. Bu, Zakirin ən böyük qələbəsidir.
8. Sən kimin nəvəsisən?

YADDA SAXLA Şərt şəkli

Felin şərt şəkli hərəkətin müəyyən şərt daxilində icra olunacağını bildirir və fellərə *-sa*[2] şəkilçisi artırmaqla düzəlir: *çalış-sa, gətir-sə.*

Şərt şəklində olan fel zamana görə dəyişmir, lakin onun məzmununda gələcək zaman anlayışı var.

Şərt şəklində olan fel şəxsə görə dəyişir.

I şəxs		II şəxs		III şəxs	
tək	cəm	tək	cəm	tək	cəm
-m	*-q(-k)*	*-n*	*-nız*[4]		*-lar*[2]
böyü-sə-m	*böyü-sə-k*	*böyü-sə-n*	*böyü-sə-niz*	*böyü-sə*	*böyü-sə-lər*
anla-sa-m	*anla-sa-q*	*anla-sa-n*	*anla-sa-nız*	*anla-sa*	*anla-sa-lar*

Şərt şəklində işlənmiş feldən sonra vergül qoyulmalıdır.

10. Şərt şəklində olan felləri tapın və hansı şəxsə aid olduğunu deyin. Atalar sözünün mənasını izah edin.

Əziyyət çəkib yaxşılıq etsən, əziyyət keçər, yaxşılıq qalar.
Pislik edib ləzzət çəksən, ləzzət gedər, pislik qalar.
(Nəsirəddin Tusi)

Bacarsan, hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər. (Nizami)

Namərdi bir gördüm, bir də görsəm, namərdəm. (Atalar sözü)

Dağ başında qara bax,
Üstün alan sara bax,
Aləm cənnətə dönsə,
Mənə xoşdur Qarabağ.

Don tiksən, ağı bizdən,
Belinin bağı bizdən,
Qoymayın yadellini
Almağa bağı bizdən.

11. Əlamətlərin felin hansı şəkillərinə aid olduğunu müvafiq xanada qeyd edin: Ə - əmr, X - xəbər, A - arzu, V - vacib, L - lazım, Ş - şərt.

	Ə	X	A	V	L	Ş
Şəxsə və zamana görə dəyişir.	☐	☐	☐	☐	☐	☐
-sa[2] şəkilçisi artırmaqla düzəlir.	☐	☐	☐	☐	☐	☐
Gələcək zaman mənasında olur.	☐	☐	☐	☐	☐	☐
-malı[2] şəkilçisi artırmaqla düzəlir.	☐	☐	☐	☐	☐	☐
-ası[2] şəkilçisi artırmaqla düzəlir.	☐	☐	☐	☐	☐	☐
-a(ya)[2] şəkilçisi artırmaqla düzəlir.	☐	☐	☐	☐	☐	☐
Əsas əlaməti zaman şəkilçiləridir.	☐	☐	☐	☐	☐	☐

12. Şeir parçalarındakı eyni felləri tapın və onlar arasındakı qrammatik fərqləri izah edin.

Məndə sığar iki cahan, mən bu cahana sığmazam.
(Nəsimi)

Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?
(Füzuli)

Bəzənmisən bu gündəsən, bəzənməsən, nə gündəsən?
(məsəl)

QİYMƏTLƏNDİRMƏ

7-8-ci mövzular

1. Gələcək zamanda işlənmiş feli göstərin.
A) Yarpaqlar payızda saralır.
B) Yıxılana balta vurmazlar.
C) Mismarı taxtadan çıxar.
D) Kaş ki, sən deyənə qulaq asaydım.
E) Qayış nə bilir, öküz nə çəkir.

2. Felin şəkilləri hansı göstəriciyə görə müəyyən olunur?
A) təsirli-təsirsiz olmasına görə
B) hərəkətin obyektə münasibətinə görə
C) danışanın hərəkətə münasibətinə görə
D) təsdiq və ya inkarda olmasına görə
E) quruluşuna görə

3. Məntiqi ardıcıllığı davam etdirin.
əmr, xəbər, arzu, vacib, şərt...
A) təsirsiz
B) inkar
C) lazım
D) məchul
E) qayıdış

4. Felin lazım şəklinin inkarı bunlardan biri ilə yaranır.
A) -ma²
B) -maz
C) deyil
D) yox
E) heç

5. Vurğusu sonuncu hecaya düşməyən feli tapın.
A) oxudu
B) səsləndi
C) baxırdı
D) yollanar
E) bacarır

6. Felin başlanğıc formasıdır
A) indiki zamanda ikinci şəxsin təki
B) arzu şəklində üçüncü şəxsin təki
C) əmr şəklində ikinci şəxsin təki
D) arzu şəklində ikinci şəxsin təki
E) əmr şəklində ikinci şəxsin təki

7. «*Yazaq*» sözünün ⌐¬◠ sxemi felin hansı şəklinə uyğundur?
A) arzu
B) əmr
C) şərt
D) vacib
E) xəbər

8. ⌐◠ ◠◠ sxeminə uyğun gələn "*başlayaq*" feli hansı ədatla işlənir?
A) qoy
B) gəlsənə
C) qoysana
D) təki
E) gəl

9. Təsriflənən fellər, əsasən, hansı cümlə üzvi olur?
A) zərflik
B) ismi xəbər
C) feli xəbər
D) tamamlıq
E) bütün cümlə üzvləri

10. Həm təsriflənən, həm təsriflənməyən fel işlənən sıranı tapın.
A) bacarıq, izah edin
B) saxladıq, yorulanda
C) yada düşmək, baxdıqca
D) soruşun, bəzəndi
E) tanınmış, açılan

FELİN TƏSRİFLƏNƏN FORMALARINA AİD KEÇİLMİŞLƏRİN TƏKRARI

1. Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

A) Həmin gün yenə istəyənlərin hamısına süd çatmadı. Kişi suyu bir az da ***artırdı***. Oğlunun etirazına baxmayaraq, ata hər gün südə daha çox su qatırdı.

B) Bir kişinin bir inəyi vardı. Ailəsini onun südünü satmaqla dolandırırdı. Alıcılar ondan südü həvəslə alırdılar. Müştəriləri getdikcə ***artırdı***. Artıq hamıya süd çatdırmaq olmurdu. Belə olduqda kişi südə su qatmağa başladı.

C) Bir gün möhkəm yağış yağdı, güclü sel gəldi. Çay kənarındakı çəmənlikdə otlayan inəyi sel apardı.

D) Bunu görən oğlu atasına etiraz etdi:

- Ata, bu, yaxşı iş deyil. Belə şeydən heç kim xeyir tapmayıb. Bunun bizə zərəri dəyər. Gəl halal malımıza ... qatmayaq.

Lakin ata:

- Heç nə olmaz, bir fincan su bu qədər südə neylər? - deyərək əhəmiyyət vermədi.

➢ Mətnin hissələrinin düzgün ardıcıllığını tapın.

➢ Mətnə ad qoyun.

➢ Mətndə fərqləndirilmiş "artırdı" sözlərini tərkibinə görə və fonetik təhlil edin.

➢ D bəndində, oğulun nitqində nöqtələrin yerinə altından xətt çəkilmiş sözlərdən hansının antonimi uyğun gəlir.

➢ Debat. Həmin parçanın son sözü felin hansı şəklindədir?

A) arzu

B) əmr

➢ Qırmızı rəngdə verilmiş sözlərdən hansının tərkibi ⌐¬ ⌒ ⌒ ⌒ sxeminə uyğun gəlir?

➢ Mavi rəngdə verilmiş sözlərdən hansı tərkibi feldir?

2. Nəyə görə şərt şəklində işlənmiş feldən sonra vergül qoyulmalıdır?

3. Qaydaya əsasən, şərt şəklində işlənmiş feldən sonra vergül qoyulmalıdır. Aşağıdakı şeirdə altından xətt çəkilmiş fellərdən sonra nöqtə və sual işarəsinin qoyulması nə ilə bağlıdır?

Yazmaram, ürəyim sizi anmasa,
Sizin eşqinizlə alovlanmasa.
El kəsib qarşımı burdaca sordu:
Gözdən yaş çıxarmı, ürək yanmasa? (M.Müşfiq)

4. Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

TƏBƏSSÜM

Gənc qız üzgün görünən bir nəfərə gülümsədi. Həmin adamın əhval-ruhiyyəsi yaxşılaşdı. Vaxtilə ona xeyirxahlıq etmiş bir dostuna təşəkkür məktubu yazdı.

Restoranda nahar edən dostu məktubu oxuyub çox şad oldu, yediyinin haqqını artıqlaması ilə ödədi. Pulun çoxluğundan heyrətlənən ofisiant restoranın böyür-başında hərlənən bir imkansız uşağı öz hesabına yedizdirdi.

Uşaq çox sevindi, çünki iki gün idi, dilinə bir şey dəymirdi. O, küçədə gedərkən soyuqdan titrəyən bir küçüyə rast gəldi. Onu evlərinə gətirdi. Şaxtadan qurtulduğu üçün küçük çox xoşbəxt idi.

Gecə hamı yatmışdı. Evdə yanğın başladı. Küçük evdəkiləri oyadana qədər hürdü. Beləcə hamı yanğından qurtarmış oldu.

➢ Hansı şeir parçası mətnin ideya məzmununa uyğundur?

A) Can deməklə candan can əskik olmaz,
Ülfəti artırar, mehriban eylər. (A.Ələsgər)

B) Əbəs yerə bivəfaya can dedim,
Zəhmətin çox çəkdim, karın görmədim.

➢ Birinci cümlədə altından xətt çəkilmiş sözün leksik şəkilçisini hansı şəxs əvəzliyinə artırmaqla fel düzəltmək olar?

➢ 2-ci abzasda altından xətt çəkilmiş sözü tərkibinə görə təhlil edin.

9 Felin təsriflənməyən formaları. Məsdər

Məsdərin ikili xüsusiyyəti

Hazırlıq

1. İndiyə kimi öyrəndiyiniz fel formaları necə adlanır:
A) felin təsriflənən formaları
B) felin təsriflənməyən formaları

2. Təsriflənən fellərin hamısı hansı əlamətə görə dəyişir:
A) zamana görə
B) şəxsə və kəmiyyətə görə

YADDA SAXLA Felin təsriflənməyən formaları

Felin təsriflənməyən formaları aşağıdakılardır: məsdər, feli sifət, feli bağlama.

FELİN TƏSRİFLƏNƏN FORMALARI	FELİN TƏSRİFLƏNMƏYƏN FORMALARI
Oxşar cəhətlər	
1. Məzmununda hərəkət anlayışı var. 2. Təsdiq və inkarda olur. 3. Təsirli və təsirsiz olur. 4. Qrammatik məna növləri var.	
Fərqli cəhətlər	
1. Yalnız felin qrammatik xüsusiyyətlərinə malikdir. 2. Şəxsə və kəmiyyətə görə dəyişir. 3. Cümlədə yalnız feli xəbər olur.	1. Fellə yanaşı, başqa bir nitq hissəsinin də qrammatik xüsusiyyətlərinə malikdir. 2. Şəxsə və kəmiyyətə görə dəyişmir. 3. Feli xəbər istisna olmaqla müxtəlif cümlə üzvləri ola bilir.

Təsriflənməyən fellər başqa sözlərlə birləşərək feli birləşmələr yaradır və bu birləşmənin əsas tərəfi kimi çıxış edir: *pəncərədən bayıra baxmaq* (məsdər), *sözünü üzə deyən* (feli sifət), *dağdan yamaca enəndə* (feli bağlama).

Felin təsriflənməyən formalarını əmələ gətirən şəkilçilər qrammatik şəkilçilərdir.

3. Nümunəyə baxaraq fellərin əlamətlərini qeyd edin və təsriflənən, yoxsa təsriflənməyən fel olduğunu göstərin.

	vuruşaraq	yaşayın	satdırmaq	qorxmadan	açdırsa	çəkiləndə	dinlədikcə	dinməyən
Təsirli	-							
Təsirsiz	+							
Təsdiq	+							
İnkar	-							
Şəxsə və kəmiyyətə görə dəyişməsi	-							
Qrammatik məna növü şəkilçisi	+							
Təsriflənən	-							
Təsriflənməyən	+							

YADDA SAXLA Məsdərin ikili xüsusiyyəti

Həm fel, həm də ismin xüsusiyyətlərini daşıyan məsdər felin kökünə və ya başlanğıc formasına *-maq²* şəkilçisi artırmaqla düzəlir: *yaz-maq, oxu-t-dur-maq*.

Məsdərin vəzifəsi hərəkəti adlandırmaqdır. Onun ikili xüsusiyyəti də bununla bağlıdır.

Məsdərin felə aid qrammatik xüsusiyyətləri:

1. Hərəkət mənası bildirir.
2. Təsdiq və inkarda olur: *oxu-maq, oxu-ma-maq;*
3. Təsirli və təsirsiz olur: *gör-mək* (nəyi?), *baxmaq* (nəyə?);
4. Qrammatik məna növləri var: *açmaq, açılmaq, açdırmaq;*
5. Başqa sözlərlə əlaqəyə girərək məsdər tərkibi yaradır və bu tərkib cümlənin bir üzvü olur, bir sintaktik suala cavab verir: *Bu şerin hər misrasını dərindən anlamaq vacibdir.*

Məsdərin ismə aid qrammatik xüsusiyyətləri:

1. Nə? sualına cavab verir.
2. Hallana bilir: *yazmaq, yazmağın, yazmağa, yazmağı, yazmaqda, yazmaqdan*
3. Mənsubiyyətə görə dəyişə bilir: (mənim) *oxumağım*, (sənin) *oxumağın*, (onun) *oxumağı*, (bizim) *oxumağımız*.
4. III şəxs xəbər şəkilçisi (*-dır⁴*) qəbul edib cümlədə ismi xəbər olur: *Ən çətin iş o zirvəyə çatmaqdır.*
5. Cümlədə mübtəda, tamamlıq, zərflik (qoşma ilə işləndikdə), ismi xəbər olur.

Diqqət!

Məsdər feli birləşmə tərkibində əsas tərəf kimi çıxış edir:
kitab oxumaq.
İsmi birləşmə tərkibində isə asılı tərəf kimi çıxış edir:
oxumaq həvəsi.

4. Aforizmləri köçürün, məsdər tərkiblərinin altından xətt çəkin, məsdərlərin ismə və felə aid hansı xüsusiyyətləri əks etdirdiyini qeyd edin.
NÜMUNƏ:
Az bilən bildiklərini təkrar etməyi xoşlayır. (T.Fuller)
İsmə aid xüsusiyyətləri: 1. Nə? sualına cavab verir. 2. Təsirlik haldadır. 3. Cümlədə tamamlıq rolundadır.
Felə aid xüsusiyyətləri: 1. Təsdiq feldir. 2. Təsirli feldir. 3. Məlum növ feldir.

1. Rüşvətxoru, oğrunu qəhrəmana çevirmək öz xalqına xəyanət etməkdir. (H.Əliyev)

2. O torpağı ki qoruya bilmədin, onu əkib-becərməyə dəyməz, o torpağı ki əkib-becərmədin, onu qorumağa dəyməz. (Anar)

Diqqət!

Məsdər mənsubiyyət şəkilçisi qəbul edərkən bəzən *-maq²* şəkilçisinin son samiti düşür: *Bu mahnını bir daha oxumanızı xahiş edirik.* Felin inkar şəkilçisindən fərqli olaraq *-ma²* məsdər şəkilçisi vurğu qəbul edir, odur ki, məsdərin bu formasını bəzən *-ma²* şəkilçili isim və sifətlərlə qarışıq salırlar. Əgər *-ma²* şəkilçisi qəbul etmiş söz əşya və ya əlamət bildirirsə, deməli, o, isim və ya sifətdir. Yox, əgər bu söz felin xüsusiyyətlərini saxlayırsa (hərəkət, proses bildirirsə, təsdiqdə, inkarda ola bilirsə), deməli, o, məsdərdir. Müqayisə edin:
Çəkməsi ayağına dar olurdu. (isim)
Onun siqaret çəkməsi ətrafdakıları narahat edirdi. (fel)

5. Araşdırma. Lüğətlərdə fellər necə qeyd olunur?
A) Felin əmr şəklində olan başlanğıc forması verilir.
B) Felin məsdər forması verilir.

Feli sifətin ikili xüsusiyyəti

Hazırlıq

Altından xətt çəkilmiş sözləri kök və şəkilçiyə ayırın. Bu sözlərin hansı suala cavab verdiyini və cümlədə rolunu təyin edin.

1. Dil ağrıyan dişə dəyər. 2. El keçən körpüdən sən də keç. 3. Bəxt kəsilməmiş qarpız kimidir. 4. Almadığın heyvanın noxtasından yapışma. 5. Su axdığı yerdən bir də axar. 6. Görüləsi işlərimiz çoxdur. 7. Tikiləcək binaların layihəsi hazırdır.

➢ Sizcə, bu sözlərdə hansı nitq hissələrinin xüsusiyyətləri var?

YADDA SAXLA **Feli sifətin şəkilçiləri**

Həm fel, həm də sifətin xüsusiyyətlərini daşıyan feli sifət şəkilçidən asılı olaraq müxtəlif zaman mənaları bildirir.

Keçmiş zaman mənalı feli sifətlərin şəkilçiləri:

- *-mış*[4]: *yaşan-mış* (həyat), *səpil-miş* (toxum), *oxu-muş* (adam), *görül-müş* (iş).
- həmişə mənsubiyyət şəkilçisi ilə işlənən *-dıq*[4] şəkilçisi: *bax-dığ-ım* (film), *dinlə-diy-imiz* (mahnı), *yu-duğ-u* (köynək), *gül-düy-ün* (adam).

İndiki zaman mənalı feli sifətlərin şəkilçisi:

- *-an(-yan)*[2]: *açıl-an* (səhər), *üz-ən* (gəmi), *ağla-yan* (körpə), *dinlə-yən* (şagird).

Gələcək zaman mənalı feli sifətlərin şəkilçiləri:

- *-acaq*[2]: *oxun-acaq* (əsər), *görül-əcək* (işlər)
- *-ası*[2]: *baxıl-ası* (tamaşa), *gedil-əsi* (yerlər)
- *-malı*[2]: *oxu-malı* (əsər), *gül-məli* (əhvalat)

Bu şəkilçilərdən bəziləri omonim şəkilçilərdir:

-mış[4] - nəqli keçmiş zaman şəkilçisi: *al-mış-am*;
-acaq[4] - 1) qəti gələcək zaman şəkilçisi: *al-acaq-lar*,
2) feldən isim düzəldən şəkilçi: *yan-acaq:*
-ası[4] - felin lazım şəklinin şəkilçisi: *al-ası-yıq*;
-malı[4] - felin vacib şəklinin şəkilçisi: *al-malı-san.*

Mətnlə iş. Feli sifətləri tapın və onların hansı zamana aid olduğunu müəyyənləşdirin.

VAXTSIZ BANLAYAN XORUZUN BAŞINI KƏSƏRLƏR

Dilini ağzında saxlaya bilməyən, başqasının sirrini açan, yerli-yersiz danışan adamlar haqqında deyirlər.

"Avesta"da deyildiyinə görə, Yer üzündə birinci insan və birinci padşah olan Kəyumərs divlər tərəfindən öldürülmüş oğlu Huşəngin intiqamını almaq üçün gedərkən bir ağ xoruzun ilanla vuruşduğunu və banladığını görür. Kəyumərs ilanı öldürür, xoruzun banlamağını yaxşı əlamət hesab edib onu evə gətirir.

İllər keçir. Bir dəfə xoruz axşam vaxtı banlayır. Xoruz bu vaxta qədər axşamlar banlamazmış. Ona görə adamlar onun bu vaxtsız banına təəccüb edirlər. Gəlib Kəyumərsin öldüyünü görürlər. Bundan sonra xoruzun axşam (vaxtsız) banı pis əlamət hesab olunur. İnama görə, belə xoruzun başı kəsilməsə, fəlakət üz verə bilər.

➢ **Debat.** Mətnin başlığı kimi verilmiş ifadə
A) atalar sözüdür, B) məsəldir, C) atalar sözünə çevrilmiş məsəldir.
Fikrinizi əsaslandırın.

➢ *Altından xətt çəkilmiş cümlədə neçə təsriflənməyən fel var? Onlardan neçəsi feli sifətdir.*

YADDA SAXLA Feli sifətin ikili xüsusiyyəti

Feli sifətin felə aid xüsusiyyətləri:

1. Hərəkət mənası bildirir.
2. Təsdiq və inkarda olur: *Çağırılan* (təsdiq) *yerə ar eləmə, çağırılmayan* (inkar) *yeri dar eləmə.*
3. Təsirli və təsirsiz olur:
   Dilini saxlayan (təsirli) *başını saxlar.*
   El malına göz dikən (təsirsiz) *gözdən olar.*
4. Zaman mənası bildirir.
5. Felin qrammatik məna növlərindən birində olur:
   Yıxılan (qayıdış növ) *ağaca balta çalan* (məlum növ) *çox olar.*

Feli sifət ətrafına söz toplayaraq feli sifət tərkibi yaradır. Bu tərkib bir sintaktik suala cavab verir və bir cümlə üzvü olur:

Yeməyini yalqız yeyən (kim?) *yükünü özü qaldırar.*

Feli sifətin sifətə aid xüsusiyyətləri:

1. Əşyanın əlamətini bildirir və *necə?* nə *cür? hansı?* suallarına cavab verir: *köhnəlmiş* (necə?) *fikir, keçmiş* (hansı?) *günlər.*

2. İsmə aid olur və isimdən əvvəl işlənir: *Elminə əməl etməyən alim əlində çıraq gəzdirən kora bənzər.*

3. Sifət kimi substantivləşə (isimləşə) bilir. Feli sifət isimləşəndə kim? nə? sualına cavab verir, hal, mənsubiyyət, xəbərlik şəkilçilərini qəbul edir: *Yıxılana* (kimə?) *balta çalmazlar. Kor tutduğunu* (nəyi?) *buraxmaz.*

4. Cümlədə, əsasən, təyin olur, lakin isimləşəndə mübtəda, tamamlıq, ismi xəbər ola bilir:

Qürbət görməyən (təyin) adam vətən qədri bilməz.
*Dünyada ac qalır tər tökməyənlər (*mübtəda*),*
Onların ömrü də tez gedir bada,
*Hər kəs əhdiyini (*tamamlıq*) biçər dünyada. (S.Vurğun)*
At minənindir (ismi xəbər), *qılınc - bağlayanın.*

Diqqət!

Feli sifətin təsriflənən fellərdən və başqa nitq hissələrindən fərqləndirilməsi

Feli sifətin başqa nitq hissələrinə bənzəməsinin iki əsas səbəbi var:

1. Feli sifət düzəldən şəkilçilərin bir çoxu omonim şəkilçilərdir.

2. Feli sifət felin, sifətin və ismin (substantivləşəndə) bir sıra xüsusiyyətlərinə malik olur.

Feli sifət və felin təsriflənən formaları

-mış[4], *-acaq*[4], *-ası*[4], *-malı*[4] şəkilçili sözlər eyni zamanda şəxs şəkilçisi də qəbul etdikdə təsriflənən fel olur: *at-mış-am.*

Feli sifət və feldən düzələn sifət

Feli sifətlə feldən düzələn sifət məzmunca bir-birinə bənzəyir: *ağlağan uşaq* (feldən düzəlmiş sifət), *ağlayan uşaq* (feli sifət). Lakin onların şəkilçiləri müxtəlifdir. Bu sözləri fərqləndirməyin ən sadə yolu onları inkarda işlətməkdir. Əgər bu mümkündürsə, deməli, həmin söz feli sifətdir: *ağlamayan uşaq.*

Feli sifət və feldən düzələn isim

-acaq[4] şəkilçisi həm də feldən isim düzəldən şəkilçidir: *yanacaq, oturacaq.* Lakin bu cür isimlər feli sifətdən fərqli olaraq hərəkət deyil, ad bildirir.

1. Altından xətt çəkilmiş sözlərin fel (F), isim (İ), sifət (S), yoxsa feli sifət (FS) olduğunu müvafiq xanada qeyd edin.

	F	İ	S	FS
çalışqan şagird	☐	☐	☐	☐
emalatxanada *çalışan* uşaqlar	☐	☐	☐	☐
deyingən qarı	☐	☐	☐	☐
bütün günü *deyinən* kişi	☐	☐	☐	☐
çay üstündən *salınacaq* körpü	☐	☐	☐	☐
qatar kənddə *dayanacaq*	☐	☐	☐	☐
növbəti *dayanacaq*	☐	☐	☐	☐
təzə *əlüzyuyan*	☐	☐	☐	☐
əl-üzünü *yuyan* uşaq	☐	☐	☐	☐
gələcək nəslin problemləri	☐	☐	☐	☐
keçilmişlərin təkrarı	☐	☐	☐	☐
bu dərs artıq *keçilmişdir*	☐	☐	☐	☐

2. Doğru, yoxsa yanlış. Feldən düzəlmiş sifəti feli sifətdən fərqləndirən hansı cəhətlər var?

	D	Y
A) Feli sifətlə feldən düzəlmiş sifət şəkilçilərinə görə fərqlənir.	☐	☐
B) Həm feli sifət, həm də feldən düzəlmiş sifət zaman mənasına malikdir.	☐	☐
C) Feli sifətin şəkilçisi qrammatik, feldən düzəlmiş sifətin şəkilçisi leksik şəkilçidir.	☐	☐
D) Feli sifətlər quruluşca sadə, feldən düzəlmiş sifətlər quruluşca düzəltmə olur.	☐	☐
E) Feli sifətdən fərqli olaraq feldən düzəlmiş sifət felin xüsusiyyətlərinə malik olur.	☐	☐

3. Verilmiş atalar sözlərində substantivləşmiş feli sifətləri tapın, onların felə və ismə aid olan xüsusiyyətlərini sadalayın.

Qonaq sevənin süfrəsi boş olmaz.
Gördüyündən göz kirayəsi istəyir.
Yaman günü görməyən yaxşı günün qədrini bilməz.
Ulu sözünə baxmayan ulaya-ulaya qalar.

Hazırlıq

Dahi italyan heykəltəraşı Mikelanceloya (1475-1564) məxsus aforizmi oxuyun və onun mənasını açıqlamağa çalışın.

Mənim hansı məşəqqətlərdən keçib sənətin zirvəsinə qalxdığımı bilsəydiniz, əsərlərimi görərkən heyrət etməzdiniz.

➢ Cümlədəki fellərin altından xətt çəkin, onların sualını müəyyənləşdirin. Onları kök və şəkilçiyə ayırın.

YADDA SAXLA · Feli bağlamanın şəkilçiləri

Həm fel, həm də zərfin xüsusiyyətlərini daşıyan feli bağlama cümlədə başqa fellə bağlı olur və onu müxtəlif cəhətdən izah edir: zamanını, tərzini, səbəbini bildirir. Feli bağlama aşağıdakı şəkilçilər vasitəsilə əmələ gəlir:

- *-ıb⁴ (-yıb⁴), -araq(-yaraq)²* sinonim şəkilçilərdir. Bu şəkilçilər əsas fellə ifadə olunan hərəkətin

a) zamanını bildirir: *Uşağı məktəbə aparıb işə gedəcəyəm.*

b) tərzini bildirir: *O, əlini döşünə qoyaraq danışırdı.*

c) səbəbini bildirir: *Rəhim səhvini başa düşüb üzr istədi.*

- *-a² ...-a²* hərəkətin tərzini bildirir: *Uşaqlar gülə-gülə gedirdilər.*
- əsasən, *-ma²* inkar şəkilçisi ilə işlənən *-dan²* və *-mış⁴* şəkilçiləri, hərəkətin zamanını, bəzən də tərzini bildirir: *Müəllimdən icazə almadan* (zaman) *sinfə girməyin. O durmadan* (tərz) *danışırdı. Çörəyini yeməmiş* (zaman) *həyətə qaçdı. Kəndə bir az qalmış ayaq saxlayıb nəfəsini dərdi.*

Qeyd: -madan, -mamış şəkilçiləri morfoloji təhlil zamanı bir qrammatik şəkilçi kimi qəbul olunur.

Aşağıdakı şəkilçilərlə düzələn feli bağlamalar isə əsas fellə ifadə olunan hərəkətin zamanını bildirir:

- *-anda²*: *Məktəbə gedəndə yıxıldım.*
- *-dıqda⁴*: *Müəllimi gördükdə duruxdu.*
- *-arkən²*: *Şagird dərsi danışarkən sinfin qapısı açıldı.*
- *-ınca⁴*: *Dostunu görüncə çox sevindi.*
- *-dıqca⁴*: *Əsəri oxuduqca adama elə gəlir ki...*
- *-ar² ...-maz²*: *Kəndə çatar-çatmaz qarşısına bir it çıxdı.*

1. Debat. İki qrupa bölünərək aşağıdakı fikirlərlə bağlı öz mövqeyinizi müəyyənləşdirin və arqumentlərinizi əsaslandırın.
A. Feli bağlama olan cümlənin xəbəri həmişə feli xəbər olur.
B. Feli bağlama olan cümlənin xəbəri ismi xəbər də ola bilər.

Diqqət!

Nəqli keçmiş zaman şəkilçisi olan *-ıb*[4] omonim şəkilçidir:
Oğlan duruş gətirə bilməyib (feli bağlama) *yıxılıb, ayağı ilişib üzəngiyə, atın böyründən asılı qalıb* (nəqli keçmiş zaman).

2. Feli bağlamaları və onların aid olduğu əsas feli seçib dəftərinizdə yazın. Əsas felin hansı cümlə üzvü və felin hansı formasında (təsriflənən, yoxsa təsriflənməyən) olduğunu deyin.

1. Biliyi olub onu işlətməyən yeri şumlayıb dən səpməyən adama bənzəyir. (Ərəb atalar sözü)

2. Makedoniyalı İsgəndər bir nəfərə qarşı ittihamı dinləyərkən bir qulağını yumur, ondan nə üçün belə etdiyini soruşanda deyirdi: "Bu qulağımı müttəhim üçün saxlayıram".

YADDA SAXLA **Feli bağlamanın ikili xüsusiyyəti**

Feli bağlamanın felə aid xüsusiyyətləri:
1. Hərəkət mənası bildirir.
2. Təsirli və təsirsiz olur: *oxuduqca, gedərək;*
3. Təsdiq və inkarda olur: *bilib, bilməyib;*
4. Felin qrammatik məna növlərindən birində olur: *çağırtdırıb tapşırdı, yazılaraq göndərildi.*
5. Ətrafına söz toplayaraq feli bağlama tərkibi yaradır. Bu tərkib cümlənin bir üzvü olur və bir sintaktik suala cavab verir. *Bayrağı başı üstünə qaldıraraq irəli atıldı.*

Feli bağlamanın zərfə aid xüsusiyyətləri:
1. Hərəkətin tərzini, zamanını bildirir.
2. Zərfin suallarına (necə? nə zaman?) cavab verir:
Əsgərlər mahnı oxuya-oxuya (necə?) *addımlayırdılar.*
Evdən çıxarkən (nə zaman?) *dostuma rast gəldim.*
3. Cümlədə istər təklikdə, istərsə əlaqəyə girdiyi sözlərlə birlikdə zərflik olur: *Duman dağların üstündən çəkiləndə yamacda bir kənd göründü.*

3. Debat. *-ıb*[4], *-araq*[2] şəkilçili feli bağlama və onun bağlı olduğu əsas fellə ifadə olunan hərəkətlərin:

A) Bir subyekti olur.

B) Hərəsinin bir subyekti ola bilər.

4. Cümləni oxuyun və suallara cavab verin.

"XX əsrin müqaviləsi" adlandırılan bu layihənin gerçəkləşdirilməsində Heydər Əliyevin əvəzsiz xidmətləri qiymətləndirilərək bu boru kəmərinə onun adı verilmişdir.

➢ Söhbət hansı layihədən gedir? Adı çəkilən boru kəməri hansı ölkələrin ərazisindən keçir?

➢ Altından xətt çəkilmiş sözlərdən hansı feli bağlamadır? Bu sözlərdən hansının morfoloji tərkibi aşağıdakı sxemə uyğun gəlir? Həmin sözdəki şəkilçiləri izah edin.



Diqqət!

Felin təsriflənən formaları və onların yaratdığı tərkiblər başqa bir tərkibə də daxil ola bilər:

1. Evi tərk edən adamı yola salmaq adi bir etika qaydasıdır.

2. Fırıldaq və xəyanət namusla yaşamağa ağlı çatmayan axmaqların əməlləridir.

3. Üzərinə məsuliyyət götürmədən işə başlayan adam uğursuzluğa düçar olur.

I cümlədə feli sifət tərkibi (*evi tərk edən*) məsdər tərkibinə (*evi tərk edən adamı yola salmaq*), II cümlədə məsdər tərkibi feli sifət tərkibinə, III cümlədə feli bağlama tərkibi feli sifət tərkibinə daxildir.

Belə olduqda tərkib daxilindəki tərkib ayrıca cümlə üzvü ola bilmir.

5. Düşünün. Aşağıdakı cümlələrin hansında altından xətt çəkilmiş söz feli bağlamadır? Feli bağlamanın əlamətlərini sadalamaqla fikrinizi əsaslandırın. Həmin sözün şəkilçisi hansı şəkilçi ilə sinonimdir?

1. Dəvənin qanadı olsa, uçmamış dam qalmaz.

2. At almamış noxta davası edir.

FELİN TƏSRİFLƏNMƏYƏN FORMALARINA AİD KEÇİLMİŞLƏRİN TƏKRARI

1. Sadalanan xüsusiyyətlərin məsdərə (M), feli sifətə (FS), yoxsa feli bağlamaya (FB) aid olduğunu müvafiq xanada qeyd edin. Nəzərə alın ki, eyni xüsusiyyət müxtəlif formalara aid ola və ya heç birinə aid olmaya bilər.

	M	FS	FB
1. Əşyanın hərəkətlə bağlı əlamətini bildirir.	☐	☐	☐
2. Başqa (əsas) fellə bağlı olur.	☐	☐	☐
3. Hərəkəti adlandırır.	☐	☐	☐
4. Bildirdiyi zaman mənası əsas felin zamanı ilə müqayisədə müəyyən olunur.	☐	☐	☐
5. Təsdiq və inkarda olur.	☐	☐	☐
6. Əsas fellə ifadə olunan hərəkətin zamanını, tərzini, səbəbini bildirir.	☐	☐	☐
7. Substantivləşə bilir.	☐	☐	☐
8. Şəxsə və kəmiyyətə görə dəyişir.	☐	☐	☐
9. Necə? sualına cavab verir.	☐	☐	☐
10. Hansı? sualına cavab verir.	☐	☐	☐
11. Nə zaman? niyə? suallarına cavab verir.	☐	☐	☐
12. Nə? sualına cavab verir.	☐	☐	☐
13. Təsirli və təsirsiz ola bilir.	☐	☐	☐
14. Cümlədə, əsasən, təyin olur.	☐	☐	☐
15. Cümlədə feli xəbər olur.	☐	☐	☐
16. Cümlədə zərflik olur.	☐	☐	☐
17. Mübtəda, tamamlıq, ismi xəbər ola bilir.	☐	☐	☐
18. Felin istənilən qrammatik məna növündə ola bilir.	☐	☐	☐
19. Ətrafına söz toplayaraq tərkib yarada bilir.	☐	☐	☐
20. Hərəkət mənası bildirir.	☐	☐	☐

2. Cümlələri oxuyun, təsriflənməyən felləri tapın və onların cümlədə vəzifəsini müəyyənləşdirin.

1. İnsan yanılanda bunu hamı görür, yalan danışanda isə çox az adam görə bilir. (İ.Höte)

2. Padşah dedi: "Məni istəyən, İsgəndərə xələt!"

3. Dostların sayı azaldıqca onların qiymətini daha yaxşı başa düşürsən.

4. Yola gedən adamın dalınca su atıb deyərlər ki, bu su quruyunca qayıt. (inanc)

5. Yaman yeyənin olsun, yaman deyənin olmasın!

6. Sözünün üstündə durmamaq yalan danışmağa bərabərdir.

Mətnlə iş. Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

HÖKMDAR VƏ ALİM

Böyük alim və filosof Nəsirəddin Tusinin ən böyük xidmətlərindən biri Marağa rəsədxanasının yaradılması olmuşdur.

Tusi Marağada tikiləcək rəsədxananın xərci haqqında Hülakü xana xəbər verdikdə hökmdar təəccüblə soruşmuşdu: "Ulduzlar elminin nə faydası var ki, rəsədxanaya bu qədər xərc qoyula?" Bu sualı eşidincə böyük alim məyus olmuşdu. O tələb etmişdi ki, bir neçə nəfər böyük bir çəlləyi şəhərin yanındakı təpəyə qaldıraraq oradan aşağı buraxsın. Çəllək vahiməli səs-küy sala-sala aşağı yuvarlandıqca şəhər əhalisi arasında çaxnaşma düşmüşdü: kimi zəlzələ baş verdiyini, kimi isə düşmənlərin şəhərə hücum etdiyini düşünmüşdü. Alim və hökmdar isə kənarda dayanıb sakitcə bu mənzərəni seyr emişdilər.

Səs-küy bitdikdə Xacə Nəsirəddin hökmdara demişdi: "Bu səs-küyün səbəbi bizə məlum olduğundan sakit idik. Əhali isə bunu bilmədiyindən narahat oldu. Yerdə sakit yaşamaq istəyirsənsə, göydəki hadisələri müşahidə etmək və öyrənmək lazımdır".

Bu yolla Tusi Hülakü xanı rəsədxananın tikintisi üçün lazımi xərcləri verməyə razı salmışdı.

➢ *Mətndə rast gəldiyiniz təsriflənməyən felləri dəftərinizə yazın və qruplaşdırın.*

➢ *Altından xətt çəkilmiş feli bağlama tərkibi haqqında deyilənlərdən hansı səhvdir:*

A) Zaman mənası bildirir.

B) Tərkibində başqa bir zaman mənası bildirən feli bağlama tərkibi var.

C) Cümlədə zərflik rolundadır.

D) Qrammatik mənasına görə qayıdış növdür.

12 İdi, imiş, isə hissəcikləri

Fel şəkillərinin hekayəti, rəvayəti və şərti

Hazırlıq

Felin xəbər şəkli eyni zamanda iki zaman şəkilçisi qəbul edə bilərmi? *Yazacaqmış* feli hansı zamana aiddir? Bu feldəki zaman şəkilçisini göstərin.

Felin vacib, lazım, arzu, şərt şəkilləri hansı zaman mənasını bildirir? Felin bu şəkilləri zamana görə dəyişirmi? Aşağıdakı sözləri oxuyun və onların hansı zamana aid olduğunu deyin: *çalışmalıydınız, gedəsiymişlər, gərək biləydin, oxusaydıq.* Bu sözləri morfoloji təhlil edin. Fel şəkillərinin morfoloji əlamətlərini, şəxs şəkilçilərini və keçmiş zaman mənası bildirən hissəciyi göstərin.

YADDA SAXLA — İdi, imiş hissəciklərinin sözlərə qoşulması

İdi, imiş köməkçi fellərinə hissəciklər də deyilir. Onlar müxtəlif nitq hissələrinə artırılaraq həmin sözləri keçmiş zamana aid edir.

İdi, imiş hissəcikləri felə artırıldıqda bütöv halda (olduğu kimi) və ya ixtisar formasında (*-dı, -di, -du, -dü, -mış, -miş, -muş, -müş*) işlənir. Digər nitq hissələrinə artırıldıqda isə bütöv halda (*idi, imiş*) yazılır.

söz		*idi*	*imiş*
ağac (isim)		ağac idi	ağac imiş
gözəl (sifət)		gözəl idi	gözəl imiş
çox (say)		çox idi	çox imiş
siz (əvəzlik)		siz idiniz	siz imişsiniz
gec (zərf)		gec idi	gec imiş
yaz (fel)	xəbər	yazmış idi, yazmışdı, yazırdı, yazacaqdı	yazırmış, yazarmış yazacaq imiş,
	vacib	yazmalı idi, yazmalıydı	yazmalı imiş, yazmalıymış
	lazım	yazası idi, yazasıydı	yazası imiş, yazasıymış
	arzu	yaza idi, yazaydı	yaza imiş, yazaymış
	şərt	yazsa idi, yazsaydı	yazsa imiş, yazsaymış

1. Debat. *İdi, imiş* hissəcikləri
A) Əsas nitq hissəsidir.
B) Köməkçi nitq hissəsidir.

2. Nağıldan parçanı oxuyun. *İmiş* hissəciyi ilə işlənən fellərin altından bir, nəqli keçmiş zamanda olan fellərin altından iki xətt çəkin.

Biri var idi, biri yox idi, bir padşah var idi, ömründə öz sarayından başqa heç yerə çıxmamışdı. Bu padşah kitabların birində oxumuşdu ki, qədimlərdə bəzi padşahlar hərdənbir təğyiri-libas olub öz ölkəsini şəhər-bəşəhər, kəndbəkənd gəzərmiş, bazarlarda, dükanlarda adamlarla dərdləşərmiş, kasıb-kusub evinə gedib dərdlərini öyrənərmiş.

➢ Bir neçə rəvayət və əfsanəni nəzərdən keçirin. Bu əsərlərdə *"idi"*, yoxsa *"imiş"* hissəciyi ilə işlənən fellərin çoxluq təşkil etdiyini araşdırın. Bu hissəciklərin mənaları arasındakı fərqi izah etməyə çalışın. Şühudi və nəqli keçmiş zamanlar arasındakı fərqi xatırlayın.

YADDA SAXLA ***İdi, imiş* hissəcikləri və fel şəkilçiləri**

İdi, imiş **hissəcikləri şühudi keçmiş zamanda və əmr şəklində olan fellərə artırıla bilməz.**

İdi, imiş hissəciklərinin ixtisar formaları (*-dı⁴, -mış⁴*)	Oxşar cəhətlər	***-dı⁴*** şühudi keçmiş zaman ***-mış⁴*** nəqli keçmiş zaman şəkilçiləri
Fel şəkillərinin morfoloji əlamətlərindən (şəkilçilərindən) sonra artırılır: *yaz-ma-mış-dı-m, oxu-malı-y-dı-q, yaz-ır-mış-sınız*	1. Fonetik baxımdan eynidir. 2. Keçmiş zaman mənası bildirir. 3. Şəxs şəkilçisindən əvvəl işlənir.	Felin kökünə, başlanğıc formasına və ya inkar şəkilçisindən sonra artırılır. *yazıl-mış-ıq* *oxu-du-n* *yazış-ma-dı-lar*

İmiş **hissəciyinin ixtisar forması bəzən şəxs şəkilçisindən sonra da işlənə bilər:** ***alasıyıqmış, bilirsinizmiş.***

İdi **hissəciyi ilə işlənən fellərə fel şəkillərinin hekayəti,** ***imiş*** **hissəciyi ilə işlənən fellərə fel şəkillərinin rəvayəti deyilir.**

Mətnlə iş. "Manqurt" sözünün məcazi mənası haqqında nə deyə bilərsiniz? Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

MANQURT

Juanjuanlar əsir tutduqları düşmən əsgərlərlə çox amansız rəftar eləyirmişlər. İmkanları olanda, onlar əsiri qonşu ölkələrə qul satarmışlar. Bu, əsir üçün xoşbəxtlik hesab olunurmuş, çünki xilas olmağa ümid yeri qalırdı...

Juanjuanların özləri üçün qul saxladıqları əsirləri dəhşətli tale gözləyirdi. Onların başına dəvə dərisi keçirib, dözülməz işgəncə verərək yaddaşını tamam yox eləyirmişlər. Bu işi, adətən, davada əsir alınmış cavan döyüşçülərin başına gətirirmişlər. Əvvəlcə onların başını ülgüclə təmiz qırxırmışlar. Başı qırxıb qurtaranacan qəssablar qart bir dəvə kəsərmişlər. Dəvənin dərisini hissələrə bölüb, buğlana-buğlana başı qırxılmış əsirlərin başına *keçirərmişlər*. Dərinin çəkilməyi ilə qırxıq başa yapışmağı bir olurmuş.

Başına dəri geydirilmiş əsirin tükləri qalın dəvə dərisini deşə bilməyib içəriyə doğru uzanarmış və onun beynini zədələyib yaddaşını yox edərmiş. Bu cür əsirlər keçmişini unudar, heç vaxt ağasına qarşı çıxmazmış. Belə əsirlərə manqurt deyərmişlər.

(Ç.Aytmatovun "Əsrə bərabər gün" əsərindən)

➢ Hansı söz "manqurt" sözünün sinonimidir:
A) aciz, B) müti, C) unutqan, D) əsir, E) keçəl

➢ Mətndə *"imiş"* hissəciyi ilə işlənən fellərin altından bir xətt, keçmiş zaman mənalı feli sifətlərin altından iki xətt çəkin.

➢ Altından xətt çəkilmiş felin tərkib sxemi hansı variantda düz verilib?

A) ⌐¬ + ◠ + ∧ + ◠ + ◠
B) ⌐¬ + ∧ + ∧ + ◠ + ◠
C) ⌐¬ + ∧ + ◠ + ◠ + ◠

➢ *Keçirərmişlər* felinin şəkilçiləri ilə bağlı deyilənlərdən hansıları düzdür?

-ir[2]: A) İndiki zaman şəkilçisidir. B) Fel düzəldən şəkilçidir.

-ər[2]: A) Fel düzəldən şəkilçidir. B) Gələcək zaman şəkilçisidir.

-miş[4]: A) İmiş hissəciyinin ixtisar formasıdır. B) Nəqli keçmiş zaman şəkilçisidir.

-lər[2]: A) Cəm şəkilçisidir. B) Şəxs şəkilçisidir.

3. *Oxumalıyıqsa* sözündə felin hansı şəkillərinin əlamətləri var? Fel eyni zamanda iki fel şəklinin əlamətlərini daşıya bilərmi?

YADDA SAXLA *İsə* hissəciyi

Bir sıra fel şəkillərinə və başqa nitq hissələrinə *isə* (*-sa²*) hissəciyi də artırıla bilir: *alacaqsa, tapmalıdırsa, oxumuşsunuzsa, xəstədirsə, oğlandırsa, yaxındırsa, sizsinizsə, azdırsa.*

İdi, imiş köməkçi fellərinin və *isə* hissəciyinin işlənməsində bir sıra fərqli cəhətlər var.

İdi, imiş hissəcikləri	***isə*** hissəciyi
1. Keçmiş zaman mənası bildirir. 2. Şühudi keçmiş zamanda və əmr şəklində olan fellərə artırıla bilmir. 3. Şəxs şəkilçisindən əvvəl işlənir. 4. İsim, sifət, say, əvəzlik və bəzi zərflərlə birlikdə cümlənin ismi xəbəri olur: *həkim imiş, gözəl idi.*	1. Şərt mənası bildirir. 2. Felin əmr, arzu, şərt şəklinə artırıla bilmir. 3. Şəxs şəkilçisindən sonra artırılır. 4. Müstəqil cümlənin xəbəri ola bilmir.

İsə hissəciyi ilə işlənən fellərə fel şəkillərinin şərti də deyilir. Felin şəkillərinin şərtini felin şərt şəklindən fərqləndirmək lazımdır:

isə hissəciyinin ixtisar forması (-sa²)	Felin şərt şəkli (-sa²)
1. Felin xəbər, vacib, lazım şəkillərinə, hətta *idi, imiş* hissəciklərini qəbul etmiş sözlərə də artırmaq olar: *yazmalıdırsa, yazdırılmışdısa, gec idisə, alacaqsa.* 2. Şəxs şəkilçisindən sonra artırılır: *yaz-acağ-am-sa*	1. Felin kökünə və ya başlanğıc formasına artırılır: *yazsa, yazdırılsa.* 2. Şəxs şəkilçisindən əvvəl işlənir: *yaz-sa-m, oxu-sa-q*

4. Hansı sözləri həm felin şərt şəkli, həm də fel şəkillərinin şərti kimi qəbul etmək olar? Fikrinizi əsaslandırın.

a) bitirsə, b) gətirsə, c) qaçırsa, d) gedirsə, e) uçursa

➢ *-sa² hansı halda vurğu qəbul edir?*

A) felin şərt şəkli kimi işləndikdə

B) isə hissəciyinin ixtisar forması kimi işləndikdə.

13 Felin morfoloji təhlili

Fel bəhsi üzrə təkrar

1. *İşi bacarana gördürün* cümləsindəki fellərlə bağlı aşağıdakı suallara cavab verin.

- Başlanğıc forması _____
- Hansı suala cavab verir? _____
- Quruluşca hansı növə aiddir? _____
- Təsirli, yoxsa təsirsiz feldir? _____
- Təsdiq, yoxsa inkar feldir? _____
- Hansı məna növünə aiddir? _____
- Təsriflənən, yoxsa təsriflənməyən feldir? _____
- Felin hansı şəklindədir? _____
- Hansı zamana aiddir? _____
- Hansı şəxsə aiddir? _____
- Morfoloji tərkib sxemi _____
- Cümlədə rolu _____

2. Şəkilçilər felin kökünə hansı ardıcıllıqla artırılır?

A	B	C
1) fel düzəldən şəkilçi 2) inkar şəkilçisi 3) isə hissəciyi 4) fel şəklinin əlaməti 5) şəxs şəkilçisi 6) idi, imiş hissəciyinin ixtisar forması	1) fel düzəldən şəkilçi 2) inkar şəkilçisi 3) fel şəklinin əlaməti 4) idi, imiş hissəciyinin ixtisar forması 5) şəxs şəkilçisi 6) isə hissəciyi	1) isə hissəciyi 2) fel düzəldən şəkilçi 3) fel şəklinin əlaməti 4) inkar şəkilçisi 5) idi, imiş hissəciyinin ixtisar forması 6) şəxs şəkilçisi

3. "İş" sözünə aşağıdakı şəkilçiləri düzgün ardıcıllıqla artırdıqda hansı söz alınır?

1) inkar şəkilçisi, 2) icbar növ şəkilçisi, 3) isimdən fel düzəldən şəkilçi, 4) qeyri-qəti gələcək zaman şəkilçisi, 5) I şəxs cəm şəkilçisi, 6) *idi* hissəciyinin ixtisar forması.

- Anaqramı həll etməklə cavabınızı yoxlayın.

m	i	ş	t	ə	d	z	ə	l	k	i

4. Göstərilən şəkilçilərdən hansının leksik (L), hansının qrammatik (Q) şəkilçi olduğunu müvafiq xanada qeyd edin.

	L	Q
1) felin zaman şəkilçiləri	☐	☐
2) fel şəkillərinin xüsusi əlamətləri (şəkilçiləri)	☐	☐
3) isim, sifət, saydan fel düzəldən şəkilçilər	☐	☐
4) feldən fel düzəldən şəkilçilər	☐	☐
5) şəxs şəkilçiləri	☐	☐
6) felin qrammatik məna növlərinin şəkilçiləri	☐	☐
7) felin inkar şəkilçisi	☐	☐
8) felin təsriflənməyən formalarının şəkilçiləri	☐	☐
9) idi, imiş, isə hissəciklərinin ixtisar formaları	☐	☐

Mətnlə iş. *Sizcə, biliklə dərrakə arasında nə fərq var?*

İBN SİNANIN UŞAQLIĞI

İbn Sina uşaq olarkən onların qonşuluğunda Ömər adlı bir həmyaşıdı yaşayırmış. Onlar bir mədrəsədə oxuyurmuşlar. Ömərin ən çox işlətdiyi ifadə "Mənə ver", İbn Sinanınkı isə "Nə üçün?" imiş. Uşaqların əlinə pul düşəndə Ömər fındıq, İbn Sina isə kitab alırmış.

Bir dəfə müəllim sinifdə Ömərin atası ilə söhbət edərkən İbn Sinanı tərifləyib onu Ömərə nümunə göstərir. Ömərin atası etiraz edir: "Axı onlar eyni məktəbə, eyni müəllimin yanına gedirlər. Bu necə ola bilər?"

Müəllim ovcunu yumub Ömərə deyir:

– Oğlum, ovcumda iki buynuzu, bir quyruğu, dörd qıçı olan qara rəngli bir şey var. Tap görüm, ovcumdakı nədir?

Ömər bir az fikirləşib sevincək deyir:

– Tapdım, camışdır.

Müəllim Ömərin atasını kənara çəkib deyir:

– Görürsünüz, oğlunuzun az-çox savadı var, amma düşünmə qabiliyyəti, dərrakəsi yoxdur.

➢ *Altından xətt çəkilmiş sözü morfoloji təhlil edin.*

➢ *Mavi rənglə verilmiş sözlərdən hansı digərlərindən fərqlənir?*

➢ *Narıncı rənglə verilmiş sözlərdən hansı digərlərindən fərqlənir?*

➢ *Debat. "Fəhlələri işlətmək" və "ifadə işlətmək" birləşmələrindən hansında "işlətmək" feli icbar növdədir?*
A) "fəhlələri işlətmək" birləşməsində
B) heç birində

Mətnlə iş. Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

İBN SİNA VƏ BƏHMƏNYAR

Bir gün İbn Sina dəmirçixananın qabağından keçirmiş. Elə bu zaman bir uşaq yüyürə-yüyürə gəlib özünü çardağın altına salır, tövşüyə-tövşüyə dəmirçiyə deyir:

- Usta, anam deyir, ocağımız sönüb, köz versin.

Usta döşlüyü ilə üzünün tərini silib uşağın əlinə baxdı:

- Get, bir qab gətir, ovcunda aparmayacaqsan ki.

Uşaq ayaqlarını yerə döydü:

- Apararam, sən od verməkdə ol.

Usta uşağın üzünə baxıb başını buladı:

- Bala, yoxsa sənin əlin dəmirdəndir?

- Özüm bilərəm, sən közünü ver, neyləyirsən necə aparacağam?

Usta baxdı ki, bu tərs uşağı sözlə başa sala bilmir, maşa ilə kürədən qıpqırmızı bir köz götürdü, yönünü bəri çevirəndə gördü ki, uşaq yerdən ovcuna torpaq yığıb ona sarı uzadıb. Usta mat qaldı.

İbn Sinanı da heyrət götürdü, uşağın ağlına heyran qaldı. Adını soruşdu. Uşaq:

- Bəhmənyardır, - dedi.

Belə deyirlər ki, İbn Sina həmin gündən Bəhmənyarın valideynləri ilə danışıb təlim-tərbiyəsini öz üzərinə götürdü və onu bir alim kimi yetişdirməyə başladı. Deyilənə görə, Azərbaycan nağıllarından hamıya tanış olan loğman və onun şagirdinin prototipləri də məhz İbn Sina və Bəhmənyardır.

➢ Əvvəlki səhifədə verilmiş "İbn Sinanın uşaqlığı" mətnindəki Ömər obrazı ilə Bəhmənyar obrazını müqayisə edin.

➢ **Cütlüklərlə iş.** "İbn Sinanın uşaqlığı" və "İbn Sina və Bəhmənyar" mətnləri ilə bağlı hər cütlük bir sual hazırlamalıdır. Suallar səsləndikdən sonra ən maraqlı üç sualı seçin və onların cavablarını araşdırın.

➢ Mətnin ikinci cümləsində hərəkətin tərzini bildirən neçə feli bağlama var?

➢ Eyni rəngdə olan fellər arasında fərqlənəni göstərin.

➢ Altından xətt çəkilmiş sözlər arasındakı morfoloji fərqi göstərin.

5. Düşünün. Mahnıdan parçanı oxuyun. Sübut edin ki, *idi* köməkçi feli ismə artırıldıqda nitq hissəsi dəyişmir, *olmaq* köməkçi feli artırıldıqda isə tərkibi fel yaranır.

Qönçə idin, gül oldun, Leylam,
Boy atıb sünbül oldun, Leylam,
Bir dilbilməz quş idin, Leylam,
Oxuyub bülbül oldun, Leylam.

6. Düşünün. Şeir parçasında altından xətt çəkilmiş söz A) feli sifətdir, B) feli bağlamadır, C) nəqli keçmiş zamanda olan feldir.

Hərcayıdan, müxənnətdən, nakəsdən
Nə söz qaldı sənətkara <u>dəyməmiş</u>?!
(Aşıq Ələsgər)

7. Debat. Hansı söz "çək" felinin məchul növü ola bilər?
A) çəkilmək
B) çəkinmək

8. Aforizmləri oxuyun və suallara cavab verin.
A) Özünüzə inamınızı qırmaq istəyən adamlardan uzaq durun. (M.Tven)

B) Ruhdan düşüb ümidsizliyə qapılmaq ağıllı və müdrik adamlara yaraşmır. (D.Defo)

C) Heç kəsi bəyənməyən insan heç kəsin bəyənmədiyi insandan qat-qat bədbəxtdir. (F.Laroşfuko)

D) Cəsur olmaq qorxmamaq deyil, qorxunu büruzə verməməkdir.

E) Bilmək yaxşı, bildiyini tətbiq etmək ondan da yaxşıdır.

Hansı cümlədə (müvafiq cavabı dairəyə alın)

1. Məsdər tərkibi həm mübtəda, həm də xəbərdir?	A B C D E
2. Məsdər tərkibi feli sifət tərkibinə daxildir?	A B C D E
3. Feli sifət məsdər tərkibinə daxildir?	A B C D E
4. Feli bağlama tərkibi məsdər tərkibinə daxildir?	A B C D E
5. Eyni leksik mənalı iki müxtəlif feli sifət var?	A B C D E
6. Eyni leksik mənalı bir məsdər, bir feli sifət var?	A B C D E

9. *Tənbəl deyər: ver yeyim, ört yatım, gözlə canım çıxmasın* atalar sözündə əmr şəklində olan neçə fel var?

10. Şeiri oxuyun və tapşırıqları yerinə yetirin.

Dərdi söylə bilənlərə,
Dərd başına gələnlərə.
Hər üzünə gülənlərə
Etibar eyləmək olmur.

➢ Feli sifətlərin cümlədə rolunu müəyyənləşdirin.

➢ Hansı misrada tərkibi fel var?

➢ Hansı misrada frazeoloji birləşmə var?

➢ Şeirdəki feli sifətlərin tələffüz formasını dəftərinizdə yazın.

➢ Test Şeirin 2-ci misrası haqqında deyilənlərdən hansı doğrudur?
A) Bu misrada dərdli adamın başına yığışanlar, ona can yandıran adamlar nəzərdə tutulur.
B) "Başına" sözünün qəbul etdiyi mənsubiyyət şəkilçisi bu sözün "dərd" sözünə aid olduğunu göstərir.
C) Misrada sözlərin sırası qrammatik qaydalara uyğun deyil.

➢ Test. Şeirin 3-cü misrası haqqında deyilənlərdən hansı səhvdir?
A) "Üzünə" sözünün qəbul etdiyi mənsubiyyət şəkilçisi III şəxsin təkinə aiddir.
B) Qrammatik xətaya yol verilib: "hər" əvəzliyi ilə işlənən söz cəmdə ola bilməz.
C) "Üzünə" sözü mənsubiyyət və yönlük hal şəkilçisi qəbul edib.

11. Verilmiş şeirlə bağlı suallara cavab verin.

Su sərindir, keçilməz,
Bulanıqdır, içilməz.
Mənə deyən "yardan keç",
Yar şirindir, keçilməz.

➢ Şeirdə neçə fel və neçə xəbər var?

➢ Şeirdə qafiyə əmələ gətirən felləri morfoloji təhlil edin. "Keçilməz" sözünün leksik mənaları arasındakı fərqi izah edin.

➢ 3-cü misranı təşkil edən ifadənin sintaktik vəzifəsini təyin edin.

12. Şeiri oxuyun və tapşırıqları yerinə yetirin.

Kal qoşub kotan əkməyən,
Nanın süfrəyə tökməyən,
Arının qəhrin çəkməyən
Balın qədrini nə bilər?

**nan - çörək*
** qəhr - tabe etmək, məcbur etmək*

➢ Şeirdəki feli sifətlərin tələffüz formasını dəftərinizdə yazın.

➢ Feli sifətlərin cümlədə rolunu müəyyənləşdirin.

➢ Test. Şeirdəki feli sifətlərin sifətə oxşar hansı əlaməti özünü göstərir?

a) inkarda olması
b) təsirli olması
c) mübtəda olması
d) tərkib əmələ gətirməsi

13. Şeiri oxuyun və tapşırıqları yerinə yetirin.

Ayna tutub hərdən camal görməsi,
Zülfə, zənəxdana sığal verməsi,
Səhər ala gözün siyah sürməsi,
Altından cunası, hayıf ki, yoxdur. (M.P.Vaqif)

➢ "Siyah" sözünün sinonimini və antonimlərini müəyyənləşdirin. Onlardan hansılarının türk mənşəli, hansılarının alınma söz olduğunu əsaslandırın.

➢ Şeir bəndində qafiyə yaradan sözlərlə bağlı aşağıdakı cədvəli doldurun.

	nitq hissəsi	tərkib hissələri
görməsi		
verməsi		
sürməsi		

FEL BƏHSİ ÜZRƏ

ÖZÜNÜ YOXLA

1. "*Qaraldacağam*" felində neçə leksik şəkilçi var?

2. "Düzəltdik" feli hansı nitq hissəsindən düzəlmişdir?

3. İkivariantlı şəkilçilərin köməyi ilə hansı nitq hissələrindən fel düzəltmək mümkündür?

4. Nəyə görə "*azalmaq*" və "*azdırmaq*" eyniköklü sözlər sayıla bilməz?

5. Hansı fellər türk mənşəlidir: a) sadə, b) düzəltmə, c) mürəkkəb?

6. Tərkibi fellər hansı köməkçi sözlərin iştirakı ilə yaranır?

7. Mürəkkəb fellərin orfoqrafiyasında əsas xüsusiyyət nədən ibarətdir?

8. Frazeoloji fellər mürəkkəb fellərdən nə ilə fərqlənir?

9. "Bilmək" sözünün köməkçi və müstəqil fel kimi leksik mənalarında hansı fərq var?

10. Eyni felin təsdiq və inkar formalarını antonim sözlər hesab etmək olarmı? Cavabınızı əsaslandırın.

11. Felin inkar şəkilçisi kimi -ma^2 şəkilçisi
A) qrammatik şəkilçidir
B) leksik şəkilçidir

12. İsim və sifət düzəldən şəkilçi kimi-ma^2 şəkilçisi
A) vurğu qəbul edir
B) vurğu qəbul etmir

13. Felin hansı şəklinə artırılan şəxs şəkilçisi digər şəxs şəkilçilərindən fərqlidir?

14. Hansı fel düzəldən şəkilçilər təsirsiz fel yaradır?

15. Hansı fel düzəldən şəkilçilər təsirli fel yaradır?

16. Felin hansı qrammatik məna növləri var?

17. Felin hansı məna növünün xüsusi qrammatik şəkilçisi yoxdur?

18. -ıl[4], -ın[4] şəkilçilərinin köməyi ilə felin hansı məna növləri yaranır?

19. Felin qarşılıq və birgəlik növləri arasında hansı qrammatik və leksik məna fərqləri var?

20. Hansı qrammatik xüsusiyyətlər şəxssiz növ felləri məchul və qayıdış növlərdən fərqləndirir?

21. Bu xüsusiyyətlər felin hansı məna növünə aiddir:
1) Təsirli feldən düzəlmiş təsirli feldir
2) Hərəkətin iki subyekti olur.

22. *Məktublaşmaq* və *qarşılaşmaq* fellərindən hansı qarşılıq (birgəlik) məna növünə aid deyil? Səbəbini izah edin.

23. Zaman şəkilçiləri felin hansı şəklinin qrammatik əlaməti kimi çıxış edir?

24. Felin arzu, vacib, lazım, şərt şəkillərində hansı zaman anlayışı var?

25. Felin lazım şəklinin inkar forması necə yaranır?

26. Felin əmr və arzu şəklinin I şəxs cəmi
A) fonetik baxımdan eynidir
B) morfoloji baxımdan eynidir

27. Felin təsriflənən və təsriflənməyən formaları arasında hansı oxşar və fərqli cəhətlər var.

28. Məsdər feldən başqa hansı nitq hissəsinin qrammatik xüsusiyyətlərinə malikdir.

29. Feli sifətlə feldən düzəlmiş sifəti necə fərqləndirmək olar?

30. *İdi, imiş, isə* hissəcikləri felin hansı şəklinə artırıla bilməz?

FEL BƏHSİ ÜZRƏ

QİYMƏTLƏNDİRMƏ

1. Neçəsi təsirlidən düzələn təsirli feldir?
Təmizlətmək, ucuzlaşdırmaq, sildirilmək, güldürmək, açıqlamaq, soyuqlaşdırmaq
A) 1
B) 2
C) 3
D) 4
E) 5

2. Bu fellərdən birini işlənmə yerinə görə həm məchul, həm də qayıdış növ hesab etmək olar:
A) söyləndi
B) dilləndi
C) yoxlandı
D) işləndi
E) gücləndi

3. Hansı sözü həm cəmdə olan isim, həm də qeyri-qəti gələcək zamanda olan fel kimi götürmək olar?
A) inlər
B) ağlar
C) ürəklər
D) dinlər
E) oxşar

4. Hansı sözdə cəmi bir leksik şəkilçi var?
A) qorxuduldu
B) təmizlədi
C) yoxlanıldıq
D) qızardılar
E) soyuqlamışdı

5. Təsirsiz → təsirli → təsirsiz sxeminə uyğun gələn, kökü isim olan fel hansıdır?
A) yaxalan(maq)
B) uzaqlaşdırıl(maq)
C) azaltdır(maq)
D) yelləndiril(mək)
E) işıqlandırıl(maq)

6. *Onun lətifəsi çox **gülməli** idi. Sənin lətifən duzsuz olsa da, o, nəzakət xətrinə **gülməli** idi.*
İşarələnmiş sözlər haqqında düzgün fikir hansıdır?
A) Hər ikisi təsriflənən feldir.
B) Hər ikisi təsriflənməyən feldir.
C) Birincisi təsriflənməyən, ikincisi təsriflənən feldir.
D) Birincisi təsriflənən, ikincisi təsriflənməyən feldir.
E) Birincisi sifət, ikincisi feldir.

7. *Qaşların ülgücdür, gözlərin **almaz**,*
*Gedər bu gözəllik, sənə də **qalmaz**.*
İşarələnmiş sözlər haqqında düzgün fikir hansıdır?
A) Hər üçü xəbər vəzifəsində işlənmişdir.
B) Hər üçü feldir.
C) Üçü də qeyri-qəti gələcək zamandadır.
D) Üçü də qrammmatik şəkilçi qəbul etmişdir.
E) Biri təsdiqdə, ikisi inkardadır.

8. Cümlələrdən birində fərqləndirilmiş söz məsdərdir.
A) *Bölmə* əməlini hamı bacarmalıdır.
B) Yığılan pulları hələ *bölmə*.
C) Tülkünün ovu belə *bölməsi* şirin xoşuna gəldi.
D) Dərsliyin birinci *bölməsində* əvvəlki siniflərdə keçilmiş mövzular xatırlanır.
E) Birinci *bölmə* ön sıraya keçirildi.

9. Əlamətlərdən biri həm *idi, imiş*, həm də *isə* hissəciyinə aiddir:
A) Şərt şəklində olan fellərə artırıla bilməz.
B) Bu hissəciklə işlənən fellər müstəqil cümlənin xəbəri ola bilmir.
C) Şühudi keçmiş zamanda olan fellərə artırıla bilməz.
D) Əmr şəklində olan fellərə artırıla bilməz.
E) Arzu şəklində olan fellərə artırıla bilməz.

10. *Dur-ğuz(maq)* felindəki *–ğuz* şəkilçisi yaratdığı məna çalarına görə hansı şəkilçiyə yaxındır?
A) -ıl^4
B) –ın^4
C) –dır^4
D) -ış^4
E) -ır^4

14 Zərf haqqında ümumi məlumat

Hərəkətin əlaməti

Hazırlıq

➢ Aşağıdakı sözlərə ikinci tərəf artırmaqla söz birləşmələri düzəldin.

Nümunə: *cəsarətlə vuruşmaq*

axşam, cəsarətlə, yanaşı, hiyləgərcəsinə, qəsdən, qəflətən, gec, yavaş-yavaş, dalbadal

➢ Artırdığınız sözlətin hansı nitq hissəsi olduğunu müəyyənləşdirin.

➢ Həmin sözlərə başqa nitq hissələrinə aid sözlər artırmaq mümkündürmü?

➢ Bu söz birləşmələrinin ismi, yoxsa feli birləşmə olduğunu müəyyənləşdirin.

YADDA SAXLA Zərf nədir?

Hərəkətin icrasını müxtəlif cəhətdən izah edən sözlərə zərf deyilir. Zərfin sualları bunlardır: *necə? nə cür? nə vaxt? nə zaman? hara? haraya? harada? haradan? nə qədər? və s.* Zərflər daha çox felə aid olur və ondan əvvəl gəlir. Məsələn:

Zəng vurulanda uşaqlar sakitcə içəri keçdilər.

Gəzintidən axşam qayıtdıq.

Bu cümlələrdə *sakitcə* sözü *keçdilər* felinin tərzini, *içəri* sözü yerini, *axşam* sözü *qayıtdıq* felinin zamanını bildirir.

Zərflər həm təsriflənən, həm də təsriflənməyən fellərə aid olur. Məsələn:

Çox yaşayan çox bilməz, çox gəzən çox bilər.

Bəzən zərf başqa nitq hissələrinə, hətta zərfin özünə də aid ola bilər. Məsələn: 1. *İndi qışdır. 2. Dağlar həmişə gözəldir. 3. Hələ tezdir.* Birinci cümlədə zərf isma, ikincidə sifətə, üçüncüdə zərfə aiddir.

1. Mətndə altından xətt çəkilmiş zərflərin hansı sözlərlə bağlı olduğunu və hansı suala cavab verdiyini müəyyənləşdirin.

Yaz təzəcə girmişdi. Çənlibel yenə də gülə, nərgizə boyanmışdı. Bulaqlar qayır-qayır qaynayır, ürəklər oyur-oyur oynayırdı. Dəlilərin nərəsi yenə də Çənlibeli başına götürmüşdü.

Koroğlu Dəli Mehtəri götürüb atları, ilxıları yaxşıca gözdən keçirmişdi, Kosa Səfəri yanına alıb yağı qoruğunu xeyli gəzmişdi.Tanrıtanımazı çağırıb qaravulxanaları yaxşı-yaxşı yoxlamışdı. Dəli Həsən dəlilərin hamısını nizamla düzüb onun yanına gətirmişdi.

2. Aşağıdakı cümlələrdə zərfləri tapın və onların hansı nitq hissəsi ilə bağlı olduğunu deyin.

1. Həcər birdən-birə, elə bil, dəyişib başqa adam oldu, sapsarı saraldı. (Anar)

2. Feyzulla və Həcər matdım-matdım qaravulçuya baxdılar. (Anar)

3. Hələ Koroğlu sözünü qurtarmamışdı, bir də gördülər budu, bir atlı çaparaq sürüb çölə tərəf gedir.

4. Sabah Azərbaycan Dili və Əlifbası günüdür.

3. Verilmiş cümlələrdəki zərfləri tapın və onların hansı tərkibə daxil olduğunu müəyyənləşdirin.

A. Qabaq dinən bilsə ki, sonra dinən nə deyəcək, heç dinməz.

B. Ata bir anlığa susdu, handan-hana başını qaldırıb qəmli-qəmli oğluna baxdı.

C. Vətən uğrunda qəhrəmancasına şəhid olmaq əsgər üçün şərəfdir.

D. Yenə öz sürünü nizamla düzüb
Baş alıb gedirsən hayana, ceyran? (S.Vurğun)

E. Çoxdan görə bilmədiyim dostlar bu gün yenə də mənimlədirlər.

Ə. Təqvim özü də son payız çağında üşüm-üşüm üşüyən ağacdır, gündə bir sarı yarpaq salır.

Məsdər tərkibi	A	B	C	D	E	Ə
Feli sifət tərkibi	A	B	C	D	E	Ə
Feli bağlama tərkibi	A	B	C	D	E	Ə

15 Zərfin quruluşca növləri

Sadə, düzəltmə, mürəkkəb zərflər

Hazırlıq

Verilmiş zərfləri kök və şəkilçiyə ayırın. Sözün kökünün hansı nitq hissəsinə aid olduğunu göstərin.

astaca, qəhrəmancasına, dahiyanə, qəflətən, ustalıqla

➢ Həmin şəkilçiləri müvafiq olaraq aşağıdakı sözlərə artırın.

ehmal___, kobud___, şair___, qəsd___, heyranlıq___

YADDA SAXLA Sadə və düzəltmə zərflər

Digər əsas nitq hissələri kimi, zərflər də quruluşca üç cür olur: sadə, düzəltmə və mürəkkəb zərflər.

Sadə zərflər yalnız bir kökdən ibarət olur. Məsələn: *axşam, indi, cəld, yuxarı, az, əvvəl* və s.

Düzəltmə zərflər kökdən və leksik (sözdüzəldici) şəkilçidən ibarət olur. Zərf düzəldən şəkilçilər aşağıdakılardır:

-ca[2]: *türkcə* (danışmaq);

-casına[2]: *xaincəsinə* (hərəkət etmək), *qəhrəmancasına* (döyüşmək), *hiyləgərcəsinə* (baxmaq);

-yana, -yanə, -anə: *zarafatyana* (söyləmək), *dahiyanə* (düşünmək), *şairanə* (görünmək);

-dan[2]: *çoxdan* (gözləmək), *ucadan* (danışmaq), *bərkdən* (qışqırmaq), *yenidən* (gəlmək), *ürəkdən* (bəyənmək);

-ən: *daxilən* (saflaşmaq), *qəflətən* (partlamaq);

-la[2]: *namusla* (yaşamaq), *cəsarətlə* (döyüşmək);

-akı[2]: *yanakı* (baxmaq), *çəpəki* (dayanmaq);

-da[2]: *gündə* (baş çəkmək), *birlikdə* (getmək);

-lıq[4]: *həmişəlik* (bağışlamaq), *hələlik* (gözləmək);

-araq[2]: *çaparáq* (yetmək), *qaçaráq* (gəlmək).

Qeyd: *-la*[2] şəkilçisi [-nan[2]] kimi tələffüz edilir: *inadla* [inadnan], *həvəslə* [həvəsnən]. Bu şəkilçi, əsasən, mücərrəd isimlərə artırıldıqda zərf düzəldir.

1. Yuxarıda verilmiş nümunələrə əsaslanaraq, zərf düzəldən şəkilçilərdən hansıların a) vurğu qəbul etmədiyini, b) alınma olduğunu, c) omonim şəkilçi kimi işləndiyini, ç) məhsuldar və ya qeyri-məhsuldar olduğunu müəyyənləşdirin.

2. Sizcə, nəyə görə *qaçaraq*, *çaparaq* zərflərinin vurğusu xüsusi qeyd olunub? Bu sözlərdə vurğu ikinci hecaya düşsə, onları hansı nitq hissəsinə aid etmək olar? Bu sözləri omonim hesab etmək olarmı?

3. Nümunədəki *-da²*, *-dan²* şəkilçiləri ilə düzələn zərflərə diqqət yetirin. Bu sözlərin hansı nitq hissələrinə aid olduğunu deyin.
1. Ədədləri çoxdan aza doğru düzün.
2. Biz onu çoxdan gözləyirik.
3. Güc birlikdədir.
4. Biz birlikdə hərəkət etsək, heç kim mane ola bilməz.

4. Debat. Deyilənlərə münasibətinizi bildirin.
A) Zərf düzəldən *-da²*, *-dan²* şəkilçiləri ismin yerlik və çıxışlıq hal şəkilçiləridir.
B) Zərf düzəldən *-da²*, *-dan²* şəkilçiləri omonim şəkilçilərdir.

5. Altından xətt çəkilmiş sözlərə diqqət yetirin və tapşırıqları yerinə yetirin.

Qırat Alapaçanın səsini eşitcək dayandı.

Siqnal səsi eşidilcək hamı yerindən tərpəndi.

Kəndə getdim, bir ağbirçək
Qucaqladı məni görcək. (S.V.)

Leyla anasının yanına qaçaraq sevincək dilləndi.

➢ Test. *-caq²* şəkilçisi ilə düzələn sözlər feli bağlamanın hansı xüsusiyyətlərinə malik deyil?
1. Hərəkət mənası bildirir. 2. Təsirli və təsirsiz olur. 3. Təsdiq və inkarda olur. 4. Felin qrammatik məna növlərindən birində olur. 5. Ətrafına söz toplayaraq feli bağlama tərkibi yaradır. 6. Əsas fellə ifadə olunan hərəkətin tərzini, zamanını bildirir.
A) 2, 4 B) 3, 5 C) 1, 4, 5, D) 3 E) 5

➢ Debat. Deyilənlərə münasibətinizi bildirin.
A) *-caq²* şəkilçisi ilə düzələn sözlər feli bağlamadır.
B) *-caq²* şəkilçisi ilə düzələn sözlər zərfdir.

6. Zərfləri tapın və tərkibinə görə təhlil edin. Düzəltmə zərflərin hansı nitq hissələrindən yarandığını göstərin.

1. İkisi də kirimişcə sürünü bərədən aşırdı.
2. Ərəb Reyhan keçidi kəsib rahatca oturmuşdu.
3. Nigar xanım gözlərini bir dəfə qıyqacı süzdürüb Koroğluya baxdı.
4. Onlar yanaşı dayananda əkiz bacıya oxşayırdılar.
5. Nadir hövlnak ayağa qalxıb tələşlə dostuna baxdı.
6. Bədahətən şeir demək xüsusi istedaddır.
7. Ətrafdakılara ötəri nəzər salaraq danışmağa başladı.
8. Azərbaycanda min illərdir bir çox millətlər birgə yaşayırlar.

➢ Cümlələrdə rast gəldiyiniz zərf düzəldən hansı şəkilçilər 76-cı səhifədə verimiş nümunələr arasında yoxdur?

➢ *Kirimişcə* (getmək), *ehmalca* (tərpətmək) sözləri ilə *yaşca* (kiçik), *boyca* (hündür) sözlərini müqayisə edin. Bu sözlərdə *-ca²* şəkilçisinin qrammatik funksiyaları arasındakı fərqi izah edin.

➢ *İçəri* və *ötəri* sözlərinin quruluşca sadə, yoxsa düzəltmə olduğunu müəyyən edin.

Diqqət!

Zərf düzəldən şəkilçilərin digər oxşar şəkilçilərdən fərqləndirilməsi

-la² zərf düzəldən şəkilçi *namusla, həvəslə* *necə?* sualına cavab verir.	-la² ***ilə*** köməkçi sözünün ixtisarı *qələmlə, maşınla* *nə ilə?* sualına cavab verir.
-da², -dan² zərf düzəldən şəkilçi *birlikdə, ucadan* *necə?* sualına cavab verir.	-da², -dan² yerlik və çıxışlıq hal şəkilçiləri *evdə, sinifdən* *harada? haradan?* suallarına cavab verir.
-ca² ədatı zərfə artırılır: *astaca, sakitcə* felə aid olur.	-ca² ədatı sifətə artırılaraq çoxaltma dərəcəsi yaradır: *zorbaca, körpəcə* İsmə aid olur.

Diqqət!

Sifət düzəldən *-lı*[4], *-sız*[4] şəkilçiləri ilə düzəlmiş sözlər zərf məqamında da işlənə bilir: *Paltarı sulu sərmə. Xörəyi dadsız bişiribsən* cümlələrində *sulu* və *dadsız* sözləri felə aiddir və sintaktik baxımdan zərflik rolunda çıxış edir. Lakin morfoloji baxımdan belə sözlər sifət olaraq qalır.

7. Zərfləri və zərf məqamında işlənən sözləri göstərin.

Bu qala daşlı qala,
Çınqıllı, daşlı qala,
Qorxuram qərib öləm,
Yar gözü yaşlı qala.

Saçın ucun hörməzlər,
Gülü qönçə dərməzlər.

Mən aşiq, gündə dara,
Zülfünü gündə dara.
Səndən əlim üzmərəm,
Çəksələr gündə dara.

Bağa girmərəm sənsiz,
Gülü dərmərəm sənsiz.

YADDA SAXLA Mürəkkəb zərflər

Digər mürəkkəb sözlər kimi mürəkkəb zərflər də iki sözün birləşməsindən əmələ gəlir, bitişik və ya defislə yazılır. Mürəkkəb zərflər, əsasən, aşağıdakı yollarla yaranır:

Bitişik yazılan mürəkkəb zərflər:

1. Müxtəlif leksik mənalı sözlərin birləşməsi ilə: *gözucu, arabir, birbaşa, üzüyuxarı, addımbaşı, atüstü, gözaltı;*

2. *-ba*[2] bitişdiricili sözlərin təkrarı ilə: *saatbasaat, günbəgün, ilbəil, üzbəüz, yanbayan, dalbadal, sözbəsöz;*

Defislə yazılan mürəkkəb zərflər:

3. Eyni sözün təkrarı ilə: *asta-asta, az-az, tez-tez, ağır-ağır, mat-mat, bərk-bərk, sakit-sakit, altdan-altdan;*

4. Bir və ya hər iki tərəfi şəkilçi qəbul etmiş sözlərin təkrarı ilə: *yan-yana, birdən-birə, ildən-ilə, günü-gündən;*

5. Əks və ya yaxın mənalı sözlərin birləşməsi ilə: *gecə-gündüz, gec-tez, əvvəl-axır, irəli-geri, ara-sıra, az-çox;*

6. Yonlük hal şəkilçisi qəbul etmiş *bir* sayına digər miqdar saylarının artırılması ilə: *birə-iki, birə-beş, birə-on;*

7. Tərəflərindən biri və ya hər ikisi ayrılıqda işlənə bilməyən sözlərin iştirakı ilə: *az-maz, dizin-dizin, için-için.*

Diqqət!

a) *Növbənöv, rəngbərəng, cürbəcür* kimi sözlər zərf yox, sifətdir: *Süfrəyə növbənöv xörəklər düzülmüşdü. Bağçada rəngbərəng güllər açılır.*

b) *a, ha* bitişdiricili sözlərin təkrarından yaranan mürəkkəb sözlər isimdir: *qaçaqaç, qovhaqov, vurhavur.*

8. Sol sütunda verilmiş sözləri sağ sütundakı müvafiq sözlərlə birləşdirərək yeni sözlər yaradın.

göz	*birə*
asta	*beş*
birdən	*koranə*
kor	*ucu*
birə	*asta*

➢ Bu sözlərin quruluşca növünü, hansı nitq hissəsinə aid olduğunu, birgə, yoxsa defislə yazıldığını müəyyənləşdirin.

9. Aşağıdakı cümlələrdə mürəkkəb zərfləri tapın və onların yazılışında buraxılmış səhvləri düzəldin.

2. Gəlsin, dinməz söyləməz kağızları versin. (Anar)
3. Məcidin gözlərində cinlər oynadı, bic, bic gülümsündü. (Anar)
4. Eldar başını süfrədən qaldırıb dalğın dalğın uzaqlara baxdı. (Anar)
7. Beləcə laldinməz addımlayaraq metro stansiyasına çatdılar. (Anar)
8. Kəndlilər zorgüc heyvanları itlərin pəncəsindən qurtara bildilər. (A.Ş.)
10. Koroğlu bir baş gəldi dükanın qabağına.
11. Bir fincan çay içər, içməz pilləkənləri başıaşağı endim.
12. Bütün yayı yazıq Düyməcik böyük meşənin içində təktənha yaşadı.

10. Bayatılardakı zərflərin quruluşca hansı növə aid olduğunu göstərin.

A	B	C
Eləmi, qandı ürək, Nə dedim, qandı ürək. Göz-gözə baxmaq ilə Alışıb yandı ürək.	Əziziyəm, tər sinə, Düzü nədir, tərsi nə? Namərd bələdçi olsa, Yol göstərər tərsinə.	Əziziyəm, can qoydum, Araxçını yan qoydum, Vətənə kəc baxanın Ürəyinə qan qoydum.

Sadə zərf ___ *Düzəltmə zərf* ___ *Mürəkkəb zərf* ____

Tərzi-hərəkət, zaman, yer, kəmiyyət zərfləri

Hazırlıq

Cümlələri oxuyun, zərflərin altından xətt çəkin.

A. Bir xeyli getmişdilər ki, Rövşən Qıratın başını çəkdi.

B. Sahil güclə görünürdü.

C. Uzaqdan bir qaraltı gəlirdi.

D. Dan yeri yenicə ağarmağa başlamışdı.

Hansı zərf

1. Hərəkətin necə icra olunduğunu bildirir?	A	B	C	D
2. Hərəkətin nə zaman icra olunduğunu bildirir?	A	B	C	D
3. Hərəkətin harada icra olunduğunu bildirir?	A	B	C	D
4. Hərəkətin kəmiyyətini bildirir?	A	B	C	D

YADDA SAXLA **Tərz, zaman, yer, kəmiyyət**

Hərəkəti hansı cəhətdən izah etməsindən asılı olaraq zərflər müxtəlif məna növlərinə bölünür:

Tərzi-hərəkət zərfləri hərəkətin hansı tərzdə, necə vəziyyətdə icra olunduğunu bildirir, *necə?, nə cür?* suallarından birinə cavab verir: *xəfifcə, təəccüblə.*

Zaman zərfləri hərəkətin icra olunduğu zamanı bildirir, *nə vaxt?, nə zaman?, haçan?* suallarına cavab verir: *indi, hələ, yenə, bayaq, bildir, dünən, srağagün, səhər, gecə, gündüz, axşam-səhər, həmişə, tez, gec-tez, əvvəl, sonra.*

Yer zərfləri hərəkətin icra olunduğu yeri bildirir, *hara? haraya? harada? haradan?* suallarına cavab verir: *irəli, geri, içəri, aşağı. yuxarı, ora, bura, sağa, sola, sağa-sola, ora-bura, irəli-geri, üzüaşağı, üzüyuxarı.*

Kəmiyyət (miqdar) zərfləri hərəkətin miqdarını bildirir, *nə qədər?* sualına cavab verir: *az, çox, xeyli, azca, azacıq, qismən, az-maz, az-çox, birə-beş.*

1. Zərfləri tapın və onların hansı suala cavab verdiyini göstərin.

Göy göllərdə üzər qazlar,
Laçın vurub tükün tozlar.
Dəstə-dəstə gəlir qızlar.
Gəlir nazlana-nazlana.

Dolayı gəl, dolayı,
Həsiri basma, dolan gəl.
Süpürmüşəm sarayı,
Həsiri basma, dolan gəl.

Dağlarda ceyran gəzər,
Əl-ayağın daş əzər.
Mən yara neyləmişəm,
Yar məndən kənar gəzər.

Dağları en piyada,
Yolu kəsmə piyada.
Gedirəm haqqa çatam,
O atlı, mən piyada.

2. Cümlələrdəki zərfləri tapın və onların hansı məna növünə aid olduğunu müvafiq cümlənin qarşısında yazın.

1. Şimal tərəfdən qəflətən güclü külək başladı.

2. Düyməcik yaşıl yarpağın üstündə tək oturub acı-acı ağlayırdı.

3. Qaranquşlar alçaqdan uçaraq ora-bura vurnuxurdular.

4. Hər kəsin dediyinə kor-koranə inanmaq cahillikdir.

5. Kəndə çatmağa azca qalmış maşınımızın yanacağı qurtardı.

6. *Anaya şad xəbərlər gətirmişdi vaxtilə,*
İndi kağız almayan ana gələrək dilə
Söylədi poçtalyona bir neçə acı kəlmə. (S.R.)

7. Analığı gördü ki, Fatma inəyi otarmağa apardıqca gündən-günə yaxşılaşır.

8. İdmançılarımız qarşılarına qoyduqları məqsədə qismən nail oldular.

3. Dördündən biri fərqlidir.

1. A) bayaq, B) bəri, C) axşam, D) hərdər
2. A) cəld, B) zahirən, C) tez-tez, D) az-az
3. A) ötəri, B) içəri, C) geri, D) irəli
4. A) ruhən, B) qismən, C) qəflətən, D) daxilən
5. A) ucadan, B) bərkdən, C) çoxdan, D) birdən
6. A) birə-beş, B) azdan-çoxdan, C) gec-tez, D) ara-sıra
7. A) azca, B) bəzən, C) daim, D) arabir
8. A) tez, B) gec-tez, C) hərdən, D) tez-tez

Mətnlə iş. Mətndə göy rənglə verilmiş zərflərdən hansı məna növünə görə digərlərindən fərqlidir.

QULAQ DƏRMANI

Bir gün Molla eşidir ki, şəhərin hakimi azarlayıb. Ağacdan bir neçə alma dərib hakimi yoluxmağa gedir. Hakim deyir:

- Molla, birdən-birə dişim də başladı ağrımağa, qulağım da... Daha mənə bir əzab verdilər ki, gəl görəsən. Dünən bir yaxşı dəllək tapıb dişimi çəkdirdim. İndi onun ağrısı qurtarıb. Amma bu zəhrimar qulağım hələ də ağrıyır. Bircə həkim də tapılsaydı...

Molla dərhal onun sözünü kəsib deyir:

- Hə... hə... Bircə halal süd əmmiş adam tapılıb, sənin o qulağını da çəksəydi, sən də rahatlanardın, əhali də.

4. Mahnıda işlənmiş zərfləri göstərin.

Asta yeri, kəmər düşər belindən,
Nə eşitdin mən yazığın dilindən?
Ayrı düşdüm sevgilimdən, gülümdən,
Yanıram, a ceyran, a ceyran bala.

➢ Debat. Mahnıda zərfin hansı məna növləri işlənmişdir?

A) iki tərzi-hərəkət zərfi

B) bir tərzi-hərəkət və bir yer zərfi

5. Verilmiş mətndə zərfin hansı məna növü işlənməyib?

Sən əvvəlcə qara suya girib çimərsən, sonra ağ su ilə başını yuyub, bir az da qaşına, kirpiyinə, qırmızı sudan da alnına sürtərsən. Sonra xəlvətcə bütün sümükləri torbaya yığıb gətirərsən mənim yanıma. Qorxma, qardaşın indi də xoruz cildinə düşəcək.

6. Verilmiş cümlələrdə zərfi əvəz etmiş əvəzlikləri tapıb altından xətt çəkin.

1. Amma iş elə gətirdi ki, suvaqçı Məmmədlə zavmaq Qasım üzüzə gəldilər, göz-gözə dayandılar. (E.M.)

2. Mən sakitcə dayanıb söhbətin necə qurtaracağını gözləyirdim.

3. Onun belə danışmağı ətrafdakılarda şübhə doğururdu.

4. Get, xoş gəldin, səfa gəldin,
Qayıdacan haçan, durna?

YADDA SAXLA Tərzi-hərəkət zərfləri və sifətlər

Tərzi-hərəkət zərflərinin çoxu sifətə oxşayır. Onları fərqləndirmək üçün bir sıra qaydalar mövcuddur:

1. Sifət əşya bildirən sözlərə — isimlərə, zərflər isə hərəkət bildirən sözlərə — fellərə aid olur: *gözəl mənzərə (sifət), gözəl oxumaq (zərf).*

2. Sifət *necə?, nə cür?* suallarından başqa *hansı?* sualına da cavab verir, zərf isə bu suala cavab vermir: *açıq (necə? hansı?) qapı, açıq (necə?) danışmaq.*

Yaxşı, pis, iti, açıq, gözəl, cəld və bu kimi bir sıra başqa sözlər həm sifət, hə də tərzi-hərəkət zərfi ola bilir.

7. Eyni sözlərdən hansının zərf, hansının sifət olduğunu müəyyənləşdirin.

1. Yaxşı müəlliflərin əsərlərini oxuya-oxuya yaxşı danışmağı öyrənirik. 2. Ordumuzda möhkəm intizam yaratmalı, sərhədlərimizin keşiyində möhkəm dayanmalıyıq. 3. Pis adam başqaları haqqında pis danışar. 4. Həmişə doğru danış, yalan danışsan, doğru sözünə də inanmazlar.

8. Birinci misradakı altından xətt çəkilmiş sözlər hansı nitq hissəsinə aiddir? Fikrinizi əsaslandırın.

Qoy uzansın gecə, geciksin səhər,
Yuxuya getməsin məclisdəkilər. (S.Vurğun)

YADDA SAXLA Zaman zərfləri və zaman mənalı isimlər

Dilimizdə zaman vahidi bildirən bir çox isimlər var: *gün, dəqiqə, həftə, il, əsr, yaz, qış, may, avqust və s.* Belə isimlər başqa sözlərə qoşularaq və ya şəkilçi qəbul edərək hərəkətin zamanını bildirir və cümlədə zərflik rolunda çıxış edir: *Bu il havalar isti olacaq. Mayda bağa köçəcəyik.*

Səhər, günorta, axşam, gecə, gündüz sözləri isə yerinə görə həm isim (əşyaya aid olduqda), həm də zərf (hərəkətə aid olduqda) kimi işlənə bilər: *İsti olduğundan gecəni gözləməli oldular* (isim). *Gecə yollarına davam etdilər* (zərf).

9. Cümlələrdə altından xətt çəkilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu müvafiq xanada qeyd edin.

	Z	İ
1. *Martın iyirmi birində gecə ilə gündüz bərabərləşir.*	☐	☐
2. *Hava isti idi deyə gecə yollarına davam etdilər.*	☐	☐
3. *Həmin gün məktəbimizdə şeir müsabiqəsi keçirilirdi.*	☐	☐
4. *Gecənin xeyrindən gündüzün şəri yaxşıdır.*	☐	☐
5. *N.Gəncəvi on ikinci əsrdə yaşamışdır.*	☐	☐
6. *Hörümçəklər gecə-gündüz toxuyurdular.*	☐	☐
7. *Köstəbək hər axşam onlara qonaq gəlirdi.*	☐	☐

YADDA SAXLA Yer zərfləri və məkan mənalı isimlər

Yer zərfləri ilə məkan mənalı isimləri qarışdırmaq olmaz.

Yer zərflərinin mənasında nisbilik var. *İrəli, geri, aşağı, yuxarı, sağa, sola* və digər yer zərflərində məkan anlayışı müəyyən bir istinad nöqtəsinə görə müəyyən olunur və bu nöqtə dəyişdikdə həmin yer anlayışı da dəyişir.

Yer-məkan mənalı isimlərdə isə konkretlik, sabitlik mövcuddur. Məsələn, *kənd, dağ, Gəncə* isimlərindəki məkan mənası sabitdir, yəni danışanın hansı nöqtədə durmasından asılı olmayaraq bu anlayışlar dəyişməz olaraq qalır.

10. Cümlələrdəki yer zərflərini tapıb altından xətt çəkin.

1. Dönüb geri baxanda gördü ki, bir dəstə kəhər atlı ildırım kimi gəlir.

2. Burda mənəm, Bağdadda kor xəlifə.

3. Amma Yasəməni sel götürüb üzüaşağı axıtdı. (S.S.A.)

4. Bunu deyib Hüsniyyə bayıra çıxdı və bir azdan sonra Yusif başqa qaraçılarla bərabər içəri girdi. (S.S.A.)

YADDA SAXLA **Miqdar zərfləri və saylar**

Az, çox, xeyli sözləri əşyaya aid olduqda qeyri-müəyyən miqdar sayı, hərəkətə aid olduqda kəmiyyət zərfi olur.

Az, xeyli, bəzən də *qədər* sözü *bir* sayına qoşularaq hərəkətin miqdarını bildirdikdə miqdar zərfi sayılır.

11. *Az* sözü hansı misrada miqdar zərfidir?

Çalış çox danışma, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin. (N.Gəncəvi)

12. *Çox* sözü hansı misrada miqdar zərfidir?

1. Çox qarışqa bir şiri öldürər.

2. Çox bilsən də, az danış.

13. Altından xətt çəkilmiş sözün hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

Mələklərmi dərmiş, göydən gətirmiş
Heyif ki, dərmişlər az bənövşəni. (Qurbani)

14. Miqdar zərflərinin altından bir, qeyri-müəyyən miqdar saylarının altından iki xətt çəkin.

1. Nahardan sonra uzanıb bir qədər dincəldilər.

2. Az getdilər, çox getdilər, axırda gəlib Həsən xanın imarətinə çatdılar.

3. Çox keçmişəm bu dağlardan,
Durna gözlü bulaqlardan. (S.Vurğun)

4. Azacıq aşım, ağrımaz başım.

5. Yolun kənarındakı çinar ağacının kölgəsində xeyli gözlədilər.

YADDA SAXLA Zərf və feli bağlama

Zərf kimi feli bağlama da hərəkəti müxtəlif cəhətdən izah edir, tərzi-hərəkət və zaman zərflərinin suallarına cavab verir. Lakin bu nitq hissələrini fərqləndirən bir sıra əlamətlər var.

Feli bağlama fellərə müəyyən şəkilçilər artırmaqla düzəlir və felə aid bir sıra xüsusiyyətlərə malik olur: hərəkət mənası bildirir, təsdiq və inkarda olur və s. Zərflər bu xüsusiyyətlərə malik olmur. Dilimizdə feldən düzəlmiş zərf çox azdır: *qaçaraq, çaparaq, get-gedə, dabanbasma.*

15. Aşağıdakı mətnlərdə feli bağlamaları və zərfləri tapıb müqayisə edin.

1. Bayaq Əzrayıl pəncəsindən qurtarmış kimi quyruqlarını yanına qısıb bağıra-bağıra qaçan itlər indi bu heyvancığazlara qarşı aslan kəsilərək, dörd yandan hücum etmək istəyirdilər. (*A.Şaiq*)

2. Axşama bir saat qalmış yolçular gəlib şəhərə çıxdılar və gecə orada qalıb səhər yola rəvan oldular. (*S.S.Axundov*)

3. Aman qalxdı, qaça-qaça özünü Ellaya yetirdi. Əl-ələ tutdular. Yüz il bundan qabağın güllü-çiçəkli bir yamacında oturdular. Ella dizin-dizin gələrək Amanın qarşısında durdu, titrəyə-titrəyə öz dilində nəsə dedi. Bu səs, elə bil, birdən-birə dil açmış bir çiçəyin səsiydi. Ella əlləriylə üzünü qapadı. Astaca-astaca çiyinləri tərpəndi. Onun səsi çıxmırdı, əsə-əsə ağlayırdı. Qalxıb elə üzündən süzülən göz yaşları kimi səssizcə uzaqlaşdı. (*M.Süleymanlı*)

16. Mətndəki zərfləri tapıb altından xətt çəkin. Eyni rəngdə verilmiş sözlər arasındakı fərqi izah edin.

Budur, Aslan yavaş-yavaş ora gedir ki, nə olduğunu görsün. Burada bir nəfər hacı ticarətdən gəlib vaqondan düşmüş, səhər erkən faytonla gələrkən faytonun çarxı yolda sınıb, Hacı piyada qalmışdı. İki böyük çamadanı əlinə götürüb gedirdi. Aslan utandığından yavaşca Hacıya baxaraq, kamal-ədəblə dedi:

- Hacı əmi, ver, birini mən aparım.

Hacı həyətdə olan kiçik daxmanı Aslana verdi ki, orada o, öz qardaş və bacısını sakin eləsin. (*C.Cabbarlı*)

17 Zərfin cümlədə rolu və morfoloji təhlil qaydası

Hazırlıq

Altından xətt çəkilmiş zərflərin hansı cümlə üzvü olduğunu müəyyənləşdirin.

Ağac bar verəndə başını aşağı dikər.
Uzaq qohumdan yaxın qonşu yaxşıdır.
Daha gözəl günlərimiz irəlidədir.
İçəri şox istidir.
Dünəni unutsaq, sabahı görə bilmərik.

YADDA SAXLA Zərfin cümlədə rolu

Zərflər cümlədə, əsasən, xəbərlə bağlı olur və zərflik vəzifəsində çıxış edir: *Özgə atına minən tez düşər.*

Yer zərflərinin bəziləri cümlədə təyin kimi də işlənə bilir: *Yuxarı evə baxıb aşağı evi yıxma.*

Zərflərin bir çoxu ismin xəbərlik şəkilçilərini qəbul edərək ismi xəbər olur: *Sumqayıt Bakıya yaxındır.*

Zərflərin mübtəda vəzifəsində işlənməsi də mümkündür: *Ora hələ təmizlənməyib.*

Yer və bəzi zaman zərfləri isimlərə məxsus qrammatik şəkilçilərlə, xüsusilə hal şəkilçiləri ilə işlənə bildiklərindən tamamlıq vəzifəsində də işlənə bilir: *Uşaqlar yuxarını yoxladılar.*

1. Zərfləri tapın və hansı cümlə üzvü olduğunu müəyyənləşdirin.

1. Qoyunlar birdın-birə döndülər, quyruqlarını ata-ata, mələşə-mələşə təpəni başıyuxarı dırmandılar. (*A.Şaiq*)

2. Maralın bir budunu mağaranın ağzına gətirib yavaşca içəri itələdim. (*A.Şaiq*)

3. Obanı yenə də həzin bir sükut almış, yalnız ara-sıra çobanların səsi, itlərin hürüşməsi, uşaqların bağırtısı eşidilirdi. (*A.Şaiq*)

4. Dərhal yerimdən dimdik qalxdım. (*A.Şaiq*)

2. "Koroğlu" dastanından aşağıdakı parçanı oxuyun. "Bura" sözünün müxtəlif cümlələrdəki sintaktik vəzifəsini araşdırın.

- Oğul, mənim axtardığım yer elə buradır. Mən buranı çox yaxşı tanıyıram. Cavan vaxtlarda burada çox at oynatmışam, çox ceyranlara ox atmışam, çox cüyürlər ovlamışam. Bura mənim köhnə oylağımdır. Buraya Çənlibel deyərlər. Biz burada yurd salmalıyıq. İndi özümüzə bir olacaq, atlarımıza da bir tövlə tik.

➢ *Bu sözlərin kimə məxsus olduğunu və kimə ünvanlandığını deyin.*

➢ Debat. *Mətndə altından xətt çəkilmiş söz*
A) qeyri-müəyyən miqdar sayıdır
B) kəmiyyət zərfidir
Fikrinizi əsaslandırın.

Diqqət!

Zərf hərəkətlə bağlı nitq hissəsi olduğundan felin təsriflənməyən formalarının əmələ gətirdiyi tərkibə də daxil ola bilər. Bu zaman o, ayrılıqda deyil, həmin tərkib daxilində cümlə üzvü olur: *Anasından ayrı düşən quzunu qurd yeyər.*

3. Zərfləri tapın və daxil olduğu tərkibin hansı cümlə üzvü olduğunu müəyyənləşdirin.

1. Zorla qoyuna gedən köpəyin sürüyə nə faydası?
2. İnsan öz məqsədini aydın təsəvvür etməyəndə onun uğrunda var gücü ilə mübarizə aparmır.
3. Təhlükənin üzünə cəsarətlə baxmaq özünü ondan xilas etməyin ən yaxşı vasitəsidir.
4. İnsanlar cəsarətlə girişdikləri işlərdə daha çox uğur qazanırlar. (U.Şekspir)

4. Cümləni oxuyun və suallara cavab verin.

Tarixi doğru-dürüst yazmaq üçün gərək öz dinini də, vətənini də, partiyanı da büsbütün unudasan.

➢ *Doğru-dürüst* zərfinin daxil olduğu tərkib hansı cümlə üzvüdür?
➢ *Büsbütün* sözünü *masmavi, dosdoğru* sifətləri ilə müqayisə edin. Sizcə, bu söz a) zərfdir, b) sifətdir, c) zərf məqamında işlənən sifətdir?

➢ Debat. Təsdiqedici və inkaredici tərəflərə bölünərək yuxarıdakı cümlədə ifadə olunmuş fikirlə bağlı debat keçirin.

YADDA SAXLA Zərfin morfoloji təhlil qaydası

Zərfin morfoloji təhlili zamanı aşağıdakıları müəyyənləşdirmək lazımdır:

1. Başlanğıc forması, sualı
2. Quruluşca növü
3. Mənaca növü
4. Hansı sözlə bağlı olması
5. Cümlədə rolu

Nümunə:

Həcər ovcu ilə bərk-bərk onun ağzını yumdu. (Anar)

1. *Bərk-bərk* - zərfdir, necə? sualına cavab verir.
2. Quruluşca mürəkkəbdir.
3. Tərzi-hərəkət zərfidir.
4. "Yumdu" sözü ilə bağlıdır.
5. Cümlədə tərzi-hərəkət zərfliyi vəzifəsində işlənib.

5. Zərfləri tapın və morfoloji təhlil edin.

O, az və astadan danışırdı. Qarşıdakına diqqətlə qulaq asır, sözünü kəsmirdi. Arabir nəyəsə etiraz edəndə çalışardı ki, heç kim inciməsin.

6. "Qarabağın maralı" mahnısının birinci bəndini oxuyun.

Ay qız, gəzmə aralı,
Könlüm səndən yaralı.
Gözlərinə heyranam,
Qarabağın maralı.

➢ Test-debat. Birinci misradakı "aralı" sözü ilə bağlı deyilənlərdən hansı doğrudur?

A) Tərzi-hərəkət zərfidir.
B) Yer zərfidir
C) Zərf məqamında işlənmiş sifətdir.

7. Test-debat. *O, özünü tox tutur* cümləsində "tox" sözü haqqında deyilənlərdən hansı doğrudur?

A) zərfdir
B) sifətdir
C) zərf məqamında işlənən sifətdir
D) tərkibi felin bir hissəsidir.

8. Debat. *Sapsarı saralmaq, gömgöy göyərmək, qapqara qaralmaq* birləşmələrindəki altından xətt çəkilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.
A) Çoxaltma dərəcəsində olan sifətdir.
B) Yalnız bir fellə işlənə bilən zərfdir.
C) Zərf məqamında işlənən sifətdir.

9. Düşünün. Yuxarıdakı sözləri *oyur-oyur (oynamaq), işım-işım (işıldamaq)* sözləri ilə müqayisə edin.

10. Verilmiş nümunəyə uyğun dəftərinizdə cədvəl qurun. Mətnlərdəki zərfləri taparaq cədvələ uyğun qruplaşdırın.

1. Qarı bunu görüb, cəld Gülzargilə gəldi, əhvalatı tələsik Gülzara söylədi. Gülzar da tez Fərhada dedi. Gecə Fərhad əhvalatı xəfiyyə polisinə xəbər verdi. Gecədən bir qədər keçmiş Əhməd əlində bıçaq Gülzargilin evinə gəldi. Yavaşca özünü hazırlayıb qapını döydü. Əhməd içəri gircək dörd tərəfdən onu bürüdülər. Əhvalatı başa düşən Əhməd tez geri döndü. Bayırda onunla üz-üzə gələn xəfiyyəni görüb, əlindəki bıçağı onun ürəyinə sancdı.
Əhmədi birbaş həbsxanaya apardılar. (C.Cabbarlı)

2. Uzun müddət səyahətə çıxan gəmilərin kapitanları akvariumda olan balıqların hərəkətlərini həmişə izləyirlər. Çünki bu balıqlar havanın necə olacağını qabaqcadan xəbər verir. Onlar aydın havada suyun dibində sakit dayanır, yağışdan əvvəl isə birdən-birə hərəkətə gəlirlər.

3. Bütün gecəni ayaq üstə girlənən Qaloşlu adam əvvəlcə idarə həyətinə tökülən kağız qırıntılarını topladı, sonra da ora-buranı süpürdü. Günəş pəncərədən içəri doldu. Qaloşlu adam qapını açıb içəri girdi. Mehman qalxıb divanda oturdu, gözlərini ovdu. İndi Mehman ötən axşamkı qarışıq sifətli adama ayrı bir gözlə baxırdı. (S.Rəhimov)

növ / quruluş	Sadə	Düzəltmə	Mürəkkəb
Tərzi-hərəkət			
Zaman			
Yer			
Kəmiyyət			

ZƏRF BƏHSİ ÜZRƏ

ÖZÜNÜ YOXLA

1. Verilmiş xüsusiyyətlərin hansı nitq hissələrinə aid olduğunu müvafiq xanalarda qeyd etməklə müəyyənləşdirin.

	sifət	say	zərf
- Əşyanın miqdarını və sırasını bildirir.	☐	☐	☐
- Hərəkətin miqdarını bildirir.	☐	☐	☐
- Əşyanın əlamətini (keyfiyyətini) bildirir.	☐	☐	☐
- Hərəkətin əlamətini bildirir.	☐	☐	☐
- İsimlə bağlı olur.	☐	☐	☐
- Cümlənin təyini olur.	☐	☐	☐
- Cümlənin zərfliyi olur.	☐	☐	☐
- Fellə bağlı olur.	☐	☐	☐
- Necə?, nə cür? sualına cavab verir.	☐	☐	☐
- Hansı? sualına cavab verir.	☐	☐	☐
- Nə qədər? sualına cavab verir.	☐	☐	☐

2. Zərflər feldən başqa digər nitq hissələrinə aid ola bilərmi? Cavabınızı misallarla əsaslandırın.

3. Zərflər təsriflənməyən fellərə aid ola bilərmi?

4. Hansı cümlədə -dan² şəkilçisinin köməyi ilə düzəlmiş zərf var?
A) Ürəkdən ürəyə yollar görünür.
B) Natiq elə ürəkdən danışırdı ki, heç kim onun sözlərinə biganə qala bilmirdi.

5. Hansı cümlədə -la² şəkilçisinin köməyi ilə düzəlmiş zərf var?
A) O, işini namusla yerinə yetirdi.
B) Müəllimlə söz güləşdirmə.

6. Hansı söz birləşməsində -ca² zərf düzəldən şəkilçidir?
A) almanca oxumaq
B) yavaşca pıçıldamaq

7. Zərf düzəldən -araq² şəkilçisi ilə feli bağlama düzəldən -araq² şəkilçisi arasında hansı fonetik və morfoloji fərq var?

8. *Dizin-dizin* və *için-için* zərfləri hansı fellərə aid ola bilər?

9. Zərfin hansı məna növləri var?

10. *-ba* bitişdiricisi zərfdən başqa hansı nitq hissəsi yarada bilir?

11. Zərf olmayan sözü tapın.
A) get-gedə
B) qaça-qaça
C) yıxıla-dura

12. Yerinə görə sifət kimi də işlənən tərzi-hərəkət zərfləri, əsasən:
A) sadə zərflərdir
B) düzəltmə zərflərdir
C) mürəkkəb zərflərdir

13. Suallardan biri yalnız sifətə aiddir.
A) necə?
B) nə cür?
C) hansı?

14. Yer zərflərini yer-məkan bildirən isimlərdən fərqləndirən nisbilik anlayışını izah edin.

15. Zaman zərfləri ilə zaman mənalı isimlər arasında hansı fərq var?

16. Miqdar zərfi kimi də işlənən saylar sayın hansı məna növünə aiddir?

17. Təsriflənməyən fellərə aid olan zərflər ayrıca cümlə üzvü kimi çıxış edə bilərmi?

18. "*Bura kəndin aşağı tərəfi olduğundan biz üzüyuxarı xeyli yol getməli idik*" cümləsində zərflərin sintaktik vəzifəsini müəyyənləşdirin.

19. Atalar sözlərində nöqtələrin yerinə müvafiq zərfləri artıraraq oxuyun.

çox, sonra, qabaq, burda, ora, orada, arxa, az əvvəl

1. Arabanın ... çarxları hara gedərsə, ... çarxları da ... gedər
4. ... bilsən də, ... danış.
5. ... düşün, ... danış.
6. Başını ... islat, ... qırxdır.

ZƏRF BƏHSİ ÜZRƏ

QİYMƏTLƏNDİRMƏ

1. Zərflərdən biri düzəltmə deyil:
A) daxilən
B) təsadüfən
C) mənən
D) qəsdən
E) qəflətən

2. Fərqləndirilmiş sözlərdən hansı zərf olsa da, zərflik deyil?
A) Ordumuz <u>gündən-günə</u> möhkəmlənir.
B) <u>Çoxdan</u> kəndimizə gedə bilmirəm.
C) <u>Birdən</u> göyün üzünü qara buludlar aldı.
D) <u>İrəlini</u> diqqətlə yoxladılar.
E) <u>Əvvəl</u> mən də belə düşünürdüm.

3. Sıraların birində zərflə bağlı məntiq pozulmuşdur:
A) srağagün, sabah, indicə
B) bura, üzüyuxarı, sağa-sola
C) ara-sıra, hərdən, günaşırı
D) xeyli, birə-beş, qismən
E) asta-asta, üz-üzə, baxa-baxa

4. Birində zərf təsriflənən felə aid deyil:
A) İctimai yerlərdə ucadan danışmaq ədəbsizlikdir.
B) Gecə güclü yağış başlamışdı.
C) Az-az ye, həmişə ye.
D) Bayaq səni axtarırdılar.
E) Heyrətlə danışanlara baxırdı.

5. Zərflə sifətin oxşarlığı haqqında deyilənlərdən biri səhvdir.
A) İkisi də əsas nitq hissəsidir.
B) İkisi də həm leksik, həm də qrammatik mənaya malikdir.
C) İkisi də aid olduğu nitq hissəsindən əvvəl gəlir.
D) İkisi də eyni nitq hissəsi ilə bağlı olur.
E) İkisi də quruluşca sadə, düzəltmə, mürəkkəb olur.

6. Hansı zərf sxeminə uyğundur?
A) qorxaqcasına
B) minnətdarlıqla
C) birlikdə
D) vurhavurla
E) hiyləgərliklə

7. Verilmiş cümlədə neçə zərf işlənmişdir?
Bildir bağın yuxarısında həvəslə əkdiyim qızılgüldən indi tələsmədən bir az dərib iyləyə-iyləyə evə tərəf getdim.
A) 7
B) 3
C) 4
D) 6
E) 5

8. Biri zərf deyil:
A) adbaad
B) qapı-qapı
C) bərkdən
D) yanbayan
E) tutatut

9. Zərfin sualları hansı nitq hissələrinin sualları ilə ortaq ola bilir?
1. ismin, 2. felin, 3. sayın, 4. sifətin, 5. heç birinin
A) 2, 3
B) 1, 3, 4
C) 2, 3, 4
D) 5
E) 1, 2

10. Hansı cümlədə tərzi-hərəkət zərfi əvəz olunmuşdur?
A) Uşaqlar niyə gecikiblər?
B) Sənə necə maşın lazımdır?
C) Açarı hara qoymusan?
D) Elnur tapşırığı necə yerinə yetirib?
E) Stadiona nə vaxt gedəcəksən?

18 Köməkçi nitq hissələri haqqında ümumi məlumat

Qoşma, bağlayıcı, ədat, modal söz, nida

Hazırlıq

5-ci sinifdə "Leksika" bölməsində sözün mənaları haqqında öyrəndiyiniz bilikləri xatırlayın:

- Sözün leksik mənası nə deməkdir?
- Sözün qrammatik mənası nə deməkdir?

Çərçivədə verilmiş sözlərdən istifadə etməklə aşağıdakı cümlələri bərpa edin.

ilə, lakin, üçün, sonra, tərəf

1. Uzun müddət vətənindən uzaq olduğu ... darıxır, ... təhsilini bitirmədən qayıda bilmirdi.

2. Elxan axırıncı dərsdən ... dostları ... kompyuter otağına ... yollandı.

İstifadə etdiyiniz sözlər haqqında nə deyə bilərsiniz?

- Ayrılıqda leksik mənaya A) malikdir, B) malik deyil;
- Hər hansı bir suala A) cavab verir, B) cavab vermir;
- Cümlə üzvü A) ola bilir, B) ola bilmir;
- Fikrin ifadəsində müəyyən rolu A) var, B) yoxdur.

YADDA SAXLA Köməkçi nitq hissələrinin nitqdə rolu

Köməkçi nitq hissələri ayrılıqda leksik mənaya malik olmayan, suala cavab verməyən, cümlə üzvü olmayan sözlərdir. Azərbaycan dilində 5 köməkçi nitq hissəsi var. Onlar

- sözləri və cümlələri bir-birinə bağlamağa (bağlayıcı),
- müəyyən məna çaları yaratmağa (qoşma),
- sözlərin, cümlələrin təsir gücünü artırmağa (ədat),
- danışanın fikrə münasibətini bildirməyə (modal sözlər),
- hiss-həyəcanı ifadə etməyə (nida) xidmət edir.

Köməkçi nitq hissələri yalnız qrammatik məna daşısa da, fikrin ifadəsində müəyyən rola malikdir. Çox zaman onları ixtisar etmək olmur. *Sevda məni dərsin sonuna kimi gözlədi* cümləsində *kimi* qoşmasını ixtisar etmək olmaz. *Dəniz dalğalanır və günəş şüaları suda bərq vururdu* cümləsində isə *və* bağlayıcısını vergüllə əvəz etmək olar.

1. Atalar sözlərində köməkçi nitq hissələrini müəyyənləşdirin.

Gözünün yaşına baxaq, ya əlinin daşına?!
Elə yerdə otur ki, durmayasan.
El ağzı ilə quş tutulmaz.
Kiçik daş da baş yarar.
Qəribi vurmuşlar, "Vay, vətən!" demiş.
Bəy ilə bəy savaşdı, ortada kasıbın başı yarıldı.

2. Verilmiş cümlələri oxuyun. Eyni söz hansı cümlədə əsas, hansında köməkçi nitq hissəsi kimi işlənib?

1. Üçbucağın tərəflərini ölçdülər.
2. Mənə tərəf irəliləyən o idi.
3. Qabaq onu görməmişdim.
4. Səndən qabaq gəldim.
5. Sən necə düşünürsən?
6. Hava necə də istidir.

Mətnlə iş. Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

QIRXINI DA BİRDƏN BİLMİRƏM

Bir gün kəndə bir alim gəlib Mollanın yerini soruşur. Kəndlilər axtarıb onu çöldə ot biçən yerdə tapırlar.

Alim onunla tanış olduqdan sonra deyir:

- Molla, deyirlər, sən çox alim adamsan. Mən gəlmişəm, sənə qırx dənə sual verəm.

Molla baxır ki, əgər bu qırx suala cavab verməli olsa, gərək ot biçməyə. Onda da eşşək bütün qışı ac qalacaq. Ona görə də deyir:

- Hamısını bir-bir de, görüm necə suallardır?

Alim qırx sualın hamısını birbəbir deyir. Qurtardıqdan sonra Molla orağını götürüb qalxır ki:

- Qırxını da birdən bilmirəm.

➢ *Mətndə altından xətt çəkilmiş sözlərin funksiyasını müəyyənləşdirin.*
➢ Debat. *"Birbəbir" sözü hansı nitq hissəsidir?*
A) say
B) zərf

19 Qoşma

Hazırlıq

Birinci və ikinci cümlələri müqayisə edin.

1. Qardaşıma hədiyyə aldım. 2. Qardaşım üçün hədiyyə aldım.

1. O, tələsik evə getdi. 2. O, tələsik evə tərəf getdi.

1. Mənim ona hörmətim var. 2. Mənim ona qarşı hörmətim var.

Eyni sətirdəki cümlələr arasındakı fərqi izah edin. İkinci cümlələrə əlavə olunan *üçün, tərəf, qarşı* sözlərinin yaratdığı məna çalarını müəyyənləşdirin.

Sözlük

Kəhkəşan - kainat, göy
Badi-səba - səhər mehi
Dildar - könül alan gözəl

YADDA SAXLA Qoşma nədir?

İsmin adlıq, yiyəlik, yönlük və çıxışlıq halında olan sözlərə qoşularaq müəyyən məna çaları yaradan köməkçi nitq hissəsinə qoşma deyilir. Başqa köməkçi nitq hissələrindən fərqli olaraq qoşma qoşulduğu sözlə birlikdə cümlə üzvü olur.

Məsələn: *Hamı sənin kimi düşünmür* cümləsində "kimi", *Dərsdən sonra tədbir olacaq cümləsində* "sonra" qoşmadır. Birinci cümlədə *kimi* qoşması bənzətmə, ikinci cümlədə *sonra* zaman anlayışı bildirir və onlar qoşulduğu sözlə birlikdə zərflik vəzifəsində çıxış edir.

1. Cümlələrdə nöqtələrin yerinə uyğun gələn qoşmaları əlavə edin.

qarşı, bəri, başqa, üçün, haqqında, ilə

1. Eldardan ... heç kəs gəlməmişdi.
2. İllərdən ... onunla görüşməmişdim.
3. Ana qəhrəman oğlu ... fəxr edirdi.
4. Düşmənə ... nifrətim daha da artdı.
5. Onunla qarşılaşdığım ... sevinirdim.
6. Qarabağ məsələsi ... müzakirələr keçirildi.

2. Qoşmaları müəyyənləşdirin. Cümlələrin hansında iki qoşma var?

1. *Mənim qədər işləmək istəyirdi.*
2. *O günlər xəyaltək uzaqlardadır.*
3. *Bu mövzuya dair inşa yazıldı.*
4. *Geç gəldiyi üçün üzr istədi.*
5. *Körpə əllərini anaya doğru uzatdı.*
6. *Qatarla səhərə kimi yol getdik.*

Mətnlə iş. Mətni oxuyun və qoşmaların altından xətt çəkin.

Nağıl edirlər ki, bir gün Ənuşirəvan şah üçün ovalıqda kabab bişirirdilər, lakin duz yox idi. Duzdan ötrü kəndə bir adam göndərmək lazım gəldi. Ənuşirəvan ona dedi:

- Duzu zorla deyil, pulla al ki, kənd xaraba qalmasın.

Soruşdular:

- Azacıq duzla kənd necə xaraba qalar?

Ənuşirəvan cavab verdi:

- Zülm dünyada əvvəlcə az idi, sonra hər gələn onu bir az artırdı, nəhayət, indiki həddə gəlib çatdı.

(Sədi Şirazinin "Gülüstan" əsərindən)

➢ *Debat: İki qrupa bölünün. Birinci qrup "Kiçik bir ədalətsizlik cəmiyyətə ziyan gətirməz", ikinci qrup "Ən kiçik ədalətsizlik də cəmiyyətdə bəlalar törədə bilər" fikrini müdafiə etsin.*

➢ *Altından xətt çəkilmiş sözü qoşma kimi işlədin.*

3. Aşağıdakı şeir parçalarında qoşmaları tapın. Onların qoşulduğu sözlərin ismin hansı halında olduğunu müəyyənləşdirin.

Sən ey fələklər qədər uca, dəyərli insan!
Nazını çəkməkdədir bu yer, bu göy, kəhkaşan.
(Nizami)

Sızlayır əhvalıma sübhə qədər tarım mənim,
Təkcə tarımdır qara günlərdə dildarım mənim.
(M. Şəhriyar)

Laf ilə tərəqqi olmaz, sözlə də sərvət,*
Biliklə olur, bilməlidir sərvətü qüvvət.
(M.Hadi)

**laf - söhbət, danışıq*

YADDA SAXLA Qoşma ilə işlənən sözlər

Adlıq və yiyəlik halda olan sözlərlə işlənən qoşmalar: *üçün* (*sənin üçün, uşaq üçün*), *ilə (-la)* (*onunla, kitabla*), *qədər*, *kimi*, *tək* (*sənin qədər, dəniz kimi, ürəktək*), *-ca*[2] (*dəryaca*), *haqqında*, *barəsində* (*sənin haqqında, əsər barəsində*), *naminə* (*qanun naminə*), *üzrə* (*müqavilə üzrə*);

Yönlük halda olan sözlərlə işlənən qoşmalar: *qədər*, *kimi*, *-dək*, *tərəf*, *doğru*, *sarı*, *qarşı*, *-can*[2], *görə*, *əsasən*, *aid*, *dair* (*dünənə qədər, evədək, sənə qarşı, qapıyacan, mənə görə, mövzuya əsasən, sənə aid*).

Çıxışlıq halda olan sözlərlə işlənən qoşmalar: *əvvəl*, *qabaq*, *sonra*, *bəri*, *başqa*, *özgə*, *savayı*, *qeyri*, *ayrı*, *ötrü* (*dərsdən əvvəl, məşqdən sonra, illərdən bəri, səndən savayı, övladdan ötrü*).

4. Verilən qoşmaları uyğun sözlərlə işlədin və həmin sözlərin ismin hansı halında olduğunu müvafiq xanalarda qeyd edin.

Qoşmalar	Adlıq	Yiyəlik	Yönlük	Çıxışlıq
başqa				
kimi				
ötrü				
görə				
sonra				
tərəf				
qarşı				
ilə				
sarı				
tək				
qədər				

➢ Hansı qoşmaların qarşısında bir neçə xanada işarə qoydunuz?

5. Bayatının hansı misrasında qoşma fellə işlənib?

Zülfün suda mar kimi,
Oynar su damar kimi.
Sızıldatdın aşiqi
Yağa su damar kimi.

6. Nöqtələrin yerinə müvafiq hal şəkilçilərini əlavə edin.

1) Mən... üçün bu məsələnin həlli vacib idi.

2) Quşcuğaz yuva... doğru boylandı.

3) Pələngin dərisini soyub evə qayıdan... sonra qonşular başıma yığıldılar.

4) Ətrim tutar hər yanı,
Mən... kimi gül hanı?!

5) Mən... sonra avtobusa daxil olan oğlan qocaya yer verdi.

6) Dünən... qədər onunla eyni fikirdə idim.

7) Cütçülər bun... əvvəl oyanmışdılar, onlar zəmilərinə cüt əkməyə getdilər.

Mətnlə iş. *Qoşmaları tapın, hansı halda olan sözlərə qoşulduğunu müəyyənləşdirin.*

TAR

Azərbaycan simli musiqi alətləri arasında texniki imkanlarına görə tar ən mükəmməl çalğı alətidir. Başqa musiqi alətləri **kimi**, müasir tar da özündən əvvəl mövcud olmuş musiqi alətləri əsasında yaranmış və əsrlər boyu formalaşmışdır. XIX əsrin ortalarına **kimi** şərq musiqi aləmində *dütar* (ikisimli), *setar* (üçsimli), *pənctar* (beşsimli) adı ilə müxtəlif tar növləri məlum idi.

XIX əsrin ikinci yarısında məşhur Azərbaycan tarzəni Sadıq Əsəd oğlu (Sadıqcan) tarı təkmilləşdirərək onu ən geniş diapazonlu musiqi alətlərinin səviyyəsinə qaldırmış, simlərin sayını on birə çatdırmışdır. Məhz Sadıqcandan sonra ifaçılar aləti daha diz üstə deyil, sinə üstə tutmağa başlamışlar.

1931-ci ildə Ü.Hacıbəyov və M.Maqomayevin təşəbbüsü ilə yaradılmış ilk notlu xalq çalğı alətləri orkestrində tar aparıcı alət kimi əsas yeri tutmuşdur.

Azərbaycanın böyük şairi Mikayıl Müşfiq də məhz tarın səsindən ilhamlanaraq məşhur "Oxu, tar" şeirində bu alət haqqında söz açmış, "Oxu, tar! Səni kim unudar?" - deyə onun sarsılmaz qüdrətini yüksək sənətkarlıqla tərənnüm etmişdir.

➢ *Qalın hərflərlə verilmiş qoşmaların yaratdığı məna çalarları arasındakı fərqi izah edin.*

➢ Düşünün. *Altından xətt çəkilmiş birləşməyə diqqət yetirin. Burada "boyu" sözünü qoşma kimi qəbul etmək olarmı?*

YADDA SAXLA Qoşmaların məna növləri

Qoşmaların məna növləri onların yaratdığı məna çalarlarına əsasən müəyyənləşdirilir.

1) *ilə (-la²)* a) birgəlik bildirir: *dost ilə, dostla*; b) vasitə bildirir: *kitabla, telefonla, yolla.*

2) *əvvəl, sonra, qabaq, bəri* zaman bildirir: *işdən sonra, döyüşdən qabaq, səhərdən bəri.*

3) *qədər, kimi, -dək, -can²* məsafə və zaman bildirir: *evə qədər, şəhərə kimi, qapıyadək, sonacan, axşama kimi.*

4) *tərəf, doğru, sarı, qarşı* istiqamət bildirir: *kəndə tərəf, məqsədə doğru, sənə sarı, pisliyə qarşı.*

5) *başqa, savayı, qeyri, ayrı, özgə* fərqləndirmə bildirir: *sudan başqa, səndən savayı, kitabdan qeyri.*

6) *kimi, tək, qədər, -ca²* bənzətmə bildirir: *onun kimi, qəhrəmantək, dost qədər, uşaqca.*

7) *üçün, ötrü, görə* səbəb-məqsəd bildirir: *xəstələndiyim üçün, yaşamaqdan ötrü, danışdığına görə;*

8) *əsasən, görə* istinad bildirir: *mövzuya əsasən, müsabiqəyə görə;*

9) *haqqında, barəsində, dair, aid* aidlik bildirir: *əsər haqqında, məsələ barəsində, tarixə dair, Qarabağa aid.*

7. Bayatılardakı qoşmaların məna növünü və qoşulduğu sözün hansı halda olduğunu müəyyənləşdirin.

Mən aşıq, vətən sarı,
Köynəyi kətan sarı,
Qürbətdə qalan aşiq,
Üz döndər vətən sarı.

Ağlaram ağlar kimi,
Dərdim var, dağlar kimi,
Xəzəl oldum, töküldüm,
Virana bağlar kimi.

➢ 1-ci bayatıda "sarı" sözü hansı nitq hissələri kimi işlənmişdir.

8. 1-ci və 2-ci cümlələrdə qoşmaların yaratdığı məna çalarlarını müqayisə edin. Bu qoşmaları antonim qoşmalar adlandırmaq olarmı?

1. *Onunla dərsdən sonra görüşməliyəm.*
2. *Onunla dərsdən əvvəl görüşməliyəm.*
1. *Romaya tərəf gedən Sezar öz qoşunu ilə Rubikonu keçdi.*
2. *Roma Senatına qarşı çıxan Sezar hakimiyyəti ələ aldı.*

9. Hansı cümlələrdə qoşma düzgün işlənməyib? Onları hansı qoşmalarla əvəz etmək olar?

1) Onun anasından başqa heç kimi yox idi.
2) İllərdən qabaq onunla görüşməmişdik.
3) Vətən üçün canını qurban verənlər şəhidlik zirvəsinə ucalır.
4) Mənə doğru hörmətini hiss edirdim.
5) Dostun gecikdiyinə ötrü üzr istədi.

10. Cümlələrdəki qoşmaların hansı məna növünə aid olduğunu deyin.

1) Evə kimi piyada getmək istədiyini bildirdi.
2) Qonşuluqdakı uşaq qardaşı kimi nadinc deyildi.
3) Kəndə çatana qədər vətənin təbii gözəlliklərini seyr etməkdən doymurdum.
4) Vətən bizə ana qədər doğmadır.

11. Verilmiş cümlələrdə qoşmaları tapın, məna növünü və qoşulduğu sözlə birlikdə hansı cümlə üzvü olduğunu müəyyənləşdirin.

1. Elmsiz iş görmək şoran yerə toxum səpmək kimidir.
2. Şəhidlərin qanı gələcək nəsilləri yetişdirmək üçündür.
3. Döyüşdə silah lazım olduğu kimi həyatda da bilik lazımdır.
4. Savadsız adam həmişə özündən də savadsızını tapır ki, onu öz savadı ilə heyran etsin.
5. Aqil öləndən sonra da diri, cahil isə diri <u>ikən</u> ölüdür.
6. İnsan həyatın dalğa və fırtınalarına sinə gərməlidir, bunun üçün isə dəniz sahilindəki qayalar kimi möhkəm olmalıdır. (B.Franklin)

➢ Sübut edin ki, altından xətt çəkilmiş söz qoşmadır.

12. Şeirdə işlənmiş qoşma hansı məna növünə aiddir - fərqləndirmə, bənzətmə, yoxsa məsafə?

Qarpız kəsdim, bal kimi,
Dilimlədim, nar kimi,
Gördüm yarın əllərin
Gecə yağmış qar kimi.

YADDA SAXLA Qoşmaların omonimliyi

Bəzi qoşmalar omonimlik təşkil edir, yəni eyni qoşma müxtəlif mənalarda işlənə bilir.



Qoşmalar digər nitq hissələri ilə də omonimlik təşkil edə bilər.

13. *Üçün* hansı cümlədə səbəb, hansında məqsəd mənası yaradıb?

1. Başqalarının hörmətini qazanmaq üçün özünə hörmətlə yanaşmalısan.

2. Məni çoxdan görmədiyi üçün harada yaşadığımı bilmirdi.

14. Tapmacalarda qoşma ilə omonim olan hansı şəkilçi və söz var?

Bir küpüm var, saçaqlı,
Yeddicə deşiyi var.
Üçü cütdü, biri tək.
(baş, gözlər, qulaqlar, burun, ağız)

Əzizim, qəfəssizdir,
Bülbüldür, qəfəssizdir.
Uçanda quştək uçur,
Canı yox, qəfəssizdir. (fikir)

15. Şeiri oxuyun və janrını müəyyənləşdirin.

PƏRİ

Nə gülürsən mənim kimi gülüncə,
Sən mənə gülüncə dərdə gül, Pəri!
Alışan otaqda, gülşən bağçada,
Süsəni, sünbülü dər də gül, Pəri!

Səninlə gəzirdik Təbrizdə bağı,
Sinəmə çəkirsən dağ üstdən dağı,
Bəndə saldın mənim kimi dustağı,
Çox məni qoyubsan darda, gül, Pəri!

Abbas gətirildi dar ayağına,
Xınatək yaxıldım yar ayağına,
Yoxsulu çəkərlər var ayağına,
İndi mənim kimi mərdə gül, Pəri!

(Aşıq Abbas Tufarqanlı)

➢ Şeirdəki eyni mənalı qoşmalardan hansı qoşulduğu sözlə bitişik yazılıb.

➢ Şeirin 1-ci və 2-ci misralarındakı "gülüncə" sözləri arasındakı morfoloji və fonetik fərqləri müəyyənləşdirin.

➢ Debat. "Qoşma" sözü şeir janrı və nitq hissəsi kimi
A) omonimdir
B) çoxmənalı sözdür.

YADDA SAXLA Qoşmaların sinonimliyi

Eyni mənanı bildirən və bir-birini əvəz edə bilən qoşmalar sinonim qoşmalardır.

tərəf, doğru, sarı: sahilə tərəf, sahilə doğru, sahilə sarı
əvvəl, qabaq: döyüşdən əvvəl, döyüşdən qabaq;
kimi, tək: maral kimi, maraltək
kimi, qədər, -dək, -can[2]: səhərə kimi, səhərə qədər, səhərədək, səhərəcən.

16. Mətndəki sinonim qoşmaları tapın.

Obamızın şimal tərəfi qərbdən şərqə doğru uzanmış çılpaq qayalıq, daha sonra qalın bir meşəlik idi.

Dərə qərbə sarı getdikcə qayalıq, dağlıq, iri və oyuq daşlarla dolu yerlərdən ibarət idi. Biz oralara getməyə qorxardıq, çünki kəndlilər "ayı var" deyə bizi qorxutmuşdular. Bu qorxu ucundan dərənin qərb tərəfinə getməzdik. (*A.Şaiq*)

➢ Altından xətt çəkilmiş sözü qoşma kimi qəbul etmək olarmı? Əgər qoşmadırsa, o, hansı halda olan sözə qoşulub?

17. Hansı beytdə sinonim qoşmalar işlənmişdir?

Canı kim cananı üçün sevsə, cananın sevər,
Canı üçün kim ki cananın sevər, canın sevər.

Nə yanar kimsə mənə atəşi-dildən özgə,
Nə açar kimsə qapım badi-səbadan qeyri.
(Füzuli)

YADDA SAXLA **Qoşmaların orfoqrafiyası**

Qoşmalar yazılışına görə üç cür olur:
1) Ayrı yazılanlar: *tərəf, ötrü, doğru, əvvəl və s.*
2) Bitişik yazılanlar: *-dək, -tək, -can, -ca, -la.*
3) Bitişik və ayrı yazılanlar: *ilə (-la²), üçün (-cün).*

İlə ayrı yazıldıqda bir cür, bitişik yazıldıqda ahəngə uyğun olaraq iki cür (*-la, -lə*) yazılır.

Mətnlə iş. Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

ƏSL ZƏFƏR

Yavuz Sultan Səlim Misir səfərinə çıxmışdı. Ordu alma bağının yanından keçəndə sultanın ürəyinə şübhə düşdü: "Görəsən, bağdan icazəsiz alma dərən oldumu?" Bir qədər sonra orduya "dayan" əmri verdi. Sərkərdəni yanına çağırıb əmr etdi ki, bütün əsgərlərin heybələri yoxlansın. Axtarılan tək bircə alma idi. Axtarışdan sonra məlum oldu ki, heç kimdə alma yoxdur. Bu xəbəri aldığı üçün sultan çox sevindi və ətrafdakılara tərəf dönərək: "Əgər tək bir əsgərin üzərində xalqın bağından bir alma tapılsaydı, Misir səfərindən geri qayıdacaqdım", - dedi.

➢ Omonim qoşmaları müəyyənləşdirin.
➢ Hansı söz həm əsas nitq hissəsi, həm də qoşma kimi işlənib?

O vaxta ya şah ölər, ya eşşək

Hazırlıq

Cümlələri oxuyun. Onların arasındakı məna fərqinin nəyin hesabına yarandığını müəyyənləşdirin.

Yağış yağır və təbiət sevinir.
Yağış yağır, lakin təbiət sevinmir.
Yağış yağır, ona görə də təbiət sevinir.
Əgər yağış yağsa, təbiət sevinər.

Sözlük

Akvarel - yağlı boya
Müəmmalı - möcüzəli, sirli, anlaşılmaz

YADDA SAXLA Bağlayıcı nədir?

Sözləri və cümlələri bir-birinə bağlayan köməkçi nitq hissəsinə bağlayıcı deyilir.

Ana və oğul söhbət edirdilər cümləsində "və" bağlayıcısı sözləri, *Ana danışır və oğul qulaq asır* mürəkkəb cümləsində isə sadə cümlələri bir-birinə bağlayıb.

Sintaktik vəzifəsinə görə bağlayıcıların 2 növü var: 1) tabesizlik bağlayıcıları, 2) tabelilik bağlayıcıları.

Tabesizlik bağlayıcıları həmcins üzvləri və tabesiz mürəkkəb cümlənin tərəflərini bağlayır: *Ana və Vətən müqəddəsdir. Qapı açıldı və bir neçə adam içəri daxil oldu.*

Tabelilik bağlayıcıları tabeli mürəkkəb cümləni təşkil edən sadə cümlələri bağlayır: *İnana bilmirəm ki, heç kəs buna razı deyil.*

1. Bağlayıcılardan hansı cümləni, hansı həmcins üzvü birləşdirib?

1) Təbiət yavaş-yavaş oyanır, lakin hələ quşların səsi eşidilmirdi.

2) Mənə həm rəngli kağızlar, həm də akvarel lazımdır.

3) Mənzərəni seyr etdikdə qürur duyurdum ki, vətənimin belə gözəllikləri var.

4) Anam səhər tezdən durar və evin bütün işlərini görərdi.

YADDA SAXLA Tabesizlik bağlayıcıları

Tabesizlik bağlayıcılarının mənaca növləri bunlardır:

1. Birləşdirmə bağlayıcıları: *və, ilə (-la²)*

> Qeyd: *İlə (-la²)* bağlayıcısı və *ilə (-la²)* qoşması omonimdir. Onu "və" bağlayıcısı ilə əvəz etmək mümkün olduqda bağlayıcı, mümkün olmadıqda qoşma olur. *Şəhər ilə kənd arasında məsafə o qədər də çox deyildi* cümləsində "*ilə*" "*və*" bağlayıcısı ilə əvəz oluna bilər, odur ki, bağlayıcıdır. *Biz kəndin kənarında uşaqlar ilə qarşılaşdıq* cümləsində bu əvəzləşmə mümkün olmadığından qoşmadır.

2. Bölüşdürmə bağlayıcıları: *gah, gah da, ya, ya da, istər, istərsə də. Ya mən getməliyəm, ya da sən.*

3. Qarşılaşdırma bağlayıcıları: *amma, ancaq, fəqət, lakin, isə, halbuki. Dalğalar sahilə can atır, lakin tez geri çəkilirdi.*

4. İştirak bağlayıcıları: *həm, həm də, həm də ki, nəinki, hətta, habelə, o cümlədən, həmçinin, da, də. Həm yağış yağır, həm də külək əsirdi. Bizdə şeir də var, sənət də vardır, Şairə, sənətə hörmət də vardır. (S. Vurğun)*

5. İnkarlıq bağlayıcıları: *nə, nə də, nə də ki. Nə bu gün, nə də sabah vaxtım olacaq.*

6. Aydınlaşdırma bağlayıcıları: *yəni, məsələn. Ana, yəni o müqəddəs varlıq bizim dayağımızdır.*

> *Qeyd*
> 1. İnkarlıq bağlayıcısı işlənən cümlənin xəbəri təsdiqdə olur: *Nə külək, nə çovğun onun qarşısını ala bildi.*
> 2. Asılı cümlənin xəbərini yaradan *isə* hissəciyindən fərqli olaraq, *isə* bağlayıcısı cümlənin üzvlərini və cümlələri bağlamağa xidmət edir.

2. Hansı cümlədə *isə* bağlayıcı vəzifəsindədir?

A) Maraqlı kitabdırsa, ver, mən də oxuyum.

B) İnformasiya mənbələri çoxdur, kitabı *isə* heç nə əvəz edə bilməz.

3. Dördündən biri fərqlidir.

1. A) habelə, B) yəni, C) da, D) həmçinin

2. A) amma, B) halbuki, C) lakin, D) hətta

4. Qoşma və bağlayıcıları fərqləndirin.

	Qoşma	*Bağlayıcı*
üçün	☐	☐
gah	☐	☐
ya	☐	☐
ilə	☐	☐
qədər	☐	☐
çünki	☐	☐
lakin	☐	☐

➢ Hansı söz həm qoşma, həm də bağlayıcı kimi işlənir?

5. Hansı cümlələrdə *ilə* bağlayıcı, hansında qoşma kimi işlənib?

1. *A) Onunla söhbətim uzun çəkdi.*
   B) Onunla mənim söhbətim yarımçıq qaldı.
2. *A) Otağa girməyi ilə çıxmağı bir oldu.*
   B) Otağa girməyi ilə səs-küy kəsildi.
3. *A) Elmlə başqalarının nəzərində ucalmaq olar.*
   B) Elmlə əxlaq insanın bəzəyidir.
4. *A) Bir gül ilə bahar olmaz.*
   B) Bu kitabla qələm sənindir.

YADDA SAXLA **Tabelilik bağlayıcıları**

Tabelilik bağlayıcılarının növləri bunlardır:

1. Şərt bağlayıcıları: *əgər, hərgah, indi ki, madam ki. Əgər torpağı sevsən, o da səni bəsləyər.*

2. Səbəb bağlayıcıları: *çünki, ona görə ki, ondan ötrü ki, buna görə də, onun üçün ki. Dincəlmək istəyirdim, çünki artıq yorulmuşdum.*

3. Güzəşt bağlayıcıları: *hərçənd, hərçənd ki. Hərçənd mənimlə yaxın dostdur, bəzən fikirlərimiz üst-üstə düşmür.*

4. Aydınlaşdırma bağlayıcıları: *ki, belə ki. Biz inanırıq ki, Qarabağ torpaqları düşmən əsarətindən azad olacaq.*

6. Tabesizlik və tabelilik bağlayıcılarını müəyyənləşdirin.

	tabesizlik	tabelilik
Gah	☐	☐
Nə	☐	☐
İndi ki	☐	☐
Yəni	☐	☐
Çünki	☐	☐
Həmçinin	☐	☐
Əgər	☐	☐

7. Bağlayıcıları seçib cümlələri bərpa edin.

və, amma, ki, həm, həm də, çünki, lakin, ya, ya da

1. Azadlıq xurma deyil ..., yetişməsini gözləyəsən. (R.Rza)

2. O vaxta ... şah ölər, ... eşşək. (məsəl)

3. Həmişə sülh tərəfdarı ol, ... müharibəyə də hazır ol. (Napoleon)

4. Xoşbəxtliyin yolu zəhmət ... cəsarətdən keçir. (O.Balzak)

5. Namaz qılarkən onu uzatmaq istəyirəm, ... kiçik bir uşağın ağlamasını eşidəndə namazımı uzatmıram, ... onun ağlar səsini eşidən ananın nə hala düşdüyünü çox yaxşı bilirəm. (Hz.Məhəmməd)

6. Düşüncələrimizi zorla başqalarına qəbul etdirmək ... faydasız, ... günah işdir. (A.Klauber)

➢ Seçdiyiniz bağlayıcıları məna növlərinə görə qruplaşdırın.

YADDA SAXLA Bağlayıcıların quruluşca növləri

Bağlayıcılar quruluşca sadə, mürəkkəb və tərkibi olur.

Sadə bağlayıcılar bir tərkib hissədən ibarət olur: *ki, yəni, gah, ilə, əgər, çünki* və s.

Mürəkkəb bağlayıcılar iki və ya üç müxtəlif nitq hissəsinə aid sözlərdən yaranır və bitişik yazılır: *hərgah, habelə, nəinki, halbuki.*

Tərkibi bağlayıcılar isə ayrı yazılan tərkib hissələrindən ibarət olur: *gah da, belə ki.*

8. Sonuncu bağlayıcı hansı nitq hissələrindən ibarətdir?

1) *hərgah* = hər + gah = əvəzlik + bağlayıcı
2) *habelə* = ha + belə = ədat + əvəzlik
3) *halbuki* = hal + bu + ki = ...

"Çünki", "hərçənd" bağlayıcılarını tərkib hissələrinə ayırmaq olarmı?

9. Bağlayıcıların quruluşca növünü müəyyənləşdirin.

1) Quşları elektrik vurmur, çünki quş tükü elektriki keçirmir.

2) Nə təmiz, nə böyük təbiəti var.
Ona bənzəsəydi bütün insanlar!.. (S. Vurğun)

3) Onları buraxsanız da gələcəklər, buraxmasanız da gələcəklər. (C. Cabbarlı)

4) Bütün çağırılanlar, habelə onların yaxın dostları da bu mərasimdə iştirak edirdilər.

5) Hərgah deyilənlər doğru olsa, siz azad buraxılacaqsınız.

10. Doğru, yoxsa yanlış? Müvafiq xanada qeyd edin.

	D	Y
1. "Ki" bağlayıcısı yalnız cümlələri bağlayır.	☐	☐
2. "Nə" inkar bağlayıcısıdır.	☐	☐
3. "Habelə" tabelilik bağlayıcısıdır.	☐	☐
4. Tabesizlik bağlayıcıları yalnız həmcins üzvləri bir-birinə bağlayır.	☐	☐
5. Aydınlaşdırma bağlayıcıları arasında həm tabelilik, həm tabesizlik bağlayıcıları var.	☐	☐

11. Hansı cümlələrdə həm *və* (birləşdirmə), həm *amma* (qarşılaşdırma) bağlayıcısı işlənə bilər?

A) Ağıldan məhrum xəyal çox vaxt eybəcərlik yaradır _____ ağılla xəyal birləşəndə möcüzələr yaranır. (F.Qoyya)

B) Düşündüyün kimi yazmalı _____ yazdığın kimi danışmamalısan.

C) Hər bir uşaq müəyyən qədər dahidir _____ hər bir dahi müəyyən qədər uşaqdır. (A.Şopenhauer)

D) Ağıllı insan həmişə tələsir _____ heç bir işi tələsik görmür.

YADDA SAXLA Bağlayıcılarda vergülün işlədilməsi

Bağlayıcıların bəziləri cümlədə tək işlənir, bəziləri isə təkrar olunur.

Tək işlənən bağlayıcılar: *və, ilə(-la²), amma, ancaq, lakin, çünki, ona görə ki, yəni, yoxsa, ki.*

– *və, ilə(-la²)* bağlayıcılarından nə əvvəl, nə də sonra vergül qoyulmur.

– *amma, ancaq, lakin, çünki, ona görə ki, yəni, yoxsa* bağlayıcılarından əvvəl vergül qoyulur.

– *ki* bağlayıcısından sonra vergül qoyulur.

Təkrar olunan bağlayıcılar: *ya ... ya da, gah ... gah da, nə ... nə də, həm ... həm də, istər ... istərsə, da (də) ... da (də).*

– *ya, gah, nə, həm, istər* bağlayıcılarından əvvəl (birincisindən başqa) vergül qoyulur.

– *da (də)* bağlayıcısından sonra (sonuncusundan başqa) vergül qoyulur.

> Qeyd: Bəzi təkrar olunan bağlayıcılar tək də işlənə bilər:
> - *da (də)* bağlayıcısı tək işləndikdə nə əvvəl, nə də sonra vergül qoyulmur.
> - *ya da, gah da* bağlayıcıları tək işləndikdə onlardan əvvəl vergül qoyulur.

12. Verilmiş cümlələrdə buraxılmış vergülləri bərpa edin.

1. Özündən böyüklərə hörmətlə yanaş çünki sən də nə vaxtsa yaşlanacaqsan.

2. Həmişə öz iradənin ağası və öz vicdanının köləsi ol.

3. Ömrü uzadan da insanı yaşadan da ümiddir. Daim ümidlə yaşamaq olmaz ancaq ümidsiz də yaşamaq olmaz. Hətta ən ümidsiz insanda da bir ümid qığılcımı közərməkdədir.

4. Elə ki problemlə qarşılaşdın təşvişə düşmə və unutma ki bundan da böyük problemlə üzləşə bilərdin.

5. Yağış həm kasıbın həm də varlının başına yağır amma təkcə kasıb islanır çünki varlının əlində çətir var.

6. Hər şey, hər şey, hətta dərdlər də köhnəlir. (Q.Flober)

➢ Sonuncu cümlədə hansı bağlayıcı var?

Hazırlıq

"Qalalı" mahnısından aşağıdakı bəndi oxuyun və suallara cavab verin.

Dam üstədir damımız,
De, gülüm, nanay, ay naninay.
Qoşadır eyvanımız,
Yar, qoşadır eyvanımız.
Sən ordan çıx, mən burdan,
Kor olsun düşmanımız,
Qoy kor olsun düşmanımız.

➢ Altından xətt çəkilmiş söz bəndin son iki misrası arasında hansı fərqi yaradıb?

A) Cümlənin mənasını dəyişdirib.
B) İfadə olunan fikrin təsir gücünü artırıb.

➢ Aşağıdakı cümlələrdə hansı sözlər həmin funksiyanı yerinə yetirir?

1. Hətta ağılsız adam da susanda müdrik görünür.
2. Millətləri yalnız və yalnız müəllimlər xilas edə bilər. (Atatürk)

Sözlük

Yeknəsəq - bir-birinə bənzər, eynicinsli
Qundaq - 1) körpə uşaqların sarğı ləvazimatı, 2) tüfəngin çiyinə söykənilən ağac hissəsi.
Operetta - musiqili komediya

YADDA SAXLA Ədat nədir?

Sözlərin və cümlələrin təsir gücünü artıran köməkçi nitq hissəsinə ədat deyilir.

1. Axı mənim təqsirim yoxdur cümləsində ***axı*** ədatı bütövlükdə cümlənin təsir gücünü artırır.

2. Mən ki heç nə etməmişəm cümləsində ***ki*** ədatı *mən* sözünün təsir gücünü qüvvətləndirir.

1. Ədatların cümlənin, yoxsa sözün təsir gücünü artırdığını müəyyənləşdirin.

1. Lap qulağımın dibindən kiçik qanadlarını ılıq və ətirli bahar havasına çırparaq bir quş da uçub keçdi. (İ. Əfəndiyev)

2. İnsan öz tay-tuşları arasında üstünlüyü yalnız elm və sənətə görə əldə edə bilər. ("Qabusnamə")

3. Artıq mən belə fikirlərlə razı deyiləm.

4. Axı sən mənim ən yaxın dostumsan.

5. Olduqca yeknəsəq görünən bu günləri mənalı etmək öz əlimizdədir.

6. Çoxları məsləhət alır, amma təkcə ağıllılar ondan faydalana bilirlər.

YADDA SAXLA Ədatın məna növləri

Ədatların aşağıdakı məna növləri var:

1) Qüvvətləndirici ədatlar: *ən, lap, daha, olduqca, axı, hətta, ki, necə, nə, artıq, -ca*[2], *da, də, ha, düz, bir.*
Hava necə də istidir. İndicə gələcək. Oxuyuram da. Gözləyirəm ha.

2) Dəqiqləşdirici ədatlar: *elə, əsl, məhz.*
Elə mən də bunu düşünürəm. Əsl mən deyən adamsan. Məhz sən bu işi etməlisən.

3) Məhdudlaşdırıcı ədatlar: *yalnız, tək, ancaq, təkcə, bircə, bir.*
Biz yalnız ona inanırıq. Bir dayan görüm.

4) Sual ədatları: *məgər, yəni, bəs, ki, -mı*[4].
Yəni sənin mənə sözün yoxdur? Ona inanırsanmı?

5) Əmr ədatları: *bax, baxsana, gəl, gəlsənə, qoy, qoysana, -sana*[2], *da, də, ha, di.*
Gəlsənə birlikdə işləyək. Qoy təbiət baharı qarşılasın. Mənə kömək etsənə. Danış da. Tez gəl ha. Di tez ol.

6) Arzu ədatları: *kaş, kaş ki, barı, təki.*
Kaş hər şey sən deyən kimi ola.

7) Təsdiq və inkar ədatları: *hə, yox, bəli, xeyr, heç.*
Bəli, mən sənə etibar edirəm. Yox, belə danışma.

2. Ədatları tapın və məna növünü müəyyənləşdirin.

Bağçaları sarı gül,
Yarı qönçə, yarı gül,
Gec açıldın, tez soldun,
Olmayaydın barı, gül.

Eləmi şüşə barı,
Çəkilib şüşə barı.
Sən dərdli, mən yaralı,
Gəl gəzək qoşa barı.

Araz üstə, buz üstə,
Kabab yanar köz üstə,
Qoy məni öldürsünlər
Bir alagöz qız üstə.

Qoy gülüm gəlsin, ay nənə,
Qoy yarım gəlsin, ay nənə,
Qapıda duran oğlana
İrəhmin gəlsin, nənə.

➢ Ədatla bağlı olan fellərin şəklini müəyyən edin. Ədatın məna növü ilə felin şəkli arasındakı qanunauyğunluğu izah edin.

➢ Hansı misrada həm əmr, həm də arzu ədatı ilə bağlı olan felin şəklini müəyyən etmək olmur. Səbəbini izah edin.

Mətnlə iş. Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

Ü.Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasında Gülnazı ilk dəfə görən Məşədi İbad söhbətə necə başlayacağını bilmir və deyir:

"Məşədi İbad. Xanım, sənin ki saçın bu qədər qaradır, yəqin, sən də mənim kimi həna qoyursan.

Gülnaz. Xeyr, həna qoymuram!

Məşədi İbad. Hə!.. Çünki mən saqqalıma həna qoyuram, elə bildim ki, sən də saçına həna qoyursan. (Kənara). Amma lap nahaq yerə hənadan söhbət saldım, heç yeri deyildi".

➢ *Mətndəki ədatları tapın və onların məna növünü müəyyənləşdirin.*

➢ *Bu epizodla bağlı dilimizdə hansı məsəl yaranıb? Həmin məsəldə hansı ədat işlənir?*

➢ *Bu məsəl hansı hallarda işlənir?*
A) adamlar söhbətə başlamaq üçün söz tapmadıqda
B) birisi ümumi söhbətin mövzusuna dəxli olmayan söz işlətdikdə

➢ *"Bəs mənim bir abbasım?" məsəli həmin operettanın hansı epizodu ilə bağlıdır? Bu məsəldəki ədat hansı məna növünə aiddir?*

3. Dördündən biri fərqlidir.

1. A) gəl, B) təki, C) bax, D) di
2. A) heç, B) təkcə, C) yalnız, D) bircə
3. A) axı, B) daha, C) elə, D) olduqca
4. A) kaş, B) qoy, C) barı, C) təki

4. Çərçivədə verilmiş ədatlardan istifadə edərək misraları tamamlayın.

nə, heç, barı

Aşiqin çoxdur sənin, çoxdur,
Kirpiyin oxdur sənin, oxdur.
Dərdindən mən dəliyəm,
... xəbərin yoxdur sənin, ceyran.

Gəlmişəm otağına oyadam səni,
Qaragilə, oyadam səni.
... gözəl xəlq eyləyib yaradan səni,
Qaragilə, yaradan səni.

Araxçının dardadı, qaraxal yar,
Gəl başımın sərdarı, qaraxal yar.
Evimizə gəlmədin, qaraxal yar,
Qonşumuza gəl ..., qaraxal yar.

BRUT, SƏN DƏ?!

Məşhur Roma imperatoru Qay Yuli Sezarın bir neçə ifadəsi bu gün bir çox dünya xalqlarının dilində zərbi-məsələ çevrilmişdir: "Rubikonu keçdik (Geriyə yol yoxdur)", "Veni, vidi, vici (Gəldim, gördüm, qələbə çaldım)" və s. Bu ifadələrdən biri də Sezarın ölümqabağı dediyi "Brut, sən də?!" ifadəsidir. Yaxın dost, silahdaş sayılan adam xəyanət etdikdə, gözlənilmədən əks tərəfə keçdikdə belə deyirlər.

Tarixin yaddaşında iki Brut qalmışdır. Onlardan birincisi Romada respublika üsuli-idarəsinin əsasını qoymuş Brutdur. Digəri isə Qay Yuli Sezarın dövründə yaşamış, böyük imperatorun himayədarlıq etdiyi və senator vəzifəsinə yüksəltdiyi Brut olmuşdur. İfadədəki Brut adı ikinci Bruta aiddir.

Eramızdan əvvəl 44-cü il mart ayının ortalarında Senatın iclasına gələn Sezar gözlənilmədən sui-qəsdçilərin hücumuna məruz qalır. Bir neçə xəncər yarası alan Sezar onlara müqavimət göstərir. Lakin sui-qəsdçilər arasında əli xəncərli Brutu görən imperatorun qolları boşalır. O: "Brut, sən də?!" deyib bu xəyanəti görməmək üçün əlləri ilə üzünü örtür.

➢ Mətnin başlığında işlənmiş *də* sözü ədatdır, yoxsa bağlayıcı?

YADDA SAXLA Ədatların omonimliyi

Ədatlar həm əsas, həm də köməkçi nitq hissələri ilə omonim ola bilər.

bax, gəl, qoy
- fel - *Kitaba bax. Mənimlə gəl.*
- ədat - *Bax məni incitmə. Qoy gəlsinlər.*

necə, nə, elə
- əvəzlik - *Sənə necə şərait lazımdır?*
- ədat - *Bu dağ necə əzəmətli görünür.*

bir, çox
- say - *Bir müqəddəs kitabımız var.*
- ədat - *Bir ayaq saxla.*

tək, artıq
- sifət - *Artıq tamah baş yarar.*
- zərf - *Bütün günü tək işləmişəm.*
- ədat - *Artıq burada qala bilmərik.*

nə, ki, da, hətta, ancaq, yəni
- bağlayıcı - *Mən də bilirəm.*
- ədat - *Bir ayaq saxla da.*

-ca², tək
- qoşma - *Dəryaca ağlı var.*
- ədat - *İndicə burada idi.*

Ədatlar öz aralarında da omonimlik təşkil edir, yəni eyni ədat bir neçə məna növündə işlənir:

Ondan xəbər var <u>ki</u>? (sual ədatı).

Uşaq <u>ki</u> dərslərinə hazırdır. (qüvvətləndirici ədat)

Gəl <u>də</u>! (əmr ədatı)

Gəlirəm <u>də</u>! (qüvvətləndirici ədat)

Tez gəl <u>ha</u>. (əmr ədatı)

Anana deyərəm <u>ha</u>. (qüvvətləndirici ədat)

5. Eyni sözlərin cümlələrdəki mənalarına diqqət yetirin. Əsas və köməkçi nitq hissələrini müəyyənləşdirin.

1) Elə adam tanımıram. Elə mən də onu tanımıram.

2) İnanıram ki, birinci olacağıq. Birinci olacağına inanır ki?

3) Sən nə düşünürsən? Sən nə düşüncəlisən.

4) Tək əldən səs çıxmaz. Tək sən buna laqeyd deyilsən.

6. Hansı cümlələrdə ədat işlənib?

1. Çox igidlər, şahzadələr bu su üçün gəliblər, ancaq heç birinin bəxti yar olmayıb. 2. Oğul, mənim axtardığım yer elə buradır. 3. Özünü bircə ondan gözlə. 4. Məsləhət görürəm ki, öz yolunla düz keçib gedəsən. 5. Ay bala, aman-zaman gözümün ağı-qarası bir oğlum var. 6. Əgər məclisdə belə igid varsa, qoy dursun, baxım tanıyım, sonra da özünə layiq tərifini deyim.

YADDA SAXLA Ədatların orfoqrafiyası

Ədatların əksəriyyəti ayrı yazılır.

-sana², -ca² ədatları bitişik yazılır: *A Kos-Kosa gəlsənə, gəlib salam versənə. Bircə bacım var.*

-mı⁴ sual ədatı da, əsasən, bitişik yazılır: *Təzədirmi?*

Lakin o, *-da, -də* bağlayıcısından sonra gələndə ayrı yazılır: *Sən də mi narahatsan. O yenə də mi qayıdacaq?*

7. *-ca²* sonluğu ilə işlənən sözlərdə bu sonluğun qrammatik funksiyasını araşdırın.

1. Savadca üstündür. 2. Sakitcə dayanmışdıq. 3. İngiliscə danışa bilir. 4. Məncə, qalib gələcəyik. 5. Zorbaca kişidir. 6. Dəryaca ağlı var. 7. İndicə gəldi. 8. Uşaqca bacarığın olmadı.

Hansı cümlədə *-ca²*:

A) qüvvətləndirici ədatdır? _____

B) zərf düzəldən şəkilçidir? _____

C) *görə* qoşmasının sinonimidir? _____

D) *qədər* qoşmasının sinonimidir? _____

8. Verilmiş cümlələrdə *da* sözünün qrammatik funksiyasını araşdırın.

1. İnsan dünyadan böyükdür, ancaq Yaradan ondan da böyükdür. (F.Giber) 2. Nə qədər vurdularsa, zalımın səsi də çıxmadı. 3. İnsan öz atasından köməklə yanaşı, dostluq da umur. (S.Sabançı). 4. Demişdim də, bu işin axırı yoxdur.

Hansı cümlədə *da*:

A) bağlayıcıdır? _____

B) *Daha* ədatının sinonimidir? _____

C) *Belə* ədatının sinonimidir? _____

D) *Axı* ədatının sinonimidir? _____

Bəlkə, yoxsa bəlgə?

Hazırlıq

Küləklər harda yatır, görəsən?
Buludlar hardan yığır göz yaşını
Hava ayaz olanda?
Çaylar harda dincəlir, görəsən?
İldırımlar niyə belə tez sönür?
Ən uzaq ulduzlardan o yana
Nə var, kim var, görəsən?
Harda yaşayır ölüm?
Götürüm gəncliyimi,
Axtarıb tapım onu,
Öldürüm.

(Rəsul Rza)

Şeirdə işlənən "görəsən" sözünə diqqət yetirin. Müəllif bu sözü nə məqsədlə işlədib? O sözü ixtisar etsək, cümlədəki məna dəyişərmi?

Sözlük

Ayaz - buludsuz gecələrdə şaxta, quru soyuq
Təbir - ifadə, cümlə

1. Cümlələri oxuyun və altından xətt çəkilmiş sözlərin hansı məna çaları ifadə etdiyini müəyyənləşdirin.

A. Vətən, <u>sanki</u>, bizi köməyə səsləyir.

B. Uzun axtarışlardan sonra, <u>nəhayət</u>, bu maddəni əldə etməyin sirrini öyrəndim.

C. <u>Doğrusu</u>, sənin belə qəti qərar qəbul edəcəyini gözləmirdim.

D. Bütün gördüklərim, <u>olmaya</u>, yuxu imiş.

E. <u>Axır ki</u>, çoban sürünü çaydan keçirə bildi.

Yəqinlik bildirir:	A	B	C	D	E
Güman, şübhə bildirir:	A	B	C	D	E
Nəticə ifadə edir:	A	B	C	D	E
Bənzətmə bildirir:	A	B	C	D	E

YADDA SAXLA Modal sözlərin məna növləri

Danışanın ifadə etdiyi fikrə münasibət bildirən köməkçi nitq hissəsinə **modal sözlər** deyilir. Bu münasibətdən asılı olaraq modal sözlər mənasına görə bir neçə növə bölünür.

1) Əminlik (yəqinlik) bildirənlər: *sözsüz, əlbəttə, şübhəsiz, düzü, doğrusu, düzdür, doğrudur, həqiqətən, həqiqətən də.*
Əlbəttə, sən haqlısan. Doğrusu, bu iş sənə görə deyil.

2) Güman, şübhə bildirənlər: *deyəsən, görəsən, bəlkə (də), güman (ki), görünür (ki), yoxsa, olmaya, yəqin (ki), ehtimal (ki).*
Görünür ki, məni unutmusan. Olmaya, geri dönmək istəyirsən?

3) Nəticə bildirənlər: *deməli, axır ki, xülasə, nəhayət, beləliklə, bir sözlə, müxtəsər, demək, qərəz, ümumiyyətlə.*
Beləliklə, arzularımız gerçəkləşdi. Axır ki, görüşə bildik.

4) Sıra və ardıcıllıq bildirənlər: *birincisi, ikincisi, əvvəla.*
Birincisi, təbiət özü gözəldir, ikincisi, onu seyr edənlərin zövqü yüksəkdir.

5) Təəssüf bildirənlər: *heyif ki, təəssüf ki, əfsus ki.*
Təəssüf ki, o yerləri sən görmədin.

6) Fikrin mənbəyini bildirənlər: *məncə, səncə, bizcə, fikrimcə, fikrimizcə, mənə görə.*
Məncə, deyilənlər kifayətdir.

7) Bənzətmə və ya müqayisə bildirənlər: *sanki, elə bil, elə bil(ki), guya(ki).*
Hər oxuduğum şeir, sanki, ruhumu dincəldir.

2. Modal sözlərin məna növlərinə aid nümunələrdə səhvlərə yol verilmişdir. Səhv nümunələri tapıb, uyğun gələni ilə əvəz edin.

1) Təsdiq bildirənlər: *deyəsən, əlbəttə, sözsüz.*
2) Güman, şübhə bildirənlər: *axır ki, bəlkə, birincisi.*
3) Nəticə bildirənlər: *məncə, bir sözlə, nəhayət.*
4) Fikrin mənbəyini bildirənlər: *bizcə, zənnimizcə, fikrimcə.*
5) Bənzətmə və müqayisə bildirən: *sanki, deməli, guya.*

➢ Hansı sırada səhv yoxdur?

Diqqət!

Xülasə sözü modal söz və isim kimi işlənə bilər. Modal söz kimi işləndikdə vurğu birinci, isim kimi işləndikdə sonuncu hecaya düşür. *Xülasə,* (modal söz) *işlər qaydasına düşdü. Kitabın sonunda ingilis dilində xülasə* (isim) *verilmişdi.*

3. Cümlələrdə buraxılan modal sözləri məna növünü nəzərə almaqla yerinə yazın.

şübhəsiz, əfsus ki, zənnimcə, beləliklə, düzü, elə bil

1. ..., *bu iş müvəffəqiyyətlə başa çatdı.*
2. *Bu gün,* ..., *sən onunla görüşsən, yaxşı olardı.*
3. ..., *qəlbimdən gələn səs məni irəli getməyə qoymurdu.*
4. ..., *Koroğlunun bu işdə təqsiri yox idi.*
5. *Səni,* ..., *gec gördüm.*
6. ..., *ömrün hər dəqiqəsi sərvətdir.*

YADDA SAXLA Modal sözlərin digər nitq hissələri ilə oxşarlığı

- *Düzü*
  - modal söz - *Düzü, bu hərəkətimə peşmanam.*
  - sifət - *Düzü səhvdən ayırmaq lazımdır.*
  - isim - *Mil düzü cənnətə dönməlidir.*
- *Birincisi*
  - modal söz - *Birincisi, sən günahkarsan.*
  - say - *Uşaqlardan birincisi irəli çıxdı.*
- *Demək*
  - modal söz - *Demək, sənin xəbərin yoxdur.*
  - fel - *Bu sözü vaxtında demək lazım idi.*
- *Təəssüf*
  - modal söz - *Təəssüf, işi qurtara bilmədik.*
  - isim - *Təəssüf hissi məni tərk etmirdi.*

4. Verilmiş cümlələrdə altından xətt çəkilmiş sözlərin modal söz, yoxsa başqa nitq hissəsi olduğunu müəyyənləşdirin.

1. Sözü gərək vaxtında deyəsən. 2. Mənəvi saflıq, doğrudan, ən böyük sərvətdir. 3. Mənca, sən də uğur qazanacaqsan. 4. Təəssüf dolu baxışları üzümə zilləndi. 5. Görünür, məni unutmusan.

5. Debat. Aşağıdakı cümlələrdə işlənən "bəlkə" sözünün hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

1) Bəlkə, sən də narazısan?

2) Bəlkəni əkiblər, bitməyib.

Birinci qrup: 1) Hər ikisi modal sözdür,
İkinci qrup: 2) "Birinci cümlədə modal söz, ikincidə isimdir".

"BƏLKƏ"Nİ ƏKİBLƏR, BİTMƏYİB

Tez-tez "bəlkə" sözünü işlədərək ehtimal irəli sürənlərə etiraz olaraq bu qəribə ifadə işlədilir, yəni "Ehtimalla danışma, dəqiq ol".

İfadə maraqlı bir "söz oyunu" əsasında yaranıb. Burada, əslində, "bəlgə" sözü "bəlkə" sözü ilə əvəz olunmuşdur. Bəlgə əkinlərin arasında boş qalan, əkilməyən yer, mərz (əkin yerinin hüdudunu bildirən nişan) deməkdir. Bu yer daim tapdandığından əkilsə də, heç nə bitməz.

6. Şeirdəki modal sözü tapın və məna növünü müəyyənləşdirin.

A Kos-Kosa, gəlmisən,
Gəlmisən meydana sən.
Almayınca payını
Çəkilmə bir yana sən.
Beş yumurta payındı.
Olmaya, aldanasan.

YADDA SAXLA Modal sözlərin quruluşca növləri

Modal sözlər quruluşca sadə və tərkibi olur.

Sadə modal sözlər bir sözdən ibarət olur: *bəlkə, deyəsən, əvvəla, məncə.*

Tərkibi modal sözlər ayrı yazılanlardır: *bəlkə də, əlbəttə ki, elə bil ki, axır ki.*

7. Verilmiş cümlələrdə sadə modal sözlərin altından bir, tərkibi modal sözlərin altından iki xətt çəkin.

1. Ülkər, deyəsən, bizim gəlişimizi gözləmirdi. 2. Qızım, atanın sözlərini, əlbəttə, unutmayacaqsan. 3. Doğrudan da, hər gecənin bir gündüzü var. 4. Sözsüz ki, siz haqlısınız.

YADDA SAXLA Modal sözlərin orfoqrafiyası

Modal sözlər cümlənin əvvəlində gələrsə, ondan sonra, ortada gələrsə, hər iki tərəfdən, axırda gələrsə, ondan əvvəl vergül işarəsi qoyulur.

Deyəsən, başı qarlı dağlar da baharı arzulayır.
Başı qarlı dağlar, deyəsən, baharı arzulayır.
Başı qarlı dağlar baharı arzulayır, deyəsən.

8. *Qaytarsan o sözləri, sözsüz bir lal olarsan* misrasında altından xətt çəkilmiş sözün modal söz olmadığını sübut edin.

Mətnlə iş. *Mətni oxuyun, modal sözləri tapın və buraxılmış durğu işarələrini yerinə qoyun. Modal sözləri məna növünə görə qruplaşdırın.*

KİTAB ÇAPININ TARİXİ

Kitab çapının ixtirasından əvvəl kitablar əllə yazıldığına görə əvvəla çox baha başa gəlirdi ikincisi də həddən artıq çox vaxt aparırdı. Bir kitabın ərsəyə gəlməsi üçün bəzən illərlə vaxt tələb olunurdu. Bir sözlə kitab çapı uzun müddət insanları düşündürən bir məsələ olmuşdur. Bu işə müxtəlif zamanlarda cəhdlər də göstərilmişdir.

Sözsüz ki bir şeyi kütləvi şəkildə çoxaltmaq üçün əvvəlcə onun qəlibini hazırlamaq lazımdır. Kitab çapında atılan ilk addımlar da güman ki bu sadə ideyanın dərk olunması ilə başlandı.

İlk çap kitabları üçün ehtimal ki taxta qəliblərdən istifadə etmişlər. Taxta lövhənin hamar səthi üzərində mətnin əksinə çevrilmiş (güzgüdəki kimi) təsvirini yazırdılar. Sonra taxtanın üzərində yazılan hərfləri saxlamaqla qalan hissəni bıçaqla kəsib çıxarırdılar. Beləliklə mətnin qabarıq təsviri alınırdı. Onu boyaqla rəngləyir, üstünə vərəq qoyurdular. Taxtadakı rəng vərəqlərə hopurdu və nəhayət mətnin düz əksi alınırdı. Əlbəttə bu çap üsulu çox çətin başa gəlirdi, çünki mətn dəyişdikcə hər dəfə taxta lövhədə minlərlə heroqlif kəsmək lazım gəlirdi.

Sonradan çinlilər ayrı-ayrı şriftlərin gildən qəliblərini hazırlamağa nail oldular. Şübhəsiz bu, kitab çapında böyük nailiyyət idi, çünki artıq hər bir mətn üçün ayrıca qəlib hazırlamaq lazım gəlmirdi, hazır şrift qəliblərini düzgün ardıcıllıqla lövhəyə bərkitmək kifayət idi.

XV əsrdə alman ixtiraçısı İohan Qutenberq (1400-1468) ayrı-ayrı hərflərdən ibarət xüsusi çap forması yaratmağa nail oldu. Onun çap etdiyi ilk kitab "İncil" olmuşdur. Təəssüf ki Qutenberq öz ixtirasının bəhrəsini görə bilmədi və ömrünü aclıq və səfalət içində başa vurdu.

23 Nida

Vay! Vay! Deyəsən, bəşər deyil bu!

Hazırlıq

Cümlələri oxuyun və altından xətt çəkilmiş sözlərin funksiyasını araşdırmağa çalışın.

A) Of, ürəyimdən tikan çıxdı.
B) Vay, atam bilsə, işim bitdi!
C) Ay can-ay can, axşam gəzməyə gedirik!
D) Ay aman, bu nə iş idi, mən düşdüm!
E) Ah, hanı o gözəl günlər?!

Hansı sözlər

- narahatlıq, qorxu bildirir	A	B	C	D	E
- kədər bildirir	A	B	C	D	E
- şadlıq, sevinc bildirir	A	B	C	D	E

Debat. Hansı əlamət bu sözlərin hamısına xasdır?

A) Müəyyən leksik məna çalarına malikdir.
B) Danışanın hal-vəziyyətini, duyğu və hisslərini əks etdirir.

YADDA SAXLA — Nida və onun məna növləri

Danışanın hiss və həyəcanını ifadə edən nitq hissəsinə nida deyilir. Başqa köməkçi nitq hissələrindən fərqli olaraq, nida cümlədə nə məna çaları, nə də sözlər arasında əlaqə yaratmağa xidmət edir, odur ki, bəzən xüsusi nitq hissəsi adlanır.

Nidaların müxtəlif məna növləri var.

1. Sevinc, heyranlıq bildirənlər: *ay can-ay can, bəh-bəh, of, ura, paho, oxqay* və s. *Bəh-bəh, quşlar nə gözəl oxuyur.*

2. Kədər, narahatlıq, qorxu bildirənlər: *ay aman, ah, vay-vay, ox, uf, ay dad və s. Ay aman, bu harada qaldı?*

3. Çağırış bildirənlər: *ey, ay, ya, hey, a. Ey, bura bax.*

4. Təəccüb bildirənlər: *ah, vay, a, bıy və s. Bıy, sən nə vaxt gəldin?*

5. Nifrət, ikrah bildirənlər: *tfu, xa-xa-xa, xox, bah. Xox, qorxdum səndən.*

Diqqət!

Ay, a, ya çağırış nidaları tək işlənmir, onlardan sonra xitab gəlir və vergül xitabdan sonra qoyulur: *Ay qız, cəld ol. A bala, ehtiyatlı get. Ey* nidası həm tək, həm də xitabla işlənə bilər: *Ey, mən burdayam. Sözlərimə qulaq as, ey oğul.*

Nidaların mənalar üzrə təsnifatı kifayət qədər şərtidir. Hər bir nida cümlənin məzmunundan və intonasiyasından asılı olaraq başqa məna növündə də işlənə bilər.

1. Xalq mahnılarından verilmiş parçalarda nidaları tapın və məna növünü müəyyənləşdirin.

Araz axır qıyqacı,
Ay qız, ay qız, ay qız, amandır.

Bülbül bağlarda səs salır; cəh, cəh, cəh!
Güllərin ətrini alır, bəh, bəh, bəh!

Hey!.. Saçları burma, uzaqda durma.
Qıyqacı baxmağın aldı mənim canımı,
Şirindil sözlərin aldı mənim canımı.

2. Hansı cümlələrdə nida isimləşib?

1) Ahına anan qurban, ay bala...
2) Ah, biz bir daha görüşməyəcəyik.
3) Vayda da, toyda da əskik olmaz.
4) Vay, nə yaman qəzəblə baxır.
5) Ay aman, uşağın qızdırması var!
6) Ondan aman gözləmə.

YADDA SAXLA Nidaların orfoqrafiyası

Nidalar cümlənin əvvəlində gəldikdə ondan sonra, ortada gəldikdə hər iki tərəfdən, axırda gəldikdə ondan əvvəl vergül qoyulur.

Ah, mən niyə sənə inandım?!
Bu gün, ah, nə gözəl hava var!
Gül açanda yaz olur, bəh, bəh, bəh!

Nidalar, əsasən, nida cümlələrində işlənir. Bu cümlələrin sonunda çox vaxt nida, bəzən üç nöqtə qoyulur.

KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNƏ DAİR KEÇİLMİŞLƏRİN TƏKRARI

1. Məntiq. Dördündən biri fərqlidir.

1. *a) bəlkə, b) üçün, c) başqa, d) qədər*
2. *a) axı, b) lap, c) ötrü, d) təki*
3. *a) görəsən, b) sarı, c) xülasə, d) doğrudan*
4. *a) lakin, b) o cümlədən, c) əgər, d) məgər*
5. *a) vay, b) kaş, c) ay aman, d) bəh-bəh*

2. Verilmiş köməkçi nitq hissələrini müvafiq sətirlərdə qruplaşdırın.

və, axı, beləliklə, savayı, deyəsən, aha, bəs, çünki, bəli, ən, bəh-bəh, kaş, gəlsənə, əgər, yox, olduqca, qarşı, əlbəttə.

Qoşma: _____

Ədat: _____

Bağlayıcı: _____

Modal sözlər: _____

Nida: _____

3. Hansı bənddə altından xətt çəkilmiş söz qoşmadır?

Qara tellər, qara tellər,
Şəvə <u>kimi</u> qara tellər,
Qıvrılanda qara tellər
Yar könlümü qarət eylər.

Qara gözlər, qara gözlər,
Qapqaradır qara gözlər.
Cilvələnib şux baxanda
Qara gözlər <u>kimi</u> gözlər?

4. Hər bir misrada işlənmiş köməkçi nitq hissəsinin adını müvafiq misranın qarşısında yazın.

Elə yar, yar deyirlər. _____
Heç məni demirlər. _____
Ay sona bülbüllər. _____
Elə bil, yar deyiləm... _____

5. Debat. "*Axmaq fikirlər hamının beynindən keçir, intəhası ağıllı adamlar onu dilə gətirmir*" cümləsində *intəhası* sözü

A) bağlayıcıdır
B) modal sözdür.

Mətnlə iş. İran dövlətinin əsasını kim qoymuşdur?

AH! SOLON! SOLON!

Miladdan öncə VI əsrin ortalarında Asiyada iki böyük dövlət var idi - Midiya və Lidiya. Lidiya dövlətinin hökmdarı Krez adlı bir padşah idi. Deyirlər ki, Krezin var-dövləti başından aşıb-daşırdı. "Krez kimi varlıdır" ifadəsi də o dövrdə yaranıb. Varlı olduğuna görə Krez özünü çox xoşbəxt sayırdı.

Bir gün Krez Afina hakimi Solonu qonaq çağırdı. O, müdrik Solona qızıl və daş-qaşla dolu xəzinəsini göstərib soruşdu:

— Sən mənim qədər xoşbəxt adam tanıyırsanmı?

Solon cavab verdi ki, o, çox adamlar tanıyıb ki, korluq çəkmədən uzun ömür sürüblər və sevimli dostları arasında dünyalarını dəyişiblər. Elə xoşbəxtlər də tanıyıb ki, vətəni uğrunda həlak olublar və həmvətənləri tərəfindən hörmət-izzətlə dəfn ediliblər, indi də hörmətlə yad edilirlər.

— Sən mənim xoşbəxtliyimi bu sadə adamların adi həyatı ilə müqayisə edirsən?

— Padşah, sənin xoşbəxtliyin haqqında o vaxt danışmaq olar ki, yaşadığın kimi də ömrünü başa vura biləsən.

Krez Solonun sözlərindən o qədər də xoşlanmadı. Ancaq bu sözləri yadında saxladı...

Bir neçə il keçdi. Midiyada fars əsilli Kir öz babası Astiaqı devirib İran Əhəmənilər dövlətini yaratdıqdan sonra Lidiya ilə İran arasında müharibə başladı və Krez döyüşlərdən birində farslara əsir düşdü.

Kir əmr etdi ki, Krezi tonqalda yandırsınlar. Krezi tonqalın yanına gətirəndə Solonun sözləri onun yadına düşdü və o, kədərli səslə qışqırdı:

— Ah! Solon! Solon!

Krezin qışqırtısını eşidən Kir əmr etdi ki, onu yanına gətirsinlər. Krez vaxtilə Solonla olan söhbətini Kirə danışdıqda Əhəməni hökmdarı onu bağışladı.

Sonralar Kir Tomrisə qarşı müharibə edərkən Krez onun yanında məsləhətçi olmuşdu.

➢ *Mətnin başlığında işlənmiş nida hansı hissi ifadə edir?*

A) sevinc
B) kədər
C) narahatlıq
D) qorxu
E) təəccüb

➢ *Mavi rəngdə verilmiş sözlər arasında fərqlənəni göstərin.*

➢ *Qırmızı rəngdə verilmiş sözlərin hansında ilə bağlayıcısı işlənib?*

KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ BƏHSİ ÜZRƏ

ÖZÜNÜ YOXLA

1. Deyilənlərin hansı nitq hissələrinə aid olduğunu müəyyən et.
Q - qoşma, B - bağlayıcı, Ə - ədat, M - modal söz, N - nida

- sözləri və cümlələri bir-birinə bağlayır Q B Ə M N
- hiss-həyəcanı ifadə edir Q B Ə M N
- sözlərin, cümlələrin təsir gücünü artırır Q B Ə M N
- danışanın fikrə münasibətini bildirir Q B Ə M N
- müəyyən məna çaları yaradır Q B Ə M N

2. Qoşma ismin hansı halında olan sözlərə qoşulmur?

3. "Kimi" qoşmasını "kimi" qeyri-müəyyən əvəzliyi ilə omonim hesab etmək olarmı?

4. «*Döyüşə qəhrəman tək getdi*» cümləsində «tək» sözü zərfdir, yoxsa qoşma?

5. «*Dizəcən qara batmış oğlan üçün isti bir otaq küncündən başqa heç nə lazım deyildi*» cümləsində

-cən qoşması
A) məsafə bildirir
B) istiqamət bildirir

üçün qoşması
A) səbəb-məqsəd bildirir
B) istinad bildirir

başqa qoşması
A) bənzətmə bildirir
B) fərqlənmə bildirir

6. Qoşmalardan hansı həm bənzətmə, həm də məsafə mənasında işlənə bilir: a) ilə, b) kimi , c) başqa?

7. Tərəf, doğru, ...
Hansı qoşma ardıcıllığı davam etdirə bilər?
A) əvvəl
B) sarı
C) başqa
D) qədər

8. Cümlənin həmcins üzvləri arasında hansı bağlayıcılar ola bilməz: tabelilik, yoxsa tabesizlik bağlayıcıları?

9. ancaq, fəqət, lakin...
Hansı bağlayıcı ardıcıllığı davam etdirə bilər?
A) hətta
B) həmçinin
C) amma
D) habelə

10. Dördündən biri fərqlidir:
1) aydınlaşdırma bağlayıcıları
2) bölüşdürmə bağlayıcıları
3) qarşılaşdırma bağlayıcıları
4) birləşdirmə bağlayıcıları

11. Həm ədat, həm də bağlayıcı olanları seç.
yoxsa, ki, yəni, çünki, da

12. Hansı ədatla işlənən fel, adətən, arzu şəklində olur?
A) gəlsənə
B) di
C) məhz
D) kaş

13. Hansı say həm də ədatdır?
A) bir
B) iki
C) beş
D) yeddi

14. Hansı ədatlar sifətin çoxaltma dərəcəsini düzəldir?

13. *-Ca²* ədatı *-ca²* qoşmasından fərqli olaraq
A) vurğu qəbul edir
B) vurğu qəbul etmir

15. Hansı ədatlar sözlərə bitişik yazılır?

16. Hansı modal sözün omonimi "əsərin qısaca məzmunu" mənasını verir?

17. *Şəxs əvəzliyi + -ca² qoşması* modelinə uyğun gələn sözlər modal sözlərin hansı məna qrupuna aiddir?

18. "Düzü", "birincisi", "demək" modal sözlərini omonim hesab etmək olarmı? Cavabınızı əsaslandırın.

19. *Ay, a, ya* nidaları işləndiyi sözlə birlikdə cümlədə hansı vəzifəni daşıyır?

KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ BƏHSİ ÜZRƏ

QİYMƏTLƏNDİRMƏ

1. Yalnız qoşma kimi işlənən sözlər hansı sıradadır?
A) üçün, ötrü, savayı
B) kimi, qədər, tək
C) sonra, əvvəl, qabaq
D) doğru, sarı. tərəf
E) ilə, başqa, qeyri

2. Sözlərin birində –ca[2] qoşmadır.
A) xırdaca
B) körpəcə
C) dəryaca
D) yavaşca
E) indicə

3. Həm qoşma, həm sifət, həm də zərf kimi işlənən söz hansıdır?
A) sarı
B) tərəf
C) başqa
D) doğru
E) qeyri

4. Qoşmalardan biri həm bitişik, həm də ayrı yazılır:
A) tək
B) -ca
C) ilə
D) -can[2]
E) -dək

5. *«Biz onun barəsində dostundan başqa kimsə ilə danışmadıq»* cümləsində qoşmaların məna növlərini müəyyənləşdirin.
A) fərqləndirmə, aidlik
B) birgəlik, məsafə
C) aidlik, birgəlik
D) fərqləndirmə, birgəlik, zaman
E) aidlik, fərqləndirmə, birgəlik

6. Cümlələrin birində «lap» ədatı saya aiddir.
A) Mən onu görəndə lap uşaq olardı.
B) Tədbirin başlanmasına lap az vaxt qalmışdı.
C) Səyyahların ərzağı və suyu lap azalmışdı.
D) İmtahanda uğur qazanmaq üçün lap çox oxumaq lazımdır.
E) Təhlükə bizə lap yaxın idi.

7. Əvəzlik və ədat kimi işlənə bilən sözləri seçin:
A) bax, qoy, gəl, gör.
B) belə, elə, necə, nə
C) təkcə. belə, ancaq
D) biz, tək, hətta
E) amma, ki, da, də

8. Biri həm nida, həm də fel kimi işlənir.
A) of
B) ah
C) vay
D) oy
E) bıy

9. Nömrələnmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.
Bir(1) deyən olmadı, durun, ağalar!
Axı(2) bu ölkənin öz sahibi var.
Siz nə(3) yazırsınız bayaqdan bəri(4),
Bəs(5) hanı bu yurdun öz sahibləri? (B.Vahabzadə)
A) 1 - say, 2 - ədat, 3 - ədat, 4 - qoşma, 5 - əvəzlik
B) 1 - ədat, 2 - ədat, 3 - əvəzlik, 4 - qoşma, 5 - ədat
C) 1 - ədat, 2 - ədat, 3 - əvəzlik, 4 - zərf, 5 - ədat
D) 1 - say, 2 - əvəzlik, 3 - əvəzlik, 4 - qoşma, 5 - ədat
E) 1 - ədat, 2 - modal söz, 3 - əvəzlik, 4 - zərf, 5 - ədat

10. «Ki» bağlayıcısı işlənmiş cümləni tapın.
A) Evə gec gəlməyəcəksən ki?
B) Məktəbə ona görə getdim ki, elm öyrənim.
C) Madam ki, istəmir, qoy getməsin.
D) Mən ki səni yaxşı tanıyıram.
E) İndi ki belə oldu, biz də öz bildiyimizi edərik.

MORFOLOGİYA BƏHSİ ÜZRƏ TƏKRAR

1. Aşağıdakı cümlələrdə *hələ* sözünün hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

1. Hələ 700 il bundan əvvəl Azərbaycanda Rəb-e-Rəşidi adlı universitet mövcud idi.

2. XIV əsrin sonuna qədər bu universitet hələ fəaliyyət göstərirdi.

2. Verilmiş atalar sözlərində *səhər* və *axşam* sözlərinin hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin və fikrinizi əsaslandırın.

1. Səhər gününə qızınmayan axşam gününə qızınmaz.

2. Səhər gedər naxıra, axşam gələr axura.

3. Debat. Verilmiş cümlədə *-ca²* sonluğunun qrammatik funksiyası ilə bağlı fikirlərinizi bildirin.

Xalqı arxasınca aparmaq istəyən axırda özü xalqın dalınca düşməli olur.

A) Zərf düzəldən şəkilçidir. Yer zərfi düzəldib.
B) Qoşmadır. *İlə* qoşmasının sinonimidir.

Mətnlə iş. "Şanə" sözünün mənasını araşdırın.

ŞANAPİPİK QUŞU

Şanapipik əvvəllər gəlin imiş. Bir dəfə başını yuyurmuş. Bu vaxt qayınatası içəri girir. Gəlin utanır. Allaha yalvarıb deyir:

- Ay Allah, qayınatam saçlarımı gördüsə, mən xəcalətdən onun üzünə baxa bilmərəm; məni ya daş elə, ya da quş.

Gəlin quşa çevrilir. Darağı başında qalır, şanapipik olur. Şanapipik çöldə yaşasa da, abadlıqdan çox uzağa getmir, axı onun gözü istəkli ərində, doğma evində qalıb.

➢ *Sizcə, nəyə görə "şanapipik" sözündə "şanə" əvəzinə "şana" deyilir? Bu sinonim sözlərdən hansı türk mənşəli sözdür: "şanə", yoxsa "daraq"?*

➢ *Altından xətt çəkilmiş sözlərdən hansı*
- felin şərt şəklindədir? _____
- fel şəkillərinin şərtindədir? _____

4. Cümlələrin hansında "*oxutmaq*" feli icbar növdədir? Fikrinizi əsaslandırın. Sözlərin leksik mənalarına diqqət yetirin.

1. Müəllim mətni oxutdu.

2. Oğul mənimdir əgər, oxutmuram əl çəkin. (M.Ə.Sabir)

5. Debat. *Pəncərə açıldı, İmtahandan kəsildi* cümlələrində "*açıldı*", "*kəsildi*" felləri hansı növə aiddir: məchul, yoxsa qayıdış?

6. *Qızıl taxtın olunca qızıl baxtın olsun* cümləsindəki sözlərlə bağlı doğru və yanlış fikirləri müvafiq xanalarda qeyd edin.

	D	Y
1. *Qızıl* sifət məqamında işlənən isimdir.	☐	☐
2. *Taxtın* yiyəlik halda olan isimdir.	☐	☐
3. *Baxtın* adlıq halda olan isimdir.	☐	☐
4. *Olunca* zaman zərfidir.	☐	☐
5. Cümlənin xəbəri mürəkkəb fellə ifadə olunub.	☐	☐
6. *Taxtın* və *baxtın* mənsubiyyət şəkilçisi qəbul edib.	☐	☐

7. Cümlələrin qarşısında altından xətt çəkilmiş sözün hansı nitq hissəsinə aid olduğunu göstərin.

1. Zərintac çox qocalmışdı. _____

2. Uşaqlar bu söhbətdən çox şey öyrəndilər. _____

3. Elə bu vaxt uzaqda bir atlı göründü. _____

4. Elə rayonlarımız var ki, geniş turizm imkanlarına malikdir. _____

5. Nə olar, qoy o da sizinlə getsin. _____

6. Oğlum, çörəyi öp, gözlərinin üstünə qoy. _____

7. Necə qəribə yuxu idi. _____

8. Atam necə istəyir, elə də olacaq. _____

9. Mən ki damdan, bacadan baxmaz idim. (M.Ə.Sabir) _____

10. Kolumb elə bilirdi ki, buralar Hindistan torpağıdır. _____

8. Debat. *Hər oxuyan Molla Pənah olmaz* cümləsində təyini əvəzlik

A) zərfi əvəz edib

B) sifəti əvəz edib

Mətnlə iş. Ü.Hacıbəyovun "O olmasın, bu olsun" operettasından Məşədi İbadın monoloqunu oxuyun və tapşırıqları yerinə yetirin.

Zarafat deyildir, bir ətək pul verirəm, bir baxım görüm, mal nə cür maldır, verdiyim pula dəyərmi? A kişi, bircə mən bilmədim ki, camaat mənim harama qoca deyir! Vallah, görünür ki, xalqın gözü pis görür. Budur, bu ayna, bu da mən. Allaha şükür, dişlərim hamısı cəbəca, saqqalım da qapqara, şəvə kimi. Deyəsən, burda bir dənə ağ tük vardır. Gərək dartam çıxsın. A zəhrimar!.. Görünür ki, heyvan balası dəllək hənanı pis yaxıbdır. Puf!.. Rədd ol, şarlatan!.. Qoca odur ki, dişləri olmaya, gözü görməyə, qulaqları eşitməyə, özü də yerindən tərpənə bilməyə; mən ki, əlhəmdülillah, quş kimiyəm. Maşallah deyim ki, göz dəyməsin. Özüm də əlli yaşım ya ola, ya **olmaya**... Yaxşı, indi mən papağımı nə cür qoyum ki, qızın xoşuna gəlsin. Hərgah belə qoysam, onda qız qorxar, elə bilər ki, Bakı qoçusuyam. Əyər belə qoysam, onda da qız ürkər, elə bilər ki, Qarabağın pambıq bəylərindənəm. Bəs nə tövr qoyum? Hamısından yaxşısı budur ki, başıaçıq oturam, onda qızın xoşuna gələr, elə bilər ki, abrazavonnıyam. Doğrudan da, mən bir qədər abrazavonnıyam, çünki uruslar mən ilə çox alış-veriş eyləyiblər və mən onlardan urus dilini də yaxşı öyrənmişəm. Aha, deyəsən, qız gəlir...

➢ *Altından xətt çəkilmiş köməkçi nitq hissələrini aşağıdakı cədvələ uyğun qruplaşdırın.*

Qoşma	Bağlayıcı	Ədat	Modal söz	Nida

➢ *Eyni rəngdə verilmiş sözlər arasında morfoloji baxımdan fərqlənəni tapın.*

➢ Debat. *Şriftlə fərqləndirilmiş "olmaya" sözü*
A) Modal sözdür.
B) Feldir.

9. Verilmiş misralarda *bəri* sözünün qrammatik xüsusiyyətləri arasındakı fərqi izah edin.

1. Pəncərədən daş gəlir,
Ay bəri bax, bəri bax. (xalq mahnısı)

2. Axşamdan bəridir könlümdə yenə
Hirsli fırtınalar, qasırğalar var. (S.Vurğun)

10. S.Vurğunun "Ellər dünyası" şeirindən aşağıdakı bəndləri oxuyun və suallara cavab verin.

Al-yaşıl geyinmiş uca dağların
Qartallı qoynundan uzaqlaşmışam;
Könül bulandıran, xəyal küsdürən
Tozlu bir diyarla qucaqlaşmışam.

Burada hər tərəf yerdən göyədək,
Doğrudan, yandırır, yaxır insanı.
Acı bir hiss ilə gülümsəyərək,
Deyirəm, gəzdiyim o yerlər hanı.

➢ I bənddəki *uzaqlaşmışam* və *qucaqlaşmışam* fellərinin qrammatik xüsusiyyətləri arasındakı ən azı iki fərqi göstərin.

➢ I bənddə işlənmiş sifətlər və feli sifətlər haqqında deyilənlərdən hansı səhvdir?

A) Dörd sifət, üç feli sifət var.
B) Feli sifətlərin hamısı təsirli fellərdir.
C) Sifətlərdən biri zərf məqamında işlənmişdir.
D) Feli sifətlərdən biri qayıdış, ikisi icbar növdədir.
E) Feli sifətlərin hamısı tərkib yaradıb.

➢ Şeirin II bəndində neçə köməkçi nitq hissəsi və neçə əvəzlik işlənmişdir?

Mətnlə iş. Mətni oxuyun və suala cavab verin.

YANAR DAĞ

Digah qəsəbəsinin yaxınlığında yerləşən ərazi xalq arasında Yanar dağ kimi məşhurdur. Əslində, bu, dağ yox, yüksəklikdir və uzaqdan o qədər də diqqəti cəlb etmir. Buraya yalnız yaxınlaşdıqda görürsən ki, alov alçaqdan yerin üstü ilə bir təpəcikdən digər təpəciyə tərəf sürünür. Gah orda, gah burda peyda olan alovun dilləri özündən sonra sönməkdə olan alovun müəmmalı naxışlarını buraxaraq, yerin altına çəkilir. Buranın müalicəvi əhəmiyyətini yerli ağsaqqallar da qeyd edirlər. Alimlər belə izah edirlər ki, yerin altında dağyaradıcı proseslər gedərkən qazın böyük həcmdə yerin üzünə çıxması müşahidə olunur.

Təsadüfi deyil ki, Azərbaycan Odlar yurdu adlanır.

➢ *Eyni rəngdə olan sözlər arasında hansı morfoloji baxımdan digərlərindən fərqlidir?*

MƏTNİN KOMPLEKS TƏHLİLİ

XV-XVI əsrlərdə yaşamış görkəmli şair Həbibinin uşaqlığı haqqında belə danışırlar:

Bir gün Sultan Yaqub ova çıxarkən çöldə quzu otaran bir uşağa rast gəlir. Atını uşağın yanına sürüb quzuların kimə məxsus olduğunu soruşur. Uşaq dinmir. Sultan Yaqub təkrar sual verir:

- Bu quzular kimindir?

Uşaq cavab verir:

- Kimin olacaq? Qoyunların.

Sultan Yaqub hirslənir. Sonra özünü ələ alıb soruşur:

- Ay uşaq, kəndinizin böyükləri kimlərdir?
- Öküzlər hamıdan böyükdür.
- A bala, deyirəm, yəni kəndə gələnləri, adətən, kim qarşılayır?
- Yad adamların qabağına birinci olaraq itlər yüyürür.

➢ Mətnə ad qoyun.

➢ Debat. Mətnin janrını və üslubunu müəyyən edin.

Janr etibarilə: A) lətifədir,
B) rəvayətdir.

Üslubuna görə: A) bədii üslubda yazılıb,
B) məişət üslubunda yazılıb.

➢ Hökmdarın yerinə olsaydınız, uşaqla necə rəftar edərdiniz? (Seçiminizi əsaslandırın)

A) Ona fiziki cəza verərdim.
B) Əhəmiyyət verməyib yoluma davam edərdim.
C) Sarayıma aparıb təhsili ilə məşğul olardım.

➢ Göy rənglə verilmiş sözlərin tələffüz şəklini müəyyənləşdirin.

➢ Mətndə xəbər şəklində olan fellər hansı zamana aiddir?

➢ 1-ci cümlədəki "belə" əvəzliyi hansı nitq hissəsini əvəz edib?

➢ Mətndən çıxış edərək sübut edin ki, yiyəlik halda olan sözlər ayrılıqda yalnız cümlənin xəbəri ola bilir.

➢ Altından xətt çəkilmiş "böyükləri" sözünü morfoloji təhlil edin.

➢ 2-ci abzasdakı feli bağlama və feli sifət tərkiblərinin hansı cümlə üzvü olduğunu müəyyənləşdirin.

ALİMİN SUALI

Bir dəfə gecədən **xeyli keçmiş** görkəmli alim E.Rezerford laboratoriyaya gəlir və əməkdaşlardan birinin burada məşğul olduğunu görüb soruşur:

- Bu vaxt burada nə edirsiniz?
- İşləyirəm.
- Bəs gündüz nə ilə məşğul idiniz?
- İşləyirdim.
- Səhər də işləyirdiniz?
- Əlbəttə, professor, səhər də işləyirdim.

Professor qaşlarını çatıb əsəbi halda soruşur:

- Cavan oğlan, bəs siz nə vaxt ...?

➢ Sizcə, alim sualını hansı sözlə tamamladı? (Seçiminizi əsaslandırın)

A) dincəlirsiniz
B) düşünürsünüz
C) sevirsiniz
D) televizora baxırsınız

➢ Mətnin janrını müəyyən edin.

➢ Hansı aforizm mətnin məzmununa uyğundur?

A) Hər şeyi dərk etmək olar, təkcə özünü dərk edə bilməzsən. (C.Steynbek)
B) Yalnız düşünərək görülən iş xeyirlə bitir. (Sokrat)
C) Bəd əməllərin kökü bəd fikirlərdir. (L.Tolstoy)
D) Mən düşünürəm, demək, mən varam. (R.Dekart)
E) Cismani gücsüzlük böyük fikirlərə mane ola bilməz. (Budda)

➢ Mətnin 1-ci cümləsində feli bağlama tərkibindəki feli sifət tərkibini müəyyənləşdirin.

➢ Mətnin 1-ci sətrindəki "xeyli" sözünün hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

➢ Mətnin 1-ci sətrindəki "keçmiş" sözünün feli sifət, yoxsa feli bağlama olduğunu aydınlaşdırın.

➢ Altından xətt çəkilmiş "əlbəttə" sözündən sonra vergülün işlənməsinin iki səbəbini göstərin.

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN
VII SİNFİ ÜÇÜN AZƏRBAYCAN DİLİ
PROQRAMI

Təhsil Nazirliyinin 09.10.2002-ci il tarixli 967 nömrəli əmri ilə təsdiq edilmişdir.

Həftədə 4 saat hesabı ilə cəmi 128 saat

VI sinifdə keçilmişlərin təkrarı (4 saat)

FEL (43 SAAT)

Fel haqqında ümumi məlumat. Fel əsas nitq hissəsi kimi. Felin qrammatik mənası, hərəkət bildirməsi, cümlədə rolu. Felin quruluşca növləri. Sadə fellər, düzəltmə fellər, mürəkkəb fellər: deyib-gülmək, oturub-durmaq, yazıb-yaratmaq, gedib-gəlmək.

Felin təsdiq və inkarı. İnkar fellərin -ma, -mə şəkilçisi ilə formalaşması. Oxu-oxuma, yaz-yazma, gəl-gəlmə, bil-bilmə. -ma, -mə şəkilçili sözlərin tələffüzdə vurğu ilə fərqləndirilməsi: gəlmə(fel), gəlmə(sifət).

Təsirli və təsirsiz fellər. Fellərin bu növlərinin ismin təsirlik halını tələb edib-etməməyə görə müəyyənləşdirilməsi. İsmin təsirlik halını tələb edən fellərin təsirli olması. İsmin təsirlik halını tələb etməyən fellərin təsirsiz olması.

Felin qrammatik məna növləri. Məlum növ, məchul növ, qayıdış növ, qarşılıq növ, icbar növ. Felin məna növlərinin şəkilçiləri, mənaları, xüsusiyyətləri.

Felin təsriflənən və təsriflənməyən formaları. Fel formalarının şəxsə, kəmiyyətə və zamana görə dəyişə bilib-bilməməsi. Bu cəhətdən onların növləri: təsriflənən fellər, təsriflənməyən fellər. Təsriflənən fellərin şəxsə, kəmiyyətə görə dəyişməsi onların əsas xüsusiyyətləri kimi. Təsriflənməyən fellərin şəxsə, kəmiyyətə və zamana görə dəyişə bilməməsi.

Felin şəxsə və kəmiyyətə görə dəyişməsi. Şəxs sonluqları. Görürəm (birinci şəxs tək), görürsən (ikinci şəxs tək), görür (üçüncü şəxs tək), görürük (birinci şəxs cəm), görürsünüz (ikinci şəxs cəm), görürlər (üçüncü şəxs cəm).

Felin zamanları. Felin zamanları haqqında ümumi anlayış. Felin indiki zamanı, qrammatik mənası, şəkilçisi. Felin keçmiş zamanı, qrammatik mənası. Keçmiş zamanın növləri. Şühudi keçmiş zaman: qrammatik mənası, şəkilçisi. Nəqli keçmiş zaman: qrammatik mənası, şəkilçisi. Felin gələcək zamanı, qrammatik mənası. Gələcək zamanın növləri. Qəti gələcək zaman: qrammatik mənası, şəkilçisi. Qeyri-qəti gələcək zaman: qrammatik mənası, şəkilçisi. Qeyri-qəti gələcək zamanın inkarında şəkilçinin r səsinin z səsi ilə əvəz olunması (oxuyarsan-oxumazsan, oxuyarsınız-oxumazsınız,

oxuyar-oxumaz, oxuyarlar-oxumazlar). Bunun ikinci və üçüncü şəxsdə baş verməsi.

Felin zamanlarına aid qrammatik təhlil.

Felin şəkilləri. Ümumi məlumat. Fel şəkillərinin növləri: felin əmr şəkli, felin xəbər şəkli, felin vacib şəkli, felin lazım şəkli, felin arzu şəkli, felin şərt şəkli.

Felin əmr şəkli. Mənası. Xüsusi qrammatik əlamətinin olmaması. Zamanlara görə dəyişə bilməməsi. Məzmununda gələcək zaman anlayışının olması. Şəxs sonluqları qəbul edərək şəxslərə görə dəyişməsi.

Felin xəbər şəkli. Xüsusi qrammatik əlamətinin olmaması. Zaman şəkilçiləri və şəxs sonluqları qəbul edərək zamana və şəxsə görə dəyişməsi.

Felin vacib şəkli. Mənası. Xüsusi qrammatik əlaməti: -malı, -məli şəkilçiləri. Zaman şəkilçiləri qəbul etməməsi və zamanlar üzrə dəyişə bilməməsi. Məzmununda gələcək zaman anlayışının olması. Şəxs sonluqları qəbul edərək şəxsə görə dəyişməsi.

Felin lazım şəkli. Qrammatik əlaməti: -ası, -əsi şəkilçiləri. Zamanlara görə dəyişə bilməməsi. Məzmununda gələcək zaman anlayışının olması. Şəxs sonluqları qəbul edərək şəxsə görə dəyişməsi.

Felin arzu şəkli. Qrammatik əlaməti: -a, -ə şəkilçiləri. Mənası. Felin zamanlarına görə dəyişə bilməməsi. Məzmununda gələcək zaman anlayışının olması. Şəxs sonluqları qəbul edərək şəxsə görə dəyişməsi.

Felin şərt şəkli. Qrammatik əlaməti: -sa, -sə şəkilçiləri. Mənası. Felin zamanlarına görə dəyişə bilməməsi. Məzmununda gələcək zaman anlayışının olması. Şəxs sonluqları qəbul edərək şəxsə görə dəyişməsi.

Felin şəkillərinə aid qrammatik təhlil.

Felin təsriflənməyən formaları: məsdər, feli sifət, feli bağlama. Bu formaların, felin təsriflənən formalarından fərqli olaraq, şəxsə və kəmiyyətə görə dəyişə bilməmələri.

Məsdər. Məsdər felin xüsusi forması kimi. Qrammatik əlaməti (-maq, -mək). Hərəkətin adını bildirməsi. Lüğətlərdə fellərin bu formada qeyd edilməsi.

Məsdərin ikili xüsusiyyəti. Felə və ismə məxsus xüsusiyyətlər: a) felə məxsus xüsusiyyətlər: hərəkət bildirməsi, təsdiq və inkar, təsirli və təsirsiz olması, felin qrammatik məna növləri üzrə dəyişə bilməsi; b) ismə məxsus xüsusiyyətlər: nə? – sualına cavab olması, hallana bilməsi, mənsubiyyətə görə dəyişməsi, cümlədə isim kimi mübtəda, tamamlıq, zərflik və ismi xəbər olması.

Feli sifət. Feli sifət felin xüsusi forması kimi. Qrammatik əlamətləri: əsas şəkilçiləri: -mış^4, -dığım^4, -an^2. Feli sifətlərin isimlərlə işlənməsi.

Feli sifətin ikili xüsusiyyəti. Felə və sifətə aid xüsusiyyətləri: a) felə aid xüsusiyyətlər: hərəkət bildirməsi, təsdiq və inkar, təsirli və təsirsiz olması, felin qrammatik məna növləri üzrə dəyişə bilməsi; b) sifətə aid xüsusiyyətlər: sifət kimi ismin əvvəlində gələrək əşyanın əlamətini bildirməsi, cümlədə təyin

kimi çıxış etməsi, sifət kimi substantivləşə bilməsi və bu vaxt cümlədə isim kimi çıxış etməsi.

Feli bağlama. Feli bağlama felin xüsusi forması kimi. Daha çox işlənən şəkilçiləri; -anda[2]; -ıb[4]; -araq[2]; -a[2]; -madan[2]; -dıqda[4]; -ınca[4]; -dıqca[4]. Feli bağlamaların qrammatik rolu. Başqa fellərə aid olub, həmin fellərin ifadə etdiyi hərəkəti izah etməsi.

-ıb, -ib, -ub, -üb şəkilçisinin həm feli bağlama, həm də felin keçmiş zaman şəkilçisi kimi işlənməsi.

Feli bağlamaların ikili xüsusiyyəti. Felə və zərfə aid xüsusiyyətləri: a) felə aid xüsusiyyətləri: hərəkət bildirməsi, təsdiq və inkar, təsirli və təsirsiz olması, felin qrammatik məna növlərinə görə dəyişməsi; b) zərfə aid xüsusiyyətləri: nitqdə başqa bir felə aid olub, onun ifadə etdiyi hərəkətin tərzini, zamanını... bildirməsi, cümlədə zərflik rolunda çıxış etməsi.

Felin təsriflənməyən formalarına aid qrammatik təhlil.

İdi, imiş köməkçi felləri. Bunlara hissəciklər də deyilməsi. Onların aid olduqları sözləri keçmiş zamana bağlamaq xüsusiyyəti. Onların əsasən adlarla – isim, sifət, say, əvəzlik, eləcə də zərflə işlənməsi. Bu hallarda onların bütöv halda (imiş, idi) işlənməsi.

İdi, imiş köməkçi fellərinin indiki, nəqli keçmiş, gələcək zamanları ilə, fellərin vacib, lazım, arzu, şərt şəkilləri ilə işlənməsi. Həmin fel şəkilləri ilə həm bütöv halda (idi, imiş) fellərdən ayrı tələffüz edilməsi və ayrı yazılması; həm də ixtisar formalarında (-dı, -di, -du, -dü; -mış, -miş, -muş, -müş) fellərlə birlikdə tələffüzü və yazılması. Hər iki halda hərəkətin keçmiş zamana aidliyi.

Fel bəhsi üzrə morfoloji təhlil.

Fənlərarası əlaqə: hərəkət (fizika), metafora (ədəbiyyat).

ZƏRF (14 SAAT)

Zərf haqqında ümumi məlumat. Zərfin qrammatik mənası. Zərfin quruluşca növləri. Sadə zərflər (tez, gec, dünən və s.). Düzəltmə zərflər (qəflətən, birdən, yanaşı və s.). Düzəltmə zərflərin əmələ gəlməsi. Mürəkkəb zərflər (dalbadal, arabir və s.). Onların orfoqrafiyası.

Zərfin məna növləri: tərzi-hərəkət zərfləri (birdən, asta, cəld, qaçaraq və s.), zaman zərfləri (dünən, sabah, sonra. əvvəl və s.), yer zərfləri (irəli, geri, yuxarı, aşağı və s.), miqdar zərflərii (çox oxumaq, az oxumaq və s.).

Azərbaycan dilində zərflərin qrammatik şəkilçilər qəbul edərək, morfoloji cəhətdən dəyişə bilməsi. İsim, sifət, say və əvəzliyə aid sözlərin zərf mövqeyində işlənib, hərəkətin tərzini, zamanı, yerini, kəmiyyətini bildirməsi, lakin onların bu halda da isim, sifət, say, əvəzlik olaraq qalması, zərfə çevrilə bilməmələri.

KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ (3 SAAT)

Köməkçi nitq hissələri haqqında ümumi məlumat. Köməkçi nitq hissələrinə aid sözlərin lüğəvi (leksik) mənalarının olmaması. Köməkçi nitq hissələrinin əsas nitq hissələrindən fərqi. Əsas fərq: lüğəvi mənanın olub-olmaması. Bu səbəbdən əsas nitq hissələrinə aid sözlərin müstəqil işlənə bilməsi, köməkçi nitq hissələrinə aid sözlərin müstəqil işlənə bilməməsi; əsas nitq hissələrinə aid olan sözlərin öz-özlüklərində cümlə üzvü rolunda çıxış edə bilməsi; köməkçi nitq hissələrinə aid sözlərin ayrılıqda cümlə üzvü ola bilməmələri; əsas nitq hissələrinə aid olan sözlərə sual verməyin mümkünlüyü və onların suallara cavab verməsi, köməkçi nitq hissələrinə aid sözlərin suallara cavab verə bilməməsi.

Köməkçi nitq hissələrinin növləri: qoşma, bağlayıcı, ədat, modal sözlər, nida.

QOŞMA (7 SAAT)

Qoşmanın qrammatik rolu. Sözlərə qoşularaq, onlar arasında əlaqə yaratması. Qoşmaların adlıq, yiyəlik, yönlük, çıxışlıq hallarla işlənməsi: insan üçün, sənin üçün, evə kimi, səndən ötrü. Qoşmaların aid olduqları sözlərlə birlikdə cümlə üzvü olması. Qoşmaların orfoqrafiyası. Qoşmaların aid olduqları sözlərdən ayrı və onlara bitişik yazılması və tələffüzü.

Fənlərarası əlaqə: bənzətmə (ədəbiyyat), müəyyən məsafə, ölçü anlayışlarından istifadə (coğrafiya, riyaziyyat).

BAĞLAYICI (7 SAAT)

Bağlayıcıların qrammatik rolu. Bağlayıcının sözlər və cümlələr arasında əlaqə yaratması. Bağlayıcıların növləri. Tabesizlik bağlayıcıları, tabelilik bağlayıcıları.

Tabesizlik bağlayıcıları və onların işlənmə yerləri. Sözlər arasında: *müəllimlər və tələbələr.* Cümlələr arasında: *Yaz gəldi və ağaclar çiçəklədi.*

Tabelilik bağlayıcıları və onların işlənmə yeri. Cümlə arasında: *Bilirik ki, oxumaq lazımdır.*

Tabesizlik və tabelilik bağlayıcılarının növləri. Bağlayıcıların qoşmalardan fərqi. İlə köməkçi sözü bağlayıcı və qoşma kimi. İlə sözünün orfoqrafiyası. Əlaqədar olduğu sözlərdən ayrı və bitişik yazılması. Bitişik yazılanda -i səsinin ixtisarı və sözün ahənginə tabe olaraq -la, -lə şəklində yazılması.

Fənlərarası əlaqə: ədəbi əsərlərdən nümunələr (ədəbiyyat), elmi üslubda olan nümunələr (riyaziyyat, coğrafiya, tarix).

ƏDAT (7 SAAT)

Ədatların məna növləri: dəqiqləşdirici (məhz), qüvvətləndirici (ən, lap və s.), məhdudlaşdırıcı (yalnız, ancaq, təkcə və s.), əmr (di), arzu (kaş, barı), sual (məgər).

Ədatların qrammatik mənası. Cümlədə köməkçi vasitələr kimi işlənməsi. Sual ədatlarının (-mı, -mi, -mu, -mü) sual bildirməsi haqqında ayrıca məlumat. ***Ki*** və ***da, də*** sözlərinin həm bağlayıcı, həm də ədat kimi işlənməsi: *Biz ayrılan zaman demişdin **ki,** sən bir də bu yerlərə gələcəksənmi* (S. Vurğun). *Onda **ki** ağ umuzlara tökükdü saçlar, Güldü yarpaq, coşdu irmaq, güllər oynadı* (C. Cabbarlı). *Alim **də**, şair **də,** dağda çoban **da** deyir mənasını ona dilində* (S. Vurğun). *Mən **də** o günləri yaşasaydım ah, Mənə **də** gülsəydi o gülgün sabah...* (S. Vurğun).

Fənlərarası əlaqə: ədatlardan bədii əsərlərdə təsiri qüvvətləndirən vasitə kimi istifadə olunması (ədəbiyyat), ədat (xarici dil).

MODAL SÖZLƏR (6 SAAT)

Modal sözlərin qrammatik mənası – cümlədə ifadə olunan fikrə münasibət bildirməsi. Modal mənanın müxtəlif nitq hissələrinə aid sözlərlə, qrammatik vasitələrlə ifadə oluna bilməsi. Modal sözlərin isə ancaq bu məqsədlə işlədilməsi haqqında.

Modal sözlərin qrammatik mənaları. Təsdiq bildirənlər (əlbəttə, həqiqətən). Ehtimal bildirənlər (bəlkə, gərək).

Modal sözlərin orfoqrafiyası və onlarda vergülün işlədilməsi qaydaları.

Fənlərarası əlaqə: modal sözlərdən bədii əsərlərdə istifadə (ədəbiyyat).

NİDA (3 SAAT)

Nida haqqında ümumi məlumat. Onun nitqdə rolu. Nidanın digər nitq hissələrindən fərqi. Nidalarda intonasiya. Nidaların müəyyən hissi hallarla (sevinc, şadlıq, kədər, qorxu...) əlaqəsi. Nidaların orfoqrafiyası. Nidaların yazılışı zamanı durğu işarələrindən istifadə.

Fənlərarası əlaqə: bədii nida (ədəbiyyat), nida (xarici dil).

RABİTƏLİ NİTQİN İNKİŞAFI (27 SAAT)

Mətn və üslublar haqqında keçilmişlərin təkrarı;

Müxtəlif üslublu nitq üçün xarakterik sayılan dil vasitələri haqqında təsəvvürlərin genişləndirilməsi.

Nitqin üslubları: publisistik üslub haqqında anlayış; müəyyən prosesin təsviri elementləri olan mətnlər üzrə ifadə; verilmiş süjet əsasında inşa; ictimai-kütləvi mövzularda mühakimə xarakterli inşa.

Əməli yazı: ərizə, məktub, qəbz, elan, rəy.

Şagirdlər bacarmalıdırlar:

Oxu üzrə:

- publisistik üslubda mətni ifadəli oxumağı;

Mətnin təhlili üzrə:

- nitqin üslubunu müəyyən etməyi, mətndə publisistik üsluba məxsus vasitələri göstərə bilməyi;
- mətndə şəxsin hal-vəziyyətini təsvir edən hissələri fərqləndirə bilməyi;
- mətndə əşyaya, hərəkətə, vəziyyətə və s. necə qiymət verildiyini ifadə edən ayrı-ayrı dil vasitələrini seçib göstərə bilməyi.

Mətnin tərtibi üzrə:

- danışıq, bədii və publisistik üslublarda mətn (şifahi və yazılı) tərtib etməyi;
- insanın xarici görünüşü, hal-vəziyyəti və əhvalı haqqında nəqli xarakterli (konkret bir süjet əsasında, şagirdlərin şəxsi təəssüratları, yaxud da ictimai-faydalı bir iş barədə) inşa yazmağı;
- sübutlu mühakiməyə əsaslanan əxlaqi-etik mövzuda inşa yazmağı.

Keçilmişlərin təkrarı (7 saat).

Rafiq İsmayılov
Xanım Qasımova
Fazil Ellazov

AZƏRBAYCAN DİLİ
Ümumtəhsil məktəblərinin
7-ci sinfi üçün dərslik
Bakı, "Altun Kitab", 2008

Korrektor	*Pərvanə Allahverdiyeva*
Rəssam	*Şəlalə Rüstəmova*
Bədii tərtibat	*Rafiq İsmayılov*

Nəşriyyatın ünvanı:
Bakı, Cavadxan küçəsi, 21ª.
Telefon: 431 03 45
Elektron poçtu: altun_kitab@yahoo.com

4. AZN

Dərslik

- Nəzəriyyə
- Çalışmalar
- Mətnlər

İş dəftəri

- Çalışmalar
- Krossvordlar
- Testlər

Müəllim üçün vəsait

- Metodik tövsiyələr
- Dərs planı
- Çalışma və testlərin cavabları

ALTUN KITAB